# AŞIQ ŞƏMŞİR

# DASTANLAR VƏ ƏHVALATLAR

**Məsləhətçi:** Qənbər Şəmşiroğlu
**Redaktor:** Füzuli Ramazanoğlu

**Aşıq Şəmşir.**
**Dastanlar və əhvalatlar.**
**Bakı-2015. 300 səh.**

Müxtəlif mətbuat orqanlarında Səməd Vurğunla Aşıq Şəmşirin 1955-ci ilin yayında Kəlbəcərdəki məşhur görüşlərindən ayrı-ayrı parçalar nəşr olunmuşdur.

Bu kitabda ustad aşığın Səməd Vurğunla bağlı görüşlərindən və xatirələrindən ibarət qələmə aldığı dastan oxuculara tam şəkildə təqdim edilir.

***Aşıq Şəmşir ocağının icazəsi olmadan bu kitabda nəşr olunmuş şeir və mətnlərdən istifadə etmək qadağandır.***

$\frac{4702000000}{N098-2014}$ ***qrifli nəşr***

©

# SƏMƏD VURĞUN VƏ AŞIQ ŞƏMŞİR DASTANI

Əziz dostlar, qohumlar, sirdaşlar, məsləkdaşlar! Eşidəcəyiniz bu dastanın tarixi və yaranma səbəbləri dastan danışılan zaman hər kəsə məlum olacaqdır. Azərbaycan aşıq dastanlarının özünəməxsus təqdimetmə qaydaları var. Bu dastanda da bir dastançılıq qanunlarına əməl etməliyik.

Dastanlar, adətən, ustadnamələrlə başlayır. Biz də ustadnamələrlə başlayaq. Deyilən ustadnamələrin əksəriyyəti ellər arasında tanınmış ustad sənətkarların, müdrük söz sahiblərinin olub.

Biz də bu ənənəyə sadiq qalıb Aşıq Ələsgərdən başlayaq.

Ustad sənətkar Aşıq Ələsgər “Dünyada” rədifli divanisində görək nə deyir, biz də deyək, könlünüz şad olsun:

*Sirat-sual qabaqdadı,*
*nə damaxdı dünyada?!*
*Kəlmeyi-şəhadət lazımdı*
*ölən vaxtı dünyada.*
*Tut orucun, qıl namazın,*
*şükür eylə Allaha.*
*Gül olma dünya malına,*
*qalacaxdı dünyada.*

*Yalan deyib, qeybət etmə,*
*rəhmin gəlsin canına.*
*Öz-özünə fəxrlənib*
*baxma şövkət-şanına.*
*Əzrayıl əlində çəngəl*
*gələcəkdi yanına.*
*Qəzəbindən gül irəngin*
*solacaqdı dünyada.*

*Şəyirdlikdə can çürütdüm,*
*hərgiz ustad olmadım.*
*Nəfs öldürdüm, düz dolandım,*
*dostumdan yad olmadım.*
*Ələsgərəm, qan ağladım,*
*ölüncə şad olmadım.*
*Yar sarıdan fələk mənə*
*qara baxdı dünyada.*

Bəli, dastançılar ustadnamələri bir deyil, iki deyiblər. Biz də deyək iki olsun. Görək Ağdabanlı Şair Qurban "Dünyada" rədifli divanisində nə deyib, biz də deyək ruhu şad, könlünüz abad olsun:

*Səadətdə kəskin oldu*
*kimin baxtı dünyada,*
*Kani-saxa nəzər etdi,*
*ya xoşbaxtdı dünyada.*
*İbadətdən olma qafil,*

*səxavətdən, həmçinin,*
*Əgər olsa əldə varın*
*olan vaxtı dünyada.*

*Al qəhərin qüdrətini,*
*unutma, eylə həras.*
*Fəxrlənib olma məğrur,*
*geyinib əlvan libas.*
*Həm söhbətdi, həm nəsihət,*
*həm əldə bir əsas.*
*Tarac oldu neçələrin*
*tacı-taxtı dünyada.*

*Hanı Nəmrud, hanı Şəddat,*
*hanı Firon zülümkar?*
*Hanı loğmanı-Ərəstun,*
*qoymaz qala ruzigar?!*
*Hanı İskəndər, Süleyman –*
*olan sahib-ixtiyar?*
*Kim gəlsə beş gün qonaqdı,*

*ölüm haqdı dünyada.*

*Fəhlə-kəndli muzdurları,*
*füqaranı dağlayan,*
*Nərdivan var: enər-qalxar,*
*gülər bir gün ağlayan.*
*Nakəslərə qardaş deyib,*
*namərdə bel bağlayan-*
*Əqli-kamil demək olmaz,*
*bir axmaqdı dünyada.*

*Bişumari lənət şeytana,*
*sədhazari-sədhazar.*
*Xalqın malın alma əldən*
*qoçu-quldur, ol kənar!*
*Bir misal var: xain artmaz,*
*ədalət açar bazar.*
*Külli-aləm şükr eliyər:*
*- Xoş gün çıxdı dünyada!*

*Məhəngsən, seç simu-zəri,*
*sərrafısan - bax sözə.*
*Kəlmələri şəhdi-şəkər;*
*gah nəsihət, gah məzə.*
*Qurbana haqdan mərhəmət,*
*sizdən də rəhmət bizə.*
*Dastan deyib, dəftər yazan*
*hanı? - Yoxdu dünyada.*

Ustadlar ustadnaməni iki deməyib, üç deyiblər. Biz də deyək, üç olsun, düşmənin ömrü puç olsun.

Bu dəfəki ustadnaməni kimdən deyək, kimdən deyək, Aşıq Şəmşirdən:

*Uyma şeytan fitnəsinə -*
*qeyrətin əldən gedər.*
*Batar adın xalq içində-*
*hörmətin əldən gedər.*
*Müxənnəsdən kənar dolan,*

*mərd yolunda ver canı.*
*Cəfa çəkmə bivəfaya,*
*əziyyətin əldən gedər.*

*Haram ilə həmrah olma,*
*halaldan axtar maya.*
*Nəsihətli söz mətləbdi*
*ağlı olan kimsəyə.*
*Oğlun-qızın bəd olarsa,*
*ev yoldaşın bihəya-*
*Qazandığın qızıl olsa,*
*ləzzətin əldən gedər.*

*Bir kimsənin barəsində*
*nə şər, nə böhtan demə.*
*Danışdığın o şər, böhtan*
*özünü salar qəmə.*
*Bal da olsa qədərindən*
*bir qaşıq artıq yemə.*
*Ovqatını təlx eyləyər,*

*taqətin əldən gedər.*

*Hünərini sınamamış*
*çıxma hər çətin raha.*
*Öz tayından ayrılarsa*
*muş parçalar əjdaha.*
*Ovun keçsə bərəsindən*
*ata bilməzsən daha.*
*Şikar tutmaq asan deyil,*
*fürsətin əldən gedər.*

*İncitmə bir qul oğlunu,*
*öz yolunda doğru dur.*
*Füqaranı ayaqlama,*
*işlərin tapanda sur.*
*Vəzifədə olan vaxtı*
*sadə danış, başda otur.*
*Sonra sözün tutan olmaz,*
*minnətin əldən gedər.*

*Şəmşir deyər: arif üçün*
*bir əhli-dil yaxşıdır.*
*Hər igidin öz oylağı,*
*bülbülə gül yaxşıdır.*
*Yaxşı qonşu, vəfalı dost–*
*gəzməyə el yaxşıdır.*
*Onda olmaz dərdi-qəmin,*
*möhnətin əldən gedər.*

Hə, əziz oxucular! Sizlərə hardan deyim, kimdən deyim, XX əsr Azərbaycan ədəbiyyatının korifeyi, şeiriyyəti qədər də böyük insanlığı, özünəməxsus yüksək şəxsiyyəti və daxili zənginliyi ilə müasirlərindən seçilən Azərbaycanın qüdrətli söz sərkərdəsi Səməd Vurğunla elə həmin əsrdə şairlə çağdaş yaşamış, sazın-sözün ulu nəğməkarı Aşıq Şəmşirin Kəlbəcərdə görüşündən və bundan sonra onların ara-

sında yaranmış sənət və mənəvi dostluqdan.

Görənlər, eşidənlər belə nağıl edirlər ki, hər il yay aylarında Azərbaycanın şair və yazıçıları, elm, mədəniyyət və incəsənət xadimləri Kəlbəcər yaylaqlarında, İstisuda dincəlməyə gələrdilər.

1955-ci ilin avqust ayı da belə gözəl yay aylarından biri idi. Azərbaycanın böyük yazıçısı Süleyman Rəhimov ailəsi ilə birlikdə İstisuda istirahət edirdi.

Həmin vaxt ünlü şairimiz Səməd Vurğunun ailəsi Şuşada dincəlirdi. Şairin özü isə Bakıda iş-güclə məşğul idi.

Səməd Vurğunla yaxın dost olan Süleyman Rəhimov onunla telefon əlaqəsi saxlayır. Xoş-beşdən sonra yazıçı deyir:

- Ay Səməd, dünyanın hər yerində olmusan, Azərbaycanı qarış-qarış gəzmisən. Ancaq təəssüf ki, Kəlbəcərdə olmamısan.

Gəl, gör buralar necə füsunkar bir diyardır. Əgər gəlib buraları görsən deyərsən ki, dünyanın gözəllik tacı elə Kəlbəcərdir.

Dostunun tərifi və təkidli çağırışı şairi həvəsləndirir. Beləcə, Kəlbəcərə gəlməyə qərar verir. Şuşa səhərindən ailəsini də götürüb Kəlbəcərə - İstisuya gəlir.

***

Həmin ilin yay aylarında Kəlbəcərin Ağdaban kəndindən xeyli aralı olan Qanlıgöl yaylağında camaat ot biçininə çıxmışdı. O zaman kolxozda kolxoz ilk partiya təşkilatının katibi vəzifəsini icra edən Aşıq Şəmşir həmin ərazidə ot biçininə nəzarət etmək üçün biçinçilərin yanında idi. Bir çox adamlar, xüsusən, Aşıq Şəmşiri çox nadir hallarda görən Bağırlı kəndinin camaatı aşığın burada olmasından istifadə

edərək sözü bir yerə qoyurlar ki, bu axşamüstü ustada qulaq assınlar.

"Uğurlu yalı" deyilən yaylağın Qanlıgöl səmtindəki sahədə qızğın iş gedirdi. Gün yenicə çeştə qalxmışdı, adamlar yenicə ürəklə işə başlamışdılar. Birdən kolxozun briqadiri Allahverdinin diqqətini Bəzirgan bulağı tərəfdən çaparaq gələn bir atlı cəlb edir. O, partkomun yanına gəlib Yanşaq kəndi tərəfdən çıxıb Bəzirgan bulağının yanından gələn çapar barədə Aşıq Şəmşirə xəbər verir. Aşıq və onun ətrafında olan adamlar maraqla gələn atlıya tamaşa etməyə başlayırlar. Atlı yaxınlaşır, atı onların yanına sürüb saxlayır. Salam verir, əleyk alır. Hamı onu tanıyır: Yanşaq kənd sovetinin katibi yanşaqlı Seyid Mürsəlin oğlu Yunis idi. At qan-tərin içindəydi. Yunis Aşıq Şəmşirlə əl-təmən olur. Ustad maraqla soruşur:

- Ay Yunis bala, atı nə yaman bərk sürmüsən? Xeyirdimi belə, hara gedirsən?

Yunis cavab verir:

- Şəmşir dayı, Allaha şükürlər ki, sizi burada tapdım, elə sizin dalınızca gəlmişəm. Rayon partiya komitəsinin bürosudur. Birinci katib Səfər Verdiyev telefonla şəxsən mənə tapşırıq verdi ki, gəlim sizi aparım. Allaha şükür ki, elə siz də burada oldunuz, yoxsa Ağdabana gedəceydim.

Aşıq Şəmşir təəccüblə:

- Ay Yunis, Səfər Verdiyev yoldaşla mən srağagün görüşmüşəm. İclas barədə heç nə deməyibdir. Həm də axı camaatı yenicə yığıb işə başlamışam, büro mənsiz də keçə bilər. Bir də yaşlı adamam, Kəlbəcərə necə gedim, uzaq yoldur. – deyə bir az gileyli danışır.

Yunis əl çəkmir, təkid edir:

- Yox, Şəmşir əmi, Sizə bir də deyirəm ki, rayonun rəhbəri olan I katib şəxsən özü mənə tapşırıq verib. Xahiş edirəm, ayrı söz danışmayın, mütləq getməliyik.

Onların söhbətinə qulaq asan ağsaqqallar da Yunisin təlaşını görüb Şəmşir kişiyə xahiş edib deyillər ki, yol çətin, əziyyətli də olsa gedin, bəlkə vacib bir məsələ var, katib sizinlə məsləhətləşmək istəyir.

Aşıq Şəmşir könülsüz olaraq Yunislə dağ yolu ilə Yanşağa, oradan da Qamışlı kəndinə enir. Buradan şosse yoluna gəlmək üçün iki istiqamət vardı: biri Yalkənd-Güneypəyə-Nadirxanlı yolu idi, digəri isə Qamışlı çayının sahili idi ki, bura ilə gedib şosse yoluna çıxmaq olardı. Yalkənd yolu çox uzaq, Qamışlı yolu isə çətin idi. Aşıq Şəmşir deyir:

- Ay Yunis, biz ikimiz bir atla çayı keçə bilməyəcəyik. Çünki şosse yola çatmaq

üçün çayı ən azı 20 dəfə o tay-bu taya keçmək lazımdır.

Yunis cavab verir:

- Ay Şəmşir dayı, heç narahat olmayın, mən cavan oğlanam, çayı keçəcəm. Siz atı rahatca minərsiniz.

Onlar çay aşağı "Qamışlı körpüsü" deyilən yerə gəlirlər. Burada Aşıq Şəmşiri birinci katib Səfər Verdiyevin maşını gözləyirdi.

Aşıq Şəmşirlə Seyid Yunis Qamışlı körpüsünə çatanda I katibin sürücüsü Əlaslan onları qarşılayır və tez maşının qapısını açıb ehtiramla:

- Şəmşir əmi, buyurun, əyləşin! – deyir.

Aşıq Şəmşir heç bir söz demədən Yunislə sağollaşıb maşına əyləşir. Nadirxanlı kəndinə çatanda sürücüyə doğru dönüb nigarançılıqla soruşur:

- Ay Əlaslan bala, xeyir olsun, nə bürodu belə, məni Verdiyev təcili çağırtdırır?

Əlaslan sakit və təmkinlə bildirir:

- Şəmşir əmi, nədisə çox adam yığışıb. Hər halda xeyirli iclasdı.

Bu müəmmalı cavabdan bir şey başa düşməyən Aşıq Şəmşir:

- Oğul, təki xeyir olsun, şərə və şərçilərə lənət. - deyir.

Kəlbəcərin ayağında "Yetim Hüseynin binəsi" deyilən yerdən yol ayrılırdı. Yolun biri Kəlbəcərə diklənir, digəri isə çayın solu ilə İstisu kurortuna gedirdi. Əlaslan bura çatanda İstisu yolu ilə gedir. Aşıq Şəmşir bundan şübhələnib soruşur:

- Ay bala, niyə sağnan getmədin?

Çox baməzə və zarafatcıl olan Əlaslan deyir:

- Şəmşir əmi, Buğa heykəlinin yanından rayona çıxacağam, bu yolun kənarında iş gedir. Ona görə buradan gedirik.

Bu inandırıcı sözdən sonra aşıq heç bir söz demir. Maşın gəlib Kəlbəcərin altında yerləşən Boyaqlı kəndinin körpüsünə çatanda Əlaslan maşını əyləyib deyir:

- Şəmşir əmi, indi düşə bilərsiniz. Maşın körpüdən keçmir. Buradan belə ayaqla gedəcəyik!

Aşıq yenə sual verib:

- Ayə, sən nə oyun çıxardırsan?! – deyəndə, sürücü cavab verir:

- Şəmşir əmi, o tayda, Boyaxlı suyunun üstündə qonaqlar var. Onlar sizi gözləyirlər. Biz ora qədər piyada gedək. - deyib qabağa düşür. Aşıq Şəmşir qonağın kimliyini soruşsa da Əlaslan yenə demir. Çünki onu göndərəndə Səməd Vurğun Səfər Verdiyevdən xahiş etmişdi ki, adamlarına

tapşır ki, Aşıq Şəmşir bura çatanacan, məni görənəcən gəlməyimi deməsinlər.

Onlar Boyaxlı suyunun yanına çatanda böyük bir çadırın qurulduğunu və içəridən saz səsi gəldiyini eşitdikdə Aşıq Şəmşir narahat halda yenə soruşur:

- Ay bala, bu nə məclisdi?

Bu dəfə Əlaslan bildirir:

- Şəmşir əmi, Səməd Vurğun Kəlbəcərə qonaq gəlib, səni ona görə gətirmişik.

Aşıq agıqlı-acıqlı deyir:

- Ay zalım, niyə bu qədər yolda mənə sözün düzünü demirdin?

Çadırdan bir neçə nəfər eşiyə çıxır. Birinci Səfər Verdiyev aşığı salamlayır, amma Səməd Vurğun eşiyə çıxanadək Aşıq Şəmşir çadıra daxil olur və onu qarşılamağa duran şairlə ata-bala kimi qucaqlaşır. Aşıq deyir:

- Böyük şair, sizin Kəlbəcərə gəldiyinizi heç kəs mənə xəbər vermədi. Ona görə hazırlıqsız olduğuma görə sizdən üzr istəyirəm.

Səməd Vurğun cavabında bildirir:

- Aşıq qardaş, xahiş edirəm, heç kəsi günahkar görməyin. Bunlar mənim xahişimə görə olub. Əslində, mən İstisuya yox, Şuşaya gəlmişdim. Qardaşım Süleyman Rəhimov zəng edib məni İstisuya dəvət elədi. Dağları görmək çoxdankı arzum olduğuna görə uşaqlarımı da götürüb Buraya gəldim. İstisuda isə sənin qohumun katib Verdiyev yoldaş sənin barəndə danışanda 1938-ci ildə Aşıqlar Qurultayında görüşümüz zamanı dilindən eşitdiyim

*Səni qarı gördüm, bağrım qan oldu,*
*Mənim saqqalımın çal vədəsində*

- misraları ilə başlayan qoşman yadıma düşdü. Verdiyevdən bizi görüşdürməsini xahiş etdim. Sağ olsun katibi, burada, bu suyun üstündə bu görüşü təşkil etdi.

Bu qısa tanışlıqdan, dil-xoşluqdan sonra gəvə-xalı ilə döşənmiş alaçıqda Səməd Vurğun əyləşib yastığa söykənir. Aşıq Şəmşir isə oturmur. Şair, məclisdə bayaqdan saz çalan Aşıq Ələsgərin nəvəsi Aşıq Əliyə müraciətlə deyir:

- Aşıq qardaş, olarmı sazı Aşıq Şəmşirə verəsiniz?! Qoy biz az da ustad bizi feyziyab eləsin.

Aşıq Əli böyük kamali-ədəblə sazı sinəsindən aşırıb əlləri üstə ustada verir. Aşıq Şəmşir sazın zilini-zil, bəmini-bəm üstə kökləyib, "Hüseyni" havası üstündə oxumağa başlayır:

*Elimin-günümün böyük şairi,*

*Gətirib dağlara səfa, xoş gəlib.*
*Həsrətin çəkirdik biz intizarla,*
*Eyləyib əhdinə vəfa, xoş gəlib.*

*Minnətdarıq qabil söz ustadına,*
*Şan-şöhrət yaraşır onun adına,*
*Bizim Kəlbəcəri salıb yadına,*
*Bu yolda çəkibdi cəfa, xoş gəlib.*

*Alqışladıq mahal ilə, el ilə,*
*Qarşıladıq çiçək ilə, gül ilə.*
*Saz ilə, söz ilə, şirin dil ilə,*
*Şəmşir deyir bu sərrafa, xoş gəlib.*

Şeir Səməd Vurğunun çox xoşuna gəlir. Yanında duran, əslən Qazaxdan olan rayon prokuroru Paşa Salahlıdan kağız-qələm istəyir. Kağız olmadığına görə "Kazbek" qutusunu çıxarıb üstünə nəsə yazmağa başlayır.

Səməd Vurğun yazıb qurtardıqdan sonra Aşıq Şəmşirə oturub çay içməsini xahiş edir. Aşıq Əliyə isə söhbətini davam etdirməsini deyir.

Məclis axşamüstünə qədər davam edir. Axşamüstü Səfər Verdiyevin təklifi ilə rayon Mədəniyyət evində Səməd Vurğunla yerli əhalinin keçiriləcək görüşünü həyata keçirmək üçün rayon mərkəzinə gəlirlər. Mədəniyyət evində insan əlindən iynə atsaydın yerə düşməzdi. Gurultulu alqış sədaları altında səhnədə rayon rəhbərliyi, Səməd Vurğun və ustad sənətkar əyləşir. Görüşə gələn hər bir kəlbəcərli şairi gül-çiçəklə qarşılayır. Səhnədə əyləşənlərin ətrafında o qədər gül dəstələri yığılır ki, zalda oturanlar onların ancaq başlarını görə bilirlər.

Məclisi raykomun I katibi aparırdı. O, giriş sözündən sonra sözü rayon Xalq Ma-

arif şöbəsinin müdiri olan el şairi Zal Cabbarlıya verir.

Zal müəllim böyük şairin həyat və yaradıcılığı barədə geniş çıxış edir. Axırda da görüş iştirakçılarının alqış sədaları altında şairin bir neçə şeirini əzbərdən deyir. Başqa bir neçə nəfər çıxış edir, sonra katib sözü Səməd Vurğuna verir.

Şair səhnəyə qalxanda mədəniyyət evində ayaq üstə duran adamlar onu gurultulu alqışlarla qarşılayır. Səməd Vurğun ağır-ağır çıxış edir:

- Əziz Kəlbəcər camaatı! Sizə təşəkkürümü bildirir, sağollar deyirəm. Bir şeyi nəzərinizə çatdırmaq istəyirəm ki, mən nəinki Azərbaycanın müxtəlif bölgələrində, hətta dünyanın bir çox ölkələrində böyük iclas salonlarında çox-çox görüşlərdə iştirak etmişəm. Səmimi etiraf edim ki, bu hərarətdə, bu istilikdə, bu təntənədə

görüşü ömrümdə ilk dəfədir ki, görürəm. Məhz buna görə də sizlərə bir daha "Çox sag olun!" - deyirəm.

Səməd Vurğun bir xeyli danışandan sonra əlavə edir:

- İndi icazə verin, bayaq bulaq başında "Kazbek" qutusunun üstünə yazdığım və ilk dəfə orada oxuduğum şeiri sizə də oxuyum.

Üzünü prokuroruna tutub:

- Paşa, o "Kazbek" qutusunu mənə ver! – deyir və zaldakıların alqış sədaları altında yazdığı şeiri oxuyur. Uzun sürən alqışlardan sonra camaat tələb edir ki, qoy Aşıq Şəmşir də bulaq üstə yazdığı şeiri oxusun.

Ustad da öz şeirini oxuyur. Yerdən təklif gəlir ki, bəs Şəmşir əmi Səməd Vurğuna cavab yazıbsa qoy onu da oxusun.

Aşıq Şəmşir əlini qaldırıb camaata narahat olmamağı xahiş edir. Sazı sinəsinə basıb "Göyçə gülü" və "Qaytarma" havaları üstündə şairin şeirini və bədahətən özünün ona dediyi cavabı birnəfəsə oxumağa başlayır:

**Səməd Vurğun:**

*Aşıq Şəmşir, Dəlidağdan keçəndə*
*Kəklikli daşlardan xəbər al məni.*
*Ceyran bulağından qızlar içəndə*
*Saz tutub, söz qoşub, yada sal məni.*

**Aşıq Şəmşir:**

*Qoşqarla yanaşı duran başın var,*
*Bizim el tanıyır uca dağ səni.*
*Yanır yolumuzda sənət çırağın,*
*Bilirik şeirdə bir mayak səni.*

**Səməd Vurğun:**

***Hay vurub, qıy vurub, səs sal dağlara,***
***Gözəllər oylağı göy yaylaqlara,***
***Mənim bu dərdimi de oylaqlara,***
***Sinəmdən oxladı bir maral məni.***

**Aşıq Şəmşir:**
*Əzəldən başında cəm olub kamal,*
*Səni oğul kimi sevir el, mahal.*
*Azad ölkəmizdə hər zaman ucal,*
*İstəyir könlümüz bu sayaq səni.*

**Səməd Vurğun:**
*O ceyran baxışlı baxdı uzaqdan,*
*Canımı odlara yaxdı nahaqdan,*
*Yüz il də dolanıb keçsə o vaxtdan,*
*Unutmaz aləmdə əhli-hal məni.*

**Aşıq Şəmşir:**
*Sən kamil sərrafsan, göz ustadısan!*
*Fəhmin, fərasətin öz ustadısan!*

*Qabil sənətkarsan, söz ustadısan:*
*Dəryasan, arzular min bulaq səni.*

**Səməd Vurğun:**
*Gəlmişəm, gəzməyə sizin dağları,*
*Baxım yaylaqlara doyunca barı.*
*Şairin bu yerə düşdü güzarı,*
*Gözəl qarşıladı xoş iqbal məni.*

**Aşıq Şəmşir:**
*Günbəgün gül açır Vaqifin bağı,*
*Bir çox şairlərin ana torpağı.*
*Səmədin məskəni, şeirin ocağı,*
*Kamala yetirib o Qazax səni.*

**Səməd Vurğun:**
*Bəxt məni bu yerə qonaq göndərdi,*
*Gedirəm, yamandı ayrılıq dərdi.*
*Demə, Səməd Vurğun gəldi-gedərdi,*
*Unutmaz bu oba, bu mahal məni.*

**Aşıq Şəmşir:**
*Şəmşirlə görüşün qaldı yadigar,*
*Unutmaz nə qədər canında can var.*
*Səndən dərs almağa diyarbədiyar-*
*Gəzirəm əlimdə şam-çıraq səni.*

Şeirlər oxunub qurtardıqdan sonra Səməd Vurğun aşığın yanına gəlir, üzünü camaata tutub deyir:

- Əziz kəlbəcərlilər! İcazə verin, mən öz təəccüblü təəssüratımı sizlərə çatdırım. Axı mən yazdığım şeiri bulağın üstündə tək bircə dəfə oxudum. Aşıq qardaş isə indi dediyi şeiri oxumadı. İndi qulaq asanda gördüm ki, o, nəinki mənim şeirimi oxudu, hətta ona bir bənd də əlavə etməklə dedi. Bu necə ola bilər?! Görünür, bu, möcüzədir. Bunu görəndən sonra mən böyük şairimiz Nizaminin yazdığı bir

şeirindəki aşağıdakı ifadəyə etiraz edirəm.

Nizami deyir:

*Şeirdən ucalıq umma dünyada,*
*Çünki Nizamilə qurtardı o da!*

Bəs onda Aşıq Şəmşir?! Bu yaddaş və şeir möcüzə deyilmi?!

Qulaq asanlar yerlərdən qışqırdılar.

- Bəs Səməd Vurğun, bəs Səməd Vurğun?!

Məclis yekunlaşandan sonra Səməd Vurğun aşıqla doğması, əzizi kimi qucaqlaşıb İstisuya gedir. Səfər Verdiyevə üzünü tutub deyir:

- Yoldaş katib, mən Bakı ilə danışacağam. Aşıq qardaşa mənim qaldığım sanatoriyaya göndəriş alacağam.15 gün bura-

da olduğum müddətdə onunla bir sanatoriyada dincəlmək istəyirəm.

Səməd Vurğun Aşıq Şəmşirlə ayrılanda deyir:

- Aşıq qardaş, səhər əziyyət çəkib İstisuya gələrsən. Mən katibə də dedim, sənin üçün göndəriş alacağıq. Birlikdə bir neçə gün dincələrik.

O, maşına oturub Kəlbəcərdən 25 kilometr aralı - Dəlidağın ətəklərində yerləşən sanatoriyaya doğru üz tutdu.

Səhər Səfər Verdiyev Aşıq Şəmşiri bir maşında əyləşdirib İstisuya yola salır.

Aşığı İstisu sanatoriyasının işçiləri gözləyirdi. Onlar sənətkarı xoş əhvalla qarşılayıb Səməd Vurğunun yanına aparırlar. Şair onu Tərtər çayının düz sağ sahilində inşa edilmiş sanatoriyanın həyətində yaxın dostları Süleyman Rəhimov, Ağəli Qasımov, böyük qardaşı Mehdixan

Vəkilov, İstisu sanatoriyasının baş həkim Bağırov, özünün və Süleyman Rəhimovun ailə-uşaqları ilə birlikdə gözləyirdi. O, Aşıq Şəmşiri görəndə özünəməxsus şən əhval-ruhiyyə ilə qarşılayıb üzünü orada dayananlara tutaraq deyir:

- Bax, bu da aşıq qardaşım Şəmşir, zəhmət olmasa, tanış olun!

Sanatoriyadakılar hamısı Aşıq Şəmşirə "Xoş gəldin!" - deyir. Səməd Vurğun üzünü sanatoriyanın baş həkiminə tutub:

- Yoldaş Bağırov, xahiş edirəm aşığa qalacağı otağın yerini göstərin. Qoy hələlik istirahət eləsin, axşamüstü elə bu sanatoriyanın həyətində məclis qurarıq.

Aşıq Şəmşir təşəkkürlərini bildirib otağa keçir və onu otağa gətirən həkimə xahiş edir ki, Zar və Zivel kəndlərinə zəng vurdurub şəyirdləri Aşıq Xalıqverdiyə, Aşıq İslama və balabançı Şavağata bildir-

sin ki, o, İstisu sanatoriyasında Səməd Vurğunun görüşündədir. Onlar da gəlsinlər.

Aşığın bu xahişi bir növ əbəs idi. Çünki, nəinki aşıqlar, hətta İstisu sanatoriyalarında dincələn əksər adamlar dünəndən Səməd Vurğunun şamına yığışıb görüş gözləyirdilər.

Birinci katib Səfər Verdiyev və raykomun işçiləri də bu görüşə gəlmişdilər.

Axşamüstü sanatoriyanın geniş həyətində insan əlindən tərpənmək mümkün deyildi.

Açıq havada Səməd Vurğunun ağ saçları görünəndə minlərlə adam "Ura!" sədaları altında onu alqışlayır. Adamların səsi Tərtər çayının qıjıltı ilə axan səsinə qarışıb xüsusi ahəngə çevrilir.

Yenə katib özü qısa çıxış edib, sözü Səməd Vurğuna verir. Şair sağ əlini ağ saçlarının arasında bir-iki dəfə gəzdirərək sözə

başlayır. Qısa da olsa əhaliyə dünən Turş-suyun üstündəki görüşdən və Aşıq Şəm-şirlə şeirləşməsindən söz açaraq, camaata sağollarını bildirir. Söz Aşıq Şəmşirə veriləndə, o, artıq ətrafında cəmləşən aşıq dostları və şagirdləri ilə sözə başlayır. Bir neçə kəlmə ilə şairə təzədən "Xoşgəldin" dedikdən sonra sazının zilini-zil, bəmini-bəm kökləyir.

Aşıq İslam "Dubeyti havası üstündə Səməd Vurğunun "Dağlar" şeirini, Aşıq Şəmşir də özünün "Dağlar" şeirini oxuma-ğa başlayırlar:

**Səməd Vurğun:**
*Binələri çadır-çadır,*
*Çox gəzmişəm özüm, dağlar!*
*Qüdrətini sizdən aldı*
*Mənim sazım, sözüm, dağlar!*

**Aşıq Şəmşir:**
***Səbrin varmı doqquz aya,***
*Şən obalı, elli dağlar?!*
*Buludları salar saya,*
*Səhər sərin yelli dağlar.*

**Səməd Vurğun:**
*Maral gəzər asta-asta,*
*Enib gələr çeşmə üstə,*
*Gözüm yolda, könlüm səsdə,*
*Deyin, necə dözüm, dağlar?*

**Aşıq Şəmşir:**
*Yazda edirsən zümzümə,*
*Sona gəlir göldə çimə,*
*Kəklik daşda ötür nəğmə,*
*Şirin-şəkər dilli dağlar.*

**Səməd Vurğun:**
*Hər obanın bir yaylağı,*

*Hər tərlanın öz oylağı,*
*Dolaylarda bahar çağı:*
*Bir doyunca gəzim, dağlar!*

**Aşıq Şəmşir:**
*Al bəzənir göy meşələr,*
*Gedir qəmlər, əndişələr,*
*Açır nərgiz-bənövşələr,*
*Olur çəmən güllü, dağlar.*

**Səməd Vurğun:**
*Qayaları baş-başadır,*
*Güneyləri tamaşadır,*
*Gödək ömrü çox yaşadır,*
*Canım dağlar, gözüm dağlar!*

**Aşıq Şəmşir:**
*Tərlan səndə yuva salır,*
*Qartalların ilham alır,*
*Çəmənlərin tamaşalı,*

*Çiçəklərin ballı, dağlar.*

**Səməd Vurğun:**
*Bir qonağam bu dünyada,*
*Bir gün ömrüm gedər bada;*
*Vurğunu da salar yada*
*Düz ilqarlı bizim dağlar.*

**Aşıq Şəmşir:**
*Şəmşir bilməz yaşın nədir,*
*Vəsməlidir qaşın, nədir?*
*Çən-dumandır başın, nədir?*
*Ağ yağışlı, selli dağlar.*

Bəli, əzizlərim! Söz tamama yetir. Alqış səsləri aləmi ağzına alır. Yerlərdən qışqırıb deyirlər ki, Şəmşir əmi, ayrı nə demisən, xahiş edirik oxu, biz də eşidək.

Səməd Vurğunu görəndən bəri sevinci yerə-göyə sığmayan Aşıq Şəmşir Kəlbəcər

şairlərinə, aşıqlarına üz tutub "Cəlili" və "Qaytarma" havaları üstündə "Görəndə" rədifli şeirini oxuyur:

*Bayram oldu, könlüm açdı təzə yaz,*
*Qələm tutdu əl, şairi görəndə.*
*Bu imiş könlümdə əzəldən muraz,*
*Başa yetdi bil, şairi görəndə.*

*Döşəndi yolları zərdən, ipəkdən,*
*Xakına payəndaz güldən, çiçəkdən.*
*Gəlişini təbrik etdik ürəkdən,*
*Bizim tamam el, şairi görəndə.*

*Bir dastan başlasın Aslan Məmmədim,*
*Yazıb-yaratmağa hazırdı dedim.*
*Yerbəyerdən elim, əzmim, əbədim,*
*Təlatümə gəl, şairi görəndə.*

*Eşitsə, dayanmaz Zarlı Mehdixan,*

*Əlqəmənin təbi püskürər vulkan,*
*Tez gəlsin Kamran, Uğurlu Salman,*
*Əllərində gül, şairi görəndə.*

*Qafar bu şadlığı unudar məgər?!*
*Rüstəmə, Məmmədə göndərin xəbər.*
*Qəmkeşlə İdris də dosta müyəssər*
*Gətirsinlər ləl, şairi görəndə.*

*Vurğuna vurğunam həqiqət, bəli,*
*Yadımdan çıxarmı göyçəli Əli?!*
*Bu Şəmşirin necə xoşdu əməli!*
*Tapdım doğru yol, şairi görəndə.*

Yenə alqış səsləri, yenə gurultu dağları lərzəyə gətirir.

Beləliklə, əzizlərim, Səməd Vurğunla Aşıq Şəmşirin deyişmələri iki-üç günün içərisində dağlarda binə salan Qarabağ camaatının içərisində ildırım sürətilə ya-

yılmağa başlayır. Hətta bu xəbəri eşidən, Vurğun sözünün pərəstişkarı olanlar da Kəlbəcərə axışır.

Demək olar ki, hər axşamüstü buna bənzər məclislər qurulur. Səməd Vurğun, Süleyman Rəhimov, Mehdixan Vəkilov və başqaları ilə görüşmək istəyənlərin sayı günü-gündən çoxalır.

Bir gün İstisuya gələnlər şairin başına toplaşıb onun şirin söhbətlərinə maraqla qulaq asırlar. Bu vaxt Laçın rayonunda yaşayan bir ferma müdiri gəlib məclisə çıxır. Hamı ilə salamlaşandan sonra həmyerlisi, universitetin dekanı professor Qaçay müəllimi axtardığını söyləyir, əlavə edir ki, 5 ildir ki, bir-birilərini görmürlər.

Səməd də zarafatla ona "Deyəsən, yaman qohumbazsan ha!" - deyib təkcə öz yerlisini, yoxsa onun yoldaşlarını da görmək arzusunda olduğunu soruşur. O da

cavabında bildirir ki, düzdür, mən dostum Məmmədov Qaçayı axtarıram, ancaq yar-yoldaşı da onun özü kimi mənə əzizdir.

Məclisdə oturanların sırasında Qəşəm Rəhimov, yazıçı Süleyman Rəhimov, müəllim Qurban Məmmədov, Süleman Rəhimovun oğlu Şamo, rayon prokuroru Paşa Paşayev, sanatoriyanın baş həkimi Bağırov və başqaları da vardı. Səməd dostunu axtaran ferma müdirinə deyir:

- Sən otur, bu saat Qaçayı sənə çatdıraram. O, vanna qəbul etməyə gedib, indi gələr.

Elə bu vaxt Qaçay müəllim yanında Ağaməlik və balabançı Cəmillə zarafatlaşa-zarafatlaşa gəlir. Ferma müdiri Qaçay müəllimi görəndə sevindiyindən özünü unudur. Orada olanlar onların çox mehriban görüşlərinin şahidi olur. Sonra Qaçay müəllim dostundan soruşur:

- Eloğlu, şair Səməd Vurğunla tanışsanmı?

Ferma müdiri cavabında bildirir ki, adını çox eşitmişəm, şeirlərini də əzbər bilirəm. Özünü də görməyi çox arzulamışam.

Qaçay müəllim şairi işarə verib, onun Səməd Vurğun olduğunu dostuna söyləyir. O, bu görüşdən özünü çox xoşbəxt sandığını etiraf eləyir və təkrar adı ellərin dilinin əzbəri olan şairlə tanış olduğuna görə çox sevindiyini bildirir.

Səməd isə cavabında “Sağ ol, laçınlı balası, sizə halal olsun!” - sözləri ilə razılıq eləyir.

Həmin vaxt Şuşalı şəkilçəkən Xasay da öz aparatı ilə İstisuda idi. O da istəyirdi ki, bu adamlarla görüşsün, onların şəkillərini çəksin. Elə bu zaman Xasayın onlara tərəf gəldiyini görürlər.

Aşıq onu görüb "Bu cür şəraitin bizə bir də qismət olub-olmayacağını" - deyib, yadigar fotoşəkil çəkdirməyi təklif edir. Şair də bildirir ki, bu çox gözəl olardı. Aşıq qardaş, mənim dilimdən şəkilçəkənə fikrimizi çatdır.

Aşıq Şəmşir sazı sinəsinə basıb götürür, Xasaya görək nə deyir, biz də deyək, könlünüz şad olsun:

*Budur, özü gəldi əksxas Xasay,*
*İndi çəkdirərik, yadigar olsun.*
*Dağları bəzəyən bu meşə, bu çay*
*Deyir: dostluğunuz daim var olsun.*

*Daha bir nişana qalar zamana,*
*Təsəlli olsa da azdı insana,*
*Bir gün "Oğul!" - deyib ağlayan ana*
*Görsün əksimizi, qoy xoşyar olsun.*

*Zəmanə qıymasın şairim, sənə,*
*Şəmşir ilə bax bülbülə, süsənə.*
*Bulaqlar üstündə görüşək yenə,*
*Aramızda doğru etibar olsun.*

Söz tamam olur.

Hamı İstisuyun üst tərəfində çayın üstündə İlahi qüdrətdən düşən körpünün o tayındakı Qara daşın yanında şəkil çəkdirməyə qərar verir.

Qara daşın qucağından göz yaşı kimi axan şəffaf suyun yanında hamı yanaşı düzülür. 1955-ci il avqust ayının 8-də İstisu sanatoriyasında, Qara daşın önündəki təbii fəvvarənin yanında yadigar şəkil çəkdirirlər. Şəkilçəkən iki kadr çəkir: birində şairlə aşıq əl-ələ verirlər, digərində isə yanaşı dururlar.

Şəkil çəkilən vaxt şairin gözü yolun altındakı bir dəstə çiçəyə sataşır və “ Nə gö-

zəl çiçəkdir!" - deyir. Aşıq həmin çiçəyi dərib gətirir. İstər-istəməz şair çiçəyin adını soruşur. Adının "Maral çiçəyi" olduğunu eşidəndə qaşlarını çatıb, fikrə dalır. Az sonra deyir:

- Aşıq qardaş, bu xatirəni unutmaq olmaz, sazını əlinə al, qoy məclisimizin ruhu göylərə pərvazlansın.

Aşıq zarafatla deyir:

- Şair, mən tək deyəndə ləzzət vermir, gəl birlikdə bu işi görək. Səməd bir də ərkyana bildirir ki, bu gülün tərifini həm mənim, həm də özünün əvəzindən deməlisən.

Aşıq Şəmşir də ikisinin "yükünü" belə ifadə edir. Əvvəlcə şairin dilindən deyir:

*Bulaqda nərgizin, çəmən-çiçəyin,*
*Açılması nədi, solması nədi?*
*Sən de, bu hökmdən biz olaq agah,*

*Bunda təmənnası olması nədi?*

Ona qabaq özü cavab verir:
*Açır sinəsində, solur döşündə,*
*Belə gəlib-gedir, belə, bu dünya.*
*Çərxi-fələk nöqsan bilir işində,*
*Ancaq edir bilə-bilə bu dünya.*

**Şairin dilindən:**
*Bizə çox olsa da onun harayı,*
*Bəzən də dağıdır səngi, sarayı,*
*Tiflinə verəndə bir azca payı*
*Qaytarıb əlindən alması nədi?*

**Öz cavabı:**
*Tədbirə tədbir yox olanda əmr,*
*Daşda əhəng olur, əriyir dəmir.*
*Payız yarpağıdı insanda ömür,*
*Bir gün alıb salır yola bu dünya.*

**Şairin dilindən:**

*Qədəm basdıq şairlərin izinə,*
*Köçüb gedən ad qazandı özünə.*
*Vurğun qonaq gəlib Taxta düzünə,*
*Dünyanın boşalıb-dolması nədi?*

**Öz cavabı:**

*Şairin adını yaşadır sənət,*
*Bəxtiyar oxunur daim irəhmət.*
*Vədə tamam olsa verərmi möhlət?!*
*Şəmşiri dindirmir hələ bu dünya.*

Söz tamam olur. Səmədin təklifi ilə yaxınlıqda böyük bir məclis qurulur. Şair ətraf mühitdən, gözəlliklərdən zövq almaqdan doymur, göz işlədikcə uzanıb gedən doyulmaz təbiət mənzərələrinə elə baxdıqca baxır. Bu vaxt daşın dibində bitən bir dəstə bənövşə Mehdixan müəlli-

min gözünə sataşır, onu dərmək istəyir. Səməd dərhal:

- Qardaş, ona dəymə, o elə yerində gözəldir!" - deyir.

***

Səhərisi Qaçay müəllimin təşəbbüsü ilə at belində Taxtadüzə, Ceyran bulağına getməyi qərarlaşdırırlar. Bir neçə at yəhərləyib gətirirlər. Bu məqamda qəribə bir əhvalat baş verir. Atlar miniləndə qonaqların içərisində ən iri gövdəli adam olan Süleyman Rəhimova arıq bir at düşür. Hamı gülüşür. Amma Aşıq Şəmşir deyir ki, o atın elə arıq olmağına baxmayın, səhərdən onun qulaqlarına fikir verirəm, tez-tez irəli-geri hərəkət elətdirir. Mənim atam Şair Qurbanın at ilxısı olubdur. Mən bilirəm ki, qulaqlarını tez-tez oynadan at cəsur olur.

Aşığın sözünə gülüşürlər.

Hamı atları minir. Səməd Vurğun deyir:

- Aşıq qardaş, mənim mindiyim at köhlən atdı, elə deyilmi?! Hə, atalarımız necə deyib?!

Dəh nədi! - tez özünü düzəldir.

*Hə, dəh nədi?*
*Arxın başı dəhnədi!*
*Əsli bədoy olana*
*Qamçı nədi, dəh nədi.*

Yenə gülüşürlər.

Şair, Süleyman Rəhimova zarafatla deyir:

- Ayə, ona bir sallax tapın, yoxsa atı yaxşı getməz.

Qısa gülüşmədən sonra tərpənirlər. Doğrudan da, Süleyman Rəhimovun min-

diyi at elə bil quş idi, qanad alıb uçurdu. O, Səməd Vurğunun bayaqkı atmacasına cavab olaraq onu pərt eləmək üçün tez atın başını çəkib deyir:

- Doğrudan, deyəsən bu "zəif" atdır!

Atlılar İstisuyun qarşı tərəfindən Dəlidağa doğru qalxan əyri-üyrü dolama yolla Yuxarı Taxtadüzə doğru yön alır. Taxtadüzün sağ sahilində geniş düzün başındakı qayalardan süzülüb gələn Ceyran bulağı onları gözləyirdi...

Atlılar Aşıq Şəmşirin bələdçiliyi ilə atları Ceyran bulağına doğru sürür. Bulağın mənzərəsi şairi heyrətə gətirir. Üzünü aşığa tutub deyir:

- Aşıq qardaş, bax bu su odey, o yuxarıda gördüyümüz daşlardan süzülə-süzülə gəlib burada bulağa çevrilib. Böyük Allah insanlara nə bəxş etməyib ki?!

Bu sözdən sonra Səməd atdan enir. Yoldaşları da atlardan enirlər. Yüyəndən tutub bulağın üstünə addımlayırlar. Bulağa çatanda şair əllərini suya salıb gümüşü saçlarına çəkir. Adamlar onun başına toplaşır. Şair deyir:

- Əziz qardaşlar, İlahi Kəlbəcər dağlarını möcüzə yaradıb. Möcüzə görmək istəyənlər gəlib bu dağları gəzsinlər. Buraların sirli-sehirli dünyasını görən hər bir insan nə qədər xoşbəxtdir. Fikir verin, İstisu ilə buranın arası çox da uzaq deyil. İstisuda suyun hərarəti 78 dərəcədir, burada isə bulağın soyuqluğundan az qalır adamın əli donsun.

Şair, Aşıq Şəmşirə üz tutub soruşur:

- Aşıq qardaş, bu bulaq nə üçün "Ceyran bulağı" adlanır?

Aşıq Şəmşir "Ceyran bulağı əfsanəsi"ni nəql edir:

- Əfsanəyə görə bu bulağın üstündə Ceyran adlı gözəl bir qız öz məhəbbəti uğrunda cəsarətlə həlak olub. Ona görə də ona “Ceyran bulağı” deyirlər.

Səməd Vurğun bu yanıqlı hadisədən bərk mütəəssir olur. Odur ki, deyir:

- Aşıq qardaş, zəhmət olmasın, sazı götür, bu bulağın üstündə “Dübeyti” havası altında bir ağız oxu.

Aşıq sazı köynəkdən çıxaranda ətrafdakılar onların başına toplaşır.

O, sazı sinəsinə basıb ürəkdən oxumağa başlayır:

*Yaş qocalmaz aydan ayrı,*
*İldən ayrı Dəlidağda.*
*Saz dinməsə ürək dinər,*
*Teldən ayrı Dəlidağda.*

*Yaxşı addı yaxşı qonaq,*

*Ürəyimin başı qonaq.*
*Nə görəcək naşı qonaq*
*Güldən ayrı Dəlidağda.*

Səməd dinir:

- Hə, aşıq qardaş, çox düz buyurursan. Naşı qonaq bu yerdə güldən ayrı nə görə bilər?!

Aşıq sözünə davam edir:

*Şəmşir Fərhad olammazdı,*
*Saz çalıb şad olammazdı,*
*Belə ustad olammazdı*
*Eldən ayrı Dəlidağda.*

Səməd aşığın sazına, səsinə heyrətlə, maraqla qulaq asıb deyir:

- Çox sağ ol, qardaşım! Aşıq qardaş, mənim üçün çox maraqlı olan bir xahişim var, zəhmət olmasa, bu ətrafda görünən

və görünməyən dağların adını bir-bir deyəsən.

Aşıq Şəmşir deyir:

- Böyük şair, onda istəyirəm Ceyran bulağından bir az yuxarıya – Gəlin qayasına çıxaq. Orada sizə çox maraqlı yerlər göstərəcəyəm.

Atları minib Gəlin qayasına tərəf yola düşürlər. Bir az getmiş şair atını sola doğru çapmağa başlayır. O biri atlılar da atlarını onun dalınca sürürlər. Təəccüb edirlər ki, şair atını qəfildən niyə belə çapdı?! Diqqətlə baxıb görürlər ki, yaxınlıqda alaçıqlar var. Şair həmin obada sacda yuxa bişirən bir gəlinə yaxınlaşıb atını saxlayır:

- Ay bacı, o yuxadan verərsənmi yeyək! - deyir.

Gəlin başını qaldırmadan sacın üstündən yuxanı oxlovun üstünə alıb şairə uzadır. Şair yuxanı götürüb dürməkləyir. Şi-

rin-şirin yediyi vaxt atlılar ona çatırlar. Şairin dürmək yeməyinə maraqla baxırlar. Şair deyir:

- Ayə, o Ceyran bulağının suyu məni yaman acdırdı.

Yazıçı Süleyman Rəhimov deyir:

- Ay Səməd, maşallah, yaxşı iştahan var. Çörəyi yavan da ləzzətlə yeyirsən.

Səməd, cavabında:

- Böyük yazıçı, axı sən özün də dəfələrlə demisən ki, iştah yavanlıq istəmir! – deyir.

Obadakı adamlar Səməd Vurğunun gəlişi ilə bağlı aşığın oxumasını xahiş edirlər. Aşıq Şəmşir burada özünün məşhur “Oğluyam” rədifli şeirini oxuyur:

*Qartal düşüncəli, şair xəyallı,*
*Tərlan yuva salan dağlar oğluyam.*
*Anam İstisudu, atam Dəlidağ,*

*Murov, Lilpar, Qonur, Qoşqar oğluyam.*

*Lalədi, nərgizdi evim-eşiyim,*
*Köynəyim - sıx meşə, qoymaz üşüyüm,*
*Qərənfildi, qızılgüldü beşiyim;*
*Buz bulaqlı, göy yaylaqlar oğluyam.*

*Bədənim Ərgünəş, Gülüstan, Çilgəz;*
*Vüqarım Şah dağı - əl çata bilməz!*
*Məkanım Çalbayır, oylağım Kəpəz,*
*Min çiçəkli bir laləzar oğluyam.*

*Cavahirdir Azərbaycan torpağı,*
*Qızıl, gümüş hər sərvətin yatağı,*
*Uca zirvələrin lalə bayrağı! –*
*Şəmşirəm, nə gözəl diyar oğluyam.*

Şeir tamama yetir. Səməd Vurğun deyir:

- Aşıq, eşitdiyimə görə sənin atan da gözəl şair olub. Bəlkə ondan da bir qatar oxuyasan.

Aşıq cavab verir:

- Bəli, böyük şair, mənim atam böyük ustad Ələsgərin məsləkdaşı və yaxın silahdaşı olub. İcazə verin, onun "Dağlar" şeirini oxuyum.

Aşıq Şəmşir sazın zilini-zil, bəminibəm kökləyib "Qaytarma" havası üstündə Ağdabanlı Şair Qurbanın "Dağlar" şeirini oxuyur:

*Əzəl xilqətimiz torpaqdan, sudan,*
*Sən bizə atasan, anasan, dağlar!*
*Pərvəriş verirsən məhdi-zəmində,*
*Gah da məhv edirsən, fənasan, dağlar.*

*Çətindi sağalam - çoxdu azarım,*
*Mətahım dürr mətah - yoxdu bazarım,*

*Düşə, ya düşməyə bir də güzarım,*
*Səfərdi, salamat qalasan, dağlar!*

*İnsaf, mürvət qalıb ixtiyarına,*
*İman, ilqar bağla etibarına,*
*Həsrət gözüm baxar bürcü-barına,*
*Qüdrətdən yapılmış qalasan, dağlar!*

*Mən gedirəm, səndə qaldı nişanam,*
*Qarışıb əhvalım, çox pərişanam,*
*Bir kəsə söyləyib, nə danışanam,*
*Sən bilib əhvalım qanasan, dağlar!*

*Baxıb seyrangaha, qan ağlar gözüm,*
*Bu qədər fərağa mən necə dözüm?!*
*Budur iltimasım, müxtəsər sözüm:*
*Qurbanı gah yada salasan, dağlar!*

Səməd Vurğun şeirə diqqətlə qulaq asır. Diqqəti qarşı tərəfdə ucalan Keyti da-

ğına yönəlmiş halda dodaqaltı nə isə deyir. Aşıq Şəmşir qurtaran kimi o, üzünü yenə aşığa tutub deyir:

- Aşıq qardaş, deməli, Ulu Ələsgərlə Şair Qurban bu dağlarda çox gəziblər. Həm də o kişi üzünü dağlara tutub "Salamat qal" deyib, biz dağlara nə deyək? Elə təkcə bu gün az müddət ərzində bu dağlara atla etdiyimiz səfərdə nə qədər gözəlliklər, nə qədər heyranedici mənzərələr gördük. Mən də deyirəm Miskin Abdal, Aşıq Ələsgər, Şair Qurban nə üçün dağları ürəkdən belə vəsf edir. Axı bu bəxtəvərlər illərlə at belində dağları gəzib-dolanıb yaylaqlarda elin-obanın şənliklərini keçiriblər.

Aşıq qardaş, deyirəm əgər qismət olsa, gələn il mən məzuniyyət götürüb gəlim, bu dağlarda sizinlə birlikdə gəzək. Buradan Göyçə mahalına aşaq, Ələsgər dədə-

mizin yurd-məkanını və qəbrini ziyarət edək.

Qulaq asanlar hamısı bir ağızdan "İnşallah, inşallah!" - deyir.

Məclis əvvəlki ahənglə davam edir.

Süleyman Rəhimov zarafata keçib Səməd Vurğuna deyir:

- Ay qağa, sən elə Şəmşirə bir şeir yazdın, niyə aşığın dediyi şeirlərə cavab vermirsən?

Şair təbəssümlə cavab verir:

- Ay Süleyman, düzünü deyim ki, aşıq qardaşın oxusu və şeirləri mənə o qədər xoş gəlir ki, elə ona qulaq asmaq istəyirəm.

Aşıq Şəmşir isə sözünə davam edərək deyir:

*Kəlbəcər mahalı tamam bəzəndi,*
*Yaxın dostu, mehribanı gələndə.*

*Bayram etdi bütün ellər, obalar,*
*Şeirin şirin süxəndanı gələndə.*

*Etmiş bu yerlərdə laçın şikarı,*
*Düşüb bu dağlara onun güzarı,*
*Mənim, görən kimi, Vurğuna sarı*
*Qaynadı qəlbimin qanı, gələndə.*

*Mənə yol göstərdi təbimin piri,*
*Gördüm məhəbbətdi meyli, fikiri.*
*Şəmşirin açıldı qəlbinin sirri,*
*Bu torpağa gövhər kanı gələndə.*

Qaçay müəllim sözə qarışıb deyir:

- Şəmşir əmi, səhər-səhər biz Ceyran bulağının üstündə olanda mən eşitdim ki, siz astadan nə isə deyirdiniz. Xahiş edirəm o şeiri deyəsiniz.

Aşıq Şəmşir:

- Baş üstə! – deyib, alır görək "Səməndəri" havası üstə nə deyir:

*Ceyran bulağında, səhər çağında*
*Guşuma şairin sədası gəldi.*
*Əziz qonaqlara ömür sağlığı,*
*Dilimə məhəbbət duası gəldi.*

*Vurğun gələn vaxtı bizim mahala*
*Çəmən müjdə verdi, sevindi lala.*
*Hamı dostlar ələ aldı piyala,*
*Məclisinə şirin badası gəldi.*

*Şəmşirin dilində ustadın adı,*
*Bir şadlıq başladı, ellər oynadı.*
*O şeir dəryası daşdı-qaynadı,*
*Görüşünə min-bir adası gəldi.*

Süleyman Rəhimovun sözü öz bəhrəsini verir. Şair deyir:

- Aşıq qardaş, de gəlsin, cavabını verim.

Hamı əl vurur. Aşıq da cavabında:

- Şair, inciməyin! Əvvəlcə siz desəniz yaxşıdır.

Səməd Vurğun gülümsünüb, zarafatyana deyir:

- Yaxşı, aşıq qardaş, al gəldi:

**Səməd Vurğun:**

*Gərək deyəm: salamat qal,*
*Bu dağlardan ayrılanda.*
*Deyəm suyun eylə halal,*
*Bulaqlardan ayrılanda.*

**Aşıq Şəmşir:**

*Deməsəydin ayrılıq var,*
*Ağlamazdım belə, şair!*
*Gələcəyə səndən ümid*
*Gözləyirik hələ, şair!*

**Səməd Vurğun:**
*Bir yadigar qalsın sözüm,*
*Ayrılığa gərək dözüm,*
*Doluxur, sulanır gözüm,*
*Ovlaqlardan ayrılanda .*

**Aşıq Şəmşir:**
*Dəryalar tək daşıb coşaq,*
*Elimizə dastan qoşaq,*
*Gəl əl tutaq, halallaşaq,*
*Ancaq gülə-gülə, şair!*

**Səməd Vurğun:**
*Ürəklə meh təki əssən,*
*Gəl, unutma Vurğunu sən,*
*Kövrəlirəm doğrusu mən,*
*Yaylaqlardan ayrılanda!*

**Aşıq Şəmşir:**

*Üzü gülər, qəlbi təmiz,*
*Bu dağlara saldığınız iz.*
*Şəmşir ilə cəm elimiz:*
*İstər hər il gələ şair!*

Adəti üzrə alqış səsləri yenə dağlara yayılır. Səməd Vurğun üzünü aşığa tutub deyir:

- Aşıq qardaş, axı siz demişdiniz ki, dağları mənə göstərəcəksiniz.

Bu müraciət iştirakçıların hamısının diqqətini cəlb edir. Aşıq Şəmşir isə bu yerləri ondan da yaxşı tanıyan dostu, elə bir saat əvvəl məclisə gəlmiş Təhlə Xəlili göstərib deyir ki, Xəlil qardaş ömrünü-gününü bu yerlərdə keçirib, yaylaqları sizə o göstərəcək!

Xəlil kişi bu müraciəti çox məmnuniyyətlə qarşılayıb cavab verir ki, hörmətli

şair, bir az sağa - dikin başına çıxaq, oradan ətraf dağlar daha aydın görünür.

Səməd Vurğun və onu müşayiət edənlər alaçıqların sağındakı dikin başına toplaşırlar. Xəlil kişi deyir:

- Hörmətli şair, bizdən solda görünən o yüksək dağın adı Keytidir. Qarşı tərəfimizdə görsənən o uzun dərənin adı Bağarsaq dərədir. Böyük İstisudan başlayıb düz Ağcaqız aşırımınadək uzanır. Ona görə də ora Bağarsaq dərə deyillər. Arxa tərəfimizdə ucalan o zirvənin adı Gəlin qayası yaylağıdır. Gəlin qayasının sağ tərəfindən baxanda Dəvəgözü dağı, Qızıltəpə, Ayıçınqılı, Əyriqar, Yazılı körpü dağlarıdır, oradan o tərəfə isə Göyçə aşırımıdır. Bax, bu görünən boz dağ isə Perlit dağıdır. Onun aşağısı Qonaqqalmaz, bəri tərəfi Tatallarçay yaylağı, o yanı Sarıbulaq, onun aşağısı isə Kürd qoruğudur. O tayda başı

görünən dağ isə Bəbirbəy dağıdır ki, onun başına çıxanda bütün Göyçə çuxuru, Göyçə gölü ayağının altında qalır. Lap arxada görünən isə Dəlidağdı.

Təhlə Xəlilin səmtlə göstərdiyi dağları doyunca seyr eləyirlər.

Sonra şairlə aşıq və onları müşayiət edən qonaqlar yenidən atlara minib İstisuya qayıdırlar.

***

Bu gəzintinin səhərisi günü Səməd Vurğun təklif edir ki, o gün İstisuyun üstündə, Ceyran bulağında keçirdiyimiz məclislər çox gözəl oldu. İndi isə başqa yaylaqları, obaları gəzmək istəyirəm.

Əvvəldə dediyimiz kimi, Səməd Vurğunun "Əbəbiyyatımızın uzaqvuran topu" adlandırdığı Süleyman Rəhimovun ailəsi şairin ailəsi ilə İstisuda idilər .

Ona görə də Səfər Verdiyevin tapşırığı ilə Ceyran bulağının ətrafından axan Tatallar çayının sahilində çadır günlüyü düzəldirlər. Rayon prokuroru Paşa Paşayev, İstisuyun baş həkimi Bağırov, əslən Laçın rayonundan olan Qaçay müəllim və başqaları da onlarla birlikdə həmin məclisə gəlirlər. Çadır günlüyünün içərisi Kəlbəcər gəlin-qızlarının toxuduğu kilim və gəvələrlə döşənmişdi. Aşıq Şəmşir öz şagird və həmkarlarından Aşıq Xalıqverdini, Aşıq İslamı, Aşıq İdrisi, Aşıq Şavağatı, Aşıq Pənahı və Aşıq Bədəli də məclisə dəvət edir. Məclisdə Taxtadüz və Ceyran bulağı, Sarı bulaq ətrafında yerləşmiş bütün Qarabağ camaatı iştirak edir. İlk söz Aşıq Xalıqverdiyə verilir.

Xalıqverdi Aşıq Şəmşirin "Şəmşiri" gəraylısını, Aşıq İslam isə Səməd Vurğunun

“Dağlar” gəraylısını “Dübeyti” havası üstündə ifa edirlər:

**Aşıq Şəmşir:**
*Çağır gəlsin, düşüb yada*
*Dağların qoca Şəmşiri.*
*Adı elə salıb səda,*
*Tanıdıb uca Şəmşiri.*

**Səməd Vurğun:**
*Üstündən karvan yeriməz,*
*Sıxdır dumanların, dağlar!*
*Yayda, qışda heç əriməz*
*Qüzeylərdə qarın, dağlar!*

**Aşıq Şəmşir:**
*Bu bülbüllü, güllü bağlar,*
*Səndən ayrı gözüm ağlar,*
*Ağır ellər, qoca dağlar*
*Unudar necə Şəmşiri?!*

**Səməd Vurğun:**
*O qız yaldan tək aşanda,*
*Saç kəmərə dolaşanda,*
*Atdan düşüb yal aşanda*
*Mən olum zəvvarın, dağlar!*

**Aşıq Şəmşir:**
*Boynun bükən bənövşələr,*
*Sizdə nədi əndişələr?!*
*Bu cüyürlü göy meşələr*
*Tanıyır bunca Şəmşiri.*

**Səməd Vurğun:**
*Laçınların göydən enməz,*
*Qayaların baxar, dinməz,*
*Yaman gündə üzün dönməz,*
*Pozulmaz ilqarın, dağlar!*

**Aşıq Şəmşir:**

*Namərd ilə edib dava,*
*Çox düşübdü qar, qırova.*
*Ovçu aparıb Murova,*
*Qızılarxaca Şəmşiri.*

**Səməd Vurğun:**
*Ovçu gəzər oğrun-oğrun,*
*Maralların düşər yorğun,*
*Qonaq gəlib sizə Vurğun,*
*Sevinsin gülzarın, dağlar!*

İfalar Səməd Vurğunun çox xoşuna gəlir. Üzünü Aşıq Şəmşirə tutub deyir:

- Aşıq, qoy sənin şəyirdlərin bir divani oxusunlar.

Hər iki aşıq sazı sinəsinə basıb "Baş divani" üstündə kökləyir, aldı görək nə deyir:

Aşıq İdris “Əldən gedər” rədifli divanisini, Aşıq Xalıqverdi isə “Olmasa” divanilərini məclis-əhlinə çatdırırlar.

Əvvəlcə aldı Aşıq Xalıqverdi, görək nə dedi:

**Aşıq Xalıqverdi:**

*Heç kimsənə yoxsul olmaz-*
*qəlbindən dar olmasa.*
*Sözü xəlqə şirin gələr:*
*o dil-azar olmasa.*
*İkiüzlülük eyləməsə -*
*hamı inanar ona.*
*Dostlarına yalan satıb*
*bietibar olmasa.*

**Aldı Aşıq İdris:**

*Yaxşı dosta yalan satma,*
*etibar əldən gedər,*
*Həm məhəbbət, həm sədaqət,*

*düz ilqar əldən gedər.*
*Öz payınla kifayətlən,*
*özgələrdən kəs gözün.*
*Tamah səni bəndə salar,*
*xeyri-kar əldən gedər.*

**Aldı Aşıq Xalıqverdi:**
*Xoş o kəsin əhvalına:*
*kəskin ola iqbalı.*
*İnsana tale lazımdı –*
*puçdu dünyanın malı.*
*Nadanla həmdəm olanın*
*tez ağarar saqqalı,*
*Mərd igidin gər özünə*
*münasib yar olmasa.*

**Aldı Aşıq İdris:**
*Cənnət bağı demək olmaz*
*hər açılan güllərə.*
*Namərdlərə bel bağlayıb,*

*uyma hiylə dillərə.*
*Leyli deyib, aşiq olma*
*hərcayı gözəllərə.*
*Təzə aşna axtarınca,*
*köhnə yar əldən gedər.*

**Aldı Aşıq Xalıqverdi:**
*Bir qılıncın kəsmək üçün*
*gəzin polad qatını.*
*Hər ot bitər öz kökündə,*
*göstərər isbatını.*
*İgid oğul kür süd əmsə,*
*itirəcək zatını.*
*Qaraquş köhlən götürər,*
*dayısı sar olmasa.*

**Aldı Aşıq İdris:**
*İnsanlara yaxşılığı*
*eylə sən cavan çağı.*
*Təmiz adla bir səxavət*

*dünyada qalar baqi.*
*Mal-dövlətin olmasa da,*
*əziz saxla qonağı.*
*Təxti-Süleyman qalmayıb,*
*bir gün var əldən gedər.*

**Aldı Aşıq Xalıqverdi:**
*Əhli-arif məclisinə*
*kinayə söz atma sən!*
*El xatirin əziz saxla,*
*dost arasın qatma sən!*
*Dürr mətahın varsa əgər –*
*hər yetənə satma sən!*
*Qiymətini bilən sərraf,*
*həm xiridar olmasa.*

**Aldı Aşıq İdris:**
*Can çürütdüm, nanəcibin*
*yolunda çəkdim cəfa.*
*Bu zəhmətim hədər getdi,*

*heç görmədim xoş səfa.*
*Faş eyləmə fürsətini,*
*namərddə olmaz vəfa.*
*Eylədiyin hər yaxşılıq*
*aşikar əldən gedər.*

**Aldı Aşıq Xalıqverdi:**
*Şəmşir deyər: bu dünyada*
*xoş keçə vaxtın gərək.*
*İqbalın kəskin olub*
*qurula taxtın gərək.*
*Yatmaya qəflət içində,*
*oyana baxtın gərək.*
*Baxtın onda qanad çalar–*
*dərdə düçar olmasa.*

**Aldı Aşıq İdris:**
*Bir planı çəkmək üçün*
*öz işini sazda gör.*

*Şəmşir, qüvvə sərf eylə sən,*
*kəndini tarazda gör.*
*Hər işini öz yerində,*
*qış tədbirin yazda gör.*
*Qəfil işlək yollarını*
*alar qar, əldən gedər.*

Yer-yerdən "Sağ ol aşıq, sağ ol!" səsləri göylərə ucalır. Onların dalınca Aşıq Pənah Aşıq Şəmşirin "Düşərsən" rədifli şeirini "Misri" havası üstündə şirin zəngulələrlə oxuyur:

*Çətin işi kərəm-kanı düzəldir,*
*Düzəlməsə, nə inada düşərsən.*
*Eldən çıxıb küsmə ana torpaqdan,*
*Obadan ayrılma, cida düşərsən.*
*Dostum, sən bax bu halıma bu gündə,*
*Yaxşı yetiş əhvalıma bu gündə.*
*Hərdən bir də xəyalıma bu gündə*

*Sən, a gözəl mələkzada, düşərsən.*

*Yoxsulluq zülmətdi, ayrılıq yaman,*
*Şəmşir, şah pirindən istərsən aman.*
*Aşıqlar dilində oxunan zaman*
*Hər sazda-söhbətdə yada düşərsən.*

Aşıq Pənahın zil və məlahətli səsi şairi heyran edir. O, xoş təbəssümlə:

- Mənə indi çatdı ki, aşıq qardaşın şəyirdləri heç də özündən geridə qalmır.

Aşıq Şəmşir Səməd Vurğuna deyir:

- Hörmətli şair, icazə verin, indi də balabançı Şavağata söz verək.

Şair cavab verir:

- Nə deyirəm, qoy çalsın, qulaq asaq, nakam məhəbbətin naləsinə.

Şavağat yastı balabanda "Yanıq Kərəmi" havasını çox məlahətlə ifa edir.

Şair heyran-heyran əl çalır. Alqışlardan sonra Aşıq Şəmşir yenidən Şavağata müraciət edərək sazı ona verib “Məmmədsöyünü” havası üstündə Səməd Vurğunun “Ceyran”* şeirini oxumasını xahiş edir. Şagird xahişi çox məharətlə yerinə yetirir, alır görək nə deyir, necə deyir, deyək şad olasınız:

*Yerdən ayağını quş kimi üzüb,*
*Yay kimi dartınıb, ox kimi süzüb,*
*Yenə öz sürüsün nizamla düzüb,*
*Baş alıb gedirsən hayana, ceyran?*

*Əzəldən meylini salıb çöllərə,*
*Bəxtini tapşırdın bizim ellərə,*

---

* ***Səməd Vurğunun ölümündən sonra ilk dəfə Azərbaycan radiosunda da bu mahnı Şavağatın ifasında səslənmişdir.***

*O qara gözlərin düşüb dillərə,*
*Dişlərin oxşayır mərcana, ceyran!*

*Bir məsəl qalmışdır ata-babadan:*
*Uçarda turacdır, qaçarda ceyran!*
*Bir mən deyiləm ki, hüsnünə heyran,*
*Şöhrətin yayılıb hər yana, ceyran!*

*Sükuta qərq olmuş ürəyimlə mən*
*Keçirəm yenə də Muğan çölündən.*
*Yanında balası, yağış gölündən*
*Əyilib su içir bir ana ceyran!*

*Elə ki, son bahar min büsat qurur,*
*Kolları-kosları yıxıb uçurur.*
*Sıxlaşıb bir yerə baş-başa durur*
*Düşəndə çovğuna, borana ceyran.*

*On addım kənarda yatmayır təkə,*
*Gəzinir, oylağa baş çəkə-çəkə.*

*Gələn qaraltıdır, yoxsa təhlükə?*
*Bir özünə baxır, bir ona ceyran!*

*Ovçu, insaf elə, keçmə bu düzdən!*
*O çöllər qızını ayırma bizdən!*
*Qoyma ağrı keçə ürəyimizdən,-*
*Qıyma öz qanına boyana ceyran!*
*Nə gözəl yaraşır Muğana ceyran!*

Onun təkrarsız ifası şairin çox xoşuna gəlir. O, Şavağatın əlini sıxaraq:

- Sənə halal olsun, aşıq! Belə şagirdi olan ustad hələ sağlığında ikən özünə əbədi heykəl ucaldıb. Bir daha sağ ol! - deyir.

Məclisin bu yerində Aşıq Şəmşirin yaxın dostu, Qarabağ camaatı içərisində böyük xətir-hörmət yiyəsi olan Təhlə Xəlil bir dəstə atlı ilə yenidən bura gəlir. Qonaqlarla görüşüb onları evinə qonaq dəvət edir. Səməd Vurğun deyir:

- Xəlil qardaş, təklifinə görə çox sag ol, bizə böyük xətir-hörmət qoyursan. Xahiş edirəm mindiyiniz o atlardan bir neçəsini bizə verəsiniz, bir Göyçə aşırımına gedək-qayıdaq. Yəqin siz də yaxşı bilirsiniz ki, Aşıq Ələsgər bu dağlarda çox dövranlar keçirib. Onun ruhuna hörmət əlaməti olaraq heç olmasa uzaqdan da olsa o böyük ustadın yurduna göz gəzdirək.

Səməd Vurğunla Aşıq Şəmşir başda olmaqla qonaqlardan bir neçə nəfər atlanıb Göyçə baxarına doğru gedir. Ələsgər yurduna doyunca tamaşa edirlər. Aşıq Şəmşirin ürəyi atdanır. Ustadı Aşıq Ələsgərlə bağlı maraqlı xatirələr danışır.

Səməd Vurğun fikirli-fikirli deyir:

- Aşıq qardaş, mənə bir məsələ də indi aydın oldu ki, o böyüklükdə dühadan dərs alan adam ancaq sənin kimi sinədəftər olar. Hələ üstəlik qüdrətli sənətkar, söz

sərrafı olan atanız Ağdabanlı Qurbandan aldığınız ustad dərsləri, öyüdləri də ki, öz yerində. Atalar elə-belə deməyib ki, ot kökü üstə bitər.

Yəqin ki, Ulu Ələsgərə ithafların var. Onlardan birini oxu, qoy bu nurlu ustadın ruhu şad olsun.

Aşıq Şəmşir:

- Böyük şair, Ələsgər əmim çox möcüzəli adam olub. Heç ona şeir yazmamaq olarmı?!

Bu qısa söhbətdən sonra Aşıq Şəmşir "Cəlili" havası üstündə ustadı Aşıq Ələsgərə yazdığı "Ələsgər" şeirini oxuyur:

*Böyük tacidarım, kamil sənətkar,*
*Sənsən mənim pak ustadım, Ələsgər.*
*Yadımdan çıxarsa yazdığın əşar,*
*Qopar o gün qiyamətim, Ələsgər.*

*Ruhuma nur verən dahi sən oldun,*
*Sənətimin qibləgahı sən oldun,*
*İdrakımın mehri, mahı sən oldun,*
*Fikrim, zikrim, həm baratım Ələsgər.*

*Şəms olub düşübsən sən dildən-dilə,*
*Nəğmən pay verilib bağda bülbülə,*
*Xəzinə anbarın baqidir hələ,*
*Açılıb bazarın, satım, Ələsgər.*

*Röyada dərs dedin, öyrətdin məni,*
*Pak saxladın eşqi, nəfsi, bədəni.*
*Fərasət möcüzü sanıram səni,*
*Haqdı ki var, etiqadım, Ələsgər.*

*Sən mənə səadət, barat vermisən,*
*Şəmşirin qəlbinə qanad vermisən!*
*Zərrin irəxtili Qırat vermisən,*
*Durur o verdiyin atım, Ələsgər.*

Söz tamama yetir. Səməd, aşığa "Bərəkallah!" – deyir.

Göyçə baxarı gəzintisindən sonra geri dönürlər. Təhlə Xəlilə minnətdarlıqlarını bildirib, maşına əyləşib yenidən İstisuya qayıdırlar.

***

Səməd Vurğunla Aşıq Şəmşir İstisuda dincəldikləri vaxt hər gün onların görüşünə minlərlə adam gəlir. Hər axşam sanatoriyanın həyətində irili-xırdalı məclislər keçirilir. El-oba öz sənətkar oğullarını sevə-sevə alqışlayır.

Səməd İstisuda olduğu müddətdə raykom katibi Səfər Verdiyev də hər gün şairlə aşığın ziyarətinə gəlir. Artıq avqust ayı sona yaxınlaşır.

Səməd Vurğuna Bakıdan teleqram gəlir. Onu təcili şəhərə çağırırlar. Şair aşığa deyir:

- Qardaş, mən Bakıya qayıdası oldum. Sən şeirlərindən topla, sentyabr ayının 29-da Bakıya gətir. 20 çap vərəqi həcmində kitabını çıxartdıracağam.

Şairlə aşıq yüz ilin dostları kimi qucaqlaşıb ayrılırlar.

Səməd Vurğunu raykom katibi başda olmaqla, bütün Kəlbəcər ziyalıları və fəalları Ağdərə aşırımında coşub-çağlayan "Rus bulağı" adlı yerə qədər ötürüb, Bakı şəhərinə yola salırlar.

***

1955-ci il sentyabrın 28-də Aşıq Şəmşir bir taxta çemodan şeirlərini götürüb oğlu Qənbər müəllimlə birlikdə Bakıya gəlir.

Bir gün sonra Səməd Vurğun Azərbaycan Elmlər Akademiyasının ikinci mərtəbəsində öz kabinetində aşığı şad-şalayın qarşılayır. Dostlarından Məmməd Arif Dadaşzadəni, Mirzağa Quluzadəni, Osman Sarıvəllini, Cəfər Xəndanı və başqalarını yanına dəvət edir. Aşıq Şəmşiri onlara təqdim edib, geniş ürək sözlərini deyəndən sonra onun şeirlərini "Akademiya" - nəşriyyatinda nəşr etmələrini tapşırır.

Aşıq Şəmşirin özünü isə "ZİM" maşınına oturdub zarafatla deyir:

- Aşıq qardaş, sən dağları mənə göstərmisən, mən də Bakının görməli yerlərini sənə göstərəcəyəm. Gedək gəzək.

Aşığı "ZİM" maşınında axşam saat 7-yə qədər gəzdirib qohumlarıgilə gətirir. Aşıq maşından düşəndə şair də maşından enir və deyir:

- Aşıq qardaş, mən səhər xaricə gedəcəyəm. Sağlıq olsun, bir neçə həftə xaricdə müalicə olunanadan sonra Azərbaycana qayıdacağam. Gələn kimi sizin kitabınızın çapı ilə şəxsən özüm məşğul olacağam. Sözümüz-sözdür. Sən Osman Sarıvəlli ilə daim əlaqə saxla.

Onu da əlavə edir ki, mən Kəlbəcərdən qayıdanda Yazıçılar İttifaqının sədri Süleyman Rəhimova sənin şeirlərinin respublikanın bir sıra qəzet və jurnallarında çap elətdirməyi və səni İttifaqa üzv qəbul etməyi xahiş etmişəm.

Aşıq Şəmşir bir neçə gün Osman Sarıvəlli ilə 20 çap vərəqindən artıq şeirlərini ərəb əlifbasını kamil bilən Yazıçılar İttifaqının katibəsi Kübra xanımın vasitəsi ilə kiril əlifbasına çevirtdirir.

Bəli, əzizlərim! Xeyirxah adamlar fəaliyyətə başlayır. Allah-Tala heç birinizi

intizarda, gözü yolda, qulağı səsdə qoymasın.

1956-cı ilin fevral ayında Azərbaycan Yazıçılar İttifaqının sədri Süleyman Rəhimov yığıncaq keçirmək üçün Kəlbəcərə gəlir.

Aşıq Şəmşiri də yığıncağa dəvət edir, onunla görüşür. "Xoşgəldin"dən sonra Süleyman Rəhimov onun narahatlığını bildiyindən, aşıq dinməmiş deyir ki, Səməd Vurğun xaricə gedəndən sonra bərk xəstələnib. İndi Moskva şəhərində müalicə olunur. Bir neçə gün bundan əvvəl yanında olmuşam. Görüşümüz zamanı dedi ki, daha mən xəstələnmişəm, aşığın kitabının redaktoru Osman Sarıvəlli olsun. Aşıq, siz narahat olmayın, Allahın köməyi ilə hər şey yaxşı olacaq.

Bu xəbərdən bərk mütəəssir olan aşıq bir məktub yazıb Süleyman Rəhimova ve-

rir və xahiş edir ki, onu Səməd Vurğuna çatdırsın. Məktub "Bir də gəl" və "Sənə" adlı 2 şeirdən ibarət idi:

## BİR DƏ GƏL

*Çəkir həsrətini bizim Kəlbəcər;*
*Böyük şair, şiş dağlara bir də gəl!*
*Dedin: "Vurğun demə, gəldi-gedərdi..."*
*Verdiyin o düz ilqara bir də gəl!*
*Gəl, səni gözləyir Ceyran bulağı,*
*Şeirinlə bəzənir ellər yaylağı,*
*Gəl ol İstisuyun yenə qonağı,*
*Əməl eylə etibara, bir də gəl!*

*Sənə minnətdardı elimiz hamı,*
*Gəlsən, görüşündən alarıq kamı,*
*Olar qəlbimizin şadlıq bayramı,*
*Qoy vədəni ilk bahara, bir də gəl!*

*Sözün də, şeirin də sənətkarısan,*
*Xalqın istəklisi, el vüqarısan,*
*Nizami yurdunun yadigarısan,*
*Minnətdarlıq sənətkara, bir də gəl!*

*Şairi çağırır gül, çəmən, lalə,*
*Fərağın gör məni salıb nə halə.*
*Şəmşir də çəkməsin heç möhnət, nalə,*
*O gəzdiyin oylaqlara bir də gəl!*

## SƏNƏ

*Узун юмр, ъан саьлыьы дцнйада*
*Гисмят олсун, диляр ящли-щал сяня.*
*Йетиш арзу-кама, мятляб-мурада,*
*Ди эял верим бу тющвяни ал, сяня.*

*Буз булаглы, сых мешяли талада,*
*Бах ишрятли, тамашалы щала да.*
*Чямян дя, чичяк дя, эцл дя, лаля дя,*

*Ятир версин бу даьларда, гал, сяня.*

*Мцштаq олдуг сяндя ширин сюзя дя,*
*Бу мящяббят мцйяссярди сизя дя,*
*Ъейран булаьына, Тахтадцзя дя,*
*Эял, Истису шярбят олсун - бал сяня.*

*Дялидаьын башы щяля гарлыды,*
*Кейти даьы бянювшяли, варлыды.*
*Вурьуну унутмаz, етибарлыды,*
*Эяляъяк эюр инди ня хяйал сяня.*

*Шямширин овлаьы Мирова да эял,*
*Шеіp дяфтяриня йеня ат бир ял.*
*Щямзя чямянэащы ъяннятдян эюзял,*
*Ялбяття, хош эяляр бу ъялал сяня.*

Süleyman Rəhimov həmin qoşmaları "Azərbaycan gəncləri" qəzetində nəşr et-

dirib Moskva xəstəxanasında ağır xəstə yatan Səməd Vurğuna çatdırır.

Aşığın şeirlərindən gözləri bulud kimi dolan şair dostunun söz boxçasını boş qoymur.

Qələmi götürüb "Hicran Kərəmi" üstündə köklənən "Olsa" rədifli şeirlə aşığa cavab verir:

*Aldım məktubunu, ay Aşıq Şəmşir,*
*Darıxma, gələrəm imkanım olsa.*
*Namərd xəstəlik var, deyil ki, bu sirr,*
*Yaram sağalardı, dərmanım olsa.*

*Mən ki, söz vermişdim sənə doğrudan,*
*Həmin o ilqardı məni ağrıdan,*
*Düşüb qüssələrə olma bağrı qan,*
*Qartala dönərəm sağ canım olsa.*

*Oxudum sözünü, ürəkdən şadam,*

*Kür üstündə ceyran vuran səyyadam,*
*Külüng çalıb dağlar çapan Fərhadam,*
*Şirin tək sevdiyim cananım olsa.*

*Dost-dostu görəndə o gün alır kam,*
*Vurğun da istəyir iş tapsın əncam,*
*Biz deyib-danışıb eyləyək bayram,*
*Səninlə görüşmək zamanım olsa.*

Məktubu alan Aşıq Şəmşir sevinir, onun sağalmasını gözləyir.

Mart ayının ortalarında Bakıdan aşığa teleqram gəlir. Onu Səməd Vurğunun yubileyinə dəvət edirlər. Aşıq teleqrama sevinir və təcili Bakıya gəlir. Şəhərdə onu Osman Sarıvəlli, Mehdixan Vəkilov və başqaları qarşılayır. Aşıq Mehdixandan soruşur ki, Səməd yubileydə iştirak edəcəkmi?

Mehdixan gözlərindən bulud kimi yaş töküb deyir:

- Aşıq, Səmədin yubileydə iştirak edəsi halı yoxdur.

Aşıq Şəmşir bu sözdən çox mütəəssir olur, xahiş edir ki, onu şairlə görüşdürsünlər. Mehdixan deyir:

- Aşıq, həkimlər Səmədlə görüşməyi qadağan edib.

Aşığın artıq üz vurmaqdan başqa çarəsi qalmır. Səhərisi gün o vaxt Bakının ən mötəbər klublarından birində Səməd Vurğunun yubiley gecəsi baş tutur. Xarici qonaqlar və respublikanın görkəmli ziyalıları yubiley şənliyində iştirak edir. Hazırlanmış ssenariya əsasən respublikanın artistlərindən biri Səməd Vurğun rolunda, Aşıq Şəmşir isə özü səhnəyə çıxır. Zal gurultulu alqışlara qərq olur. Sonra yubiley konsertində Aşıq Şəmşir öz şeirini oxuyur, Səməd Vurğunun şeirini isə qazaxlı Aşıq Hüseyn Xaloğlu ifa edir, yenə gurultulu alqış-

lar zalı bürüyür. Səməd Vurğunun telefon bağlantısı olur. Şair Azərbaycan xalqına məşhur

*Gözüm-gözünüzdən uzaq olsa da*
*Könüldən könülə yollar görünür*

- misraları ilə müraciət edir. Yubiley gecəsinin səhərisi Aşıq Şəmşir Səməd Vurğunla mütləq görüşəcəyini qərara alır. Yenə Mehdixan Vəkilova, Süleyman Rəhimova müraciət edir. Özbəkistandan gəlmiş şair Qafur Qulam aşığın kimliyini biləndən sonra onun xahişi ilə Səməd Vurğunla aşığın 5 dəqiqəlik görüşünə icazə verirlər.

Səməd Vurğun yataqda halsız vəziyyətdə olsa da Aşıq Şəmşiri görəndə üzünə xoş bir təbəssüm gəlir və inamla:

- Aşıq qardaş, narahat olma, inşallah tezliklə sağalacam! - deyib onu yola salır.

Şəmşirin ürəyi Səməd Vurğunun xəstəhal görkəmindən papa-para olur. Güclə özünü ələ alaraq otaqdan çıxsa da, göz yaşları onu boğur. Halının pisləşdiyini görənlər əyləşmək üçün ona stul verirlər. Elə stulda oturan kimi "Göz yaşı" rədifli qoşmasını deyib, qonaqlarla və Səməd Vurğuna baş çəkmək üçün gələnlərlə sağollaşıb uzaqlaşır. Yazdığı şeiri Osman Sarıvəlliyə verir:

*Daha tablaşmıram, dözmək çətindi,*
*Axma ürəyimə, aman, göz yaşı!*
*Saxlaya bilmirəm, gücüm də çatmır,*
*Ətrafımı alıb tufan, göz yaşı!*

*Allahı çağırdım, çatmadı səsim,*
*Yoxdu harayıma çatan bir kəsim,*
*Daha dinməyə də gəlmir həvəsim,*
*Bürüyüb başımı duman, göz yaşı!*

*Bu böyük dahinin halına bax sən,*
*Dayanma kənarda, durma uzaq sən.*
*Daha gəl Şəmşirin qanına ax sən,*
*Görməsin Vurğun tək insan göz yaşı.*

Osman Sarıvəlli deyir:

- Şəmşir qağa, dözümlü olmaq lazımdır, Allaha pənah!

Aşıq Şəmşir isə daha görüşməyə bir kəs tapmadığı üçün bir neçə gün Bakı şəhərində fəryad edə-edə gəzib çar-naçar rayona qayıdır. Elə gecə-gündüz Vurğundan bir xəbər gözləyir.

***

1956-cı ilin may ayının 27-də kənd cavanları aşığın kefsiz olduğunu görüb onu kəndlərindəki mineral bulağın (turşsuyun) üstünə aparırlar. Orada cavanlarla

dərdləşir. Qəfildən bir nəfər aşığa sual verir ki, ay Şəmşir əmi, bəs Səməd Vurğun rəhmətə getdi, sən niyə getmədin?

Aşıq Şəmşir bu sualdan möhkəm sarsılır və uşaqlarına bu xəbəri niyə ona vaxtında demədiklərinə görə bərk əsəbləşir. Elə həmin günün səhərisi böyük oğlu Qənbər müəllimlə Bakıya çıxır. Bakıda birbaşa Osman Sarıvəllinin yanına gəlirlər. O, şairdən onları Səməd Vurğunun qəbri üstünə aparmasını xahiş edir. Osman Sarıvəlli onları Səməd Vurğunun dəfn edildiyi Fəxri xiyabana gətirir. Aşıq Şəmşir şairin qəbri üstündə qalaqlanmış gül tığını görəndə keçən il Səməd Vurğunla Kəlbəcər görüşündə ona təqdim edilən güllərin elə bil təkrarını görür. Yoldaşlarından icazə alıb bir qədər kənara çəkilir. 10-15 dəqiqədən sonra qayıdır. Osman Sarıvəlli arif adam idi. O saat başa düşür ki, Aşıq Şəmşir nə

isə yazıb, ona görə də deyir ki, ay Şəmşir qağa, xahiş edirəm o yazdığın şeiri oxuyasan. Aşıq əlindəki vərəqi açıb təzəcə qələmə aldığı məşhur "Qardaş" şeirini oxuyur:

*Bu necə baxışdı, qəlbim oldu qan,*
*Cismi-canın yandı atəşə, qardaş!*
*Sanki qara geydi sonsuz asiman,*
*Ay-Günəş ağladı yanaşa, qardaş!*

*Qəzanın qədəri buyurdu fərman,*
*Dostun ayrılığı olur nə yaman,*
*Bu çərxi-ruzigar vermədi aman,*
*Qoymadı çatasan yüz yaşa, qardaş!*

*Lərzəyə düşübdü dostların cəmi,*
*Dayanıb, şairin yazmır qələmi.*
*Böyük sənətkarın möhnəti, qəmi*
*Od salıb bu dağa, bu daşa, qardaş!*

*Səni soruşacaq böyük, həm uşaq,*
*Analar, bacılar qan ağlayacaq.*
*"Haray, Vurğun!" - deyər Murov, Dəlidağ,*
*Qoşqar, Kəpəz eylər tamaşa, qardaş!*

*Necə layiq görək sənə bu adı,*
*Ey şeirin sərrafı, mahir ustadı.*
*Səninçin el çəkir ahı, fəryadı,*
*Yol verir gözümüz qan-yaşa, qardaş!*

*Sən vurğun olduğun ellər yasdadı,*
*Qoynunda qalıbdı, əllər yasdadı,*
*Çəmənli, çiçəkli çöllər yasdadı,*
*Gəlir uca dağlar baş-başa, qardaş!*

*Bülbül məlul durub zarıyır bağda,*
*Tərlan şivən edir kəklikli dağda,*
*Lalə qəm ağlayır bu qəmli çağda,*
*Qoyma sevənlərin ağlaşa, qardaş!*

*Müstəcəb olmadı deyilən dua,*
*Götürüb tüfəngi çıxmırsan ova,*
*Buludlar qaralıb, tutulub hava,*
*Yaz günün dönübdü bir qışa, qardaş!*

*Ağlasın doyunca səni Dilbazi,*
*Şair avazıdı onun avazı.*
*Sənə nə yazıldı bu qara yazı,*
*Az qalıb sinəmdə qəm daşa, qardaş!*

*Hələ səndən gözləyirdik gələcək,*
*Hər sözündə ətir saçır min çiçək.*
*Kim dedi ömründən belə tez əl çək,*
*İstəyir başımdan dərd aşa, qardaş!*

*Gözlədik, gəlmədin bizim mahala,*
*Sənə qıymaz idik, gəldin zavala.*
*Şəmşiri firqətin salıb nə hala,*
*Belə dağ çəkərmi qardaşa qardaş?!*

Aşıq şeiri oxuyandan sonra Osman Sarıvəlli kövrələ-kövrələ deyir:

- Şəmşir qağa, sənə halal olsun! Mən indi başa düşdüm ki, qardaş-qardaşı necə ağlayarmış.

Səməd Vurğunun vaxtsız vəfatı Aşıq Şəmşir üçün həm mənəvi, həm də bir növ iqtisadi zərbə olur. Yəni Aşıq Şəmşir toylara, dəvətlərə təsadüfi hallarda gedir. Amma o, Səməd Vurğun itkisini öz sözləri ilə desək, "həsrətə və ağrıya" çevirərək yeni-yeni şeirlərlə əvəz etmək qərarına gəlir.

Yaxşıların xeirxahlığı həmişə olubdur. Bu yaxşılardan biri də böyük yazıçı Süleyman Rəhimov olur. O, Aşıq Şəmşirə mənəvi dayağa çevrilir, onun şeirlərini Yazıçılar İttifaqının qəzet və jurnallarında dərc etdirir. Həmçinin, Süleyman Rəhimov Osman Sarıvəlliyə Aşıq Şəmşirin şeir kitabı-

nın nəşrini hazırlamaq üçün tez-tez ona göstərişlər verir. Amma Osman Sarıvəlli aşığın kitabını hazırlayıb "Akademiya" nəşriyyatına versə də kitabın nəşri gecikir. Sözsüz ki, bəzi nadanların mənfi hərəkətləri də bu işin ləngiməsinə təsir göstərir. Hətta bəzi şairlər tərəfindən Aşıq Şəmşir soyuq qarşılanır. O, yenə Səməd Vurğun ruhuna müraciət edir.

Bəli, əzizlərim, qəm-kədər içərisində olan aşıq sazı bağrına basıb "Dilqəmi" havası üstündə görək nə deyir:

*Hansı səmtə baxdım, görmədim yenə,*
*Dostu-mehribanı gözüm axtarır.*
*Üz tutmağa elə kimsə tapmadım,*
*Qalmayıb canımda dözüm, axtarır.*

*Ürək-dirək verənlərim çox olub,*
*Dünən söz deyənlər bu gün yox olub,*

*Tənəli söz ürəyimə ox olub,*
*Hamı aldatmağa yozum axtarır!*

*Gəlib yaxınıma hey dönə-dönə*
*Nə ad verim gündə yalan deyənə?*
*Şəmşirin səsini eşidib yenə*
*Sızıltı qoparıb sazım axtarır!*

Bəli, Aşıq Şəmşirin sazı da özü kimi sızıldayır, nalə çəkir, bir harayçı, bir köməkçi axtarır, tapmır ki, tapmır.

1957-ci ildə Yazıçılar İttifaqının sədri Süleyman Rəhimov ürəklə bu məsələyə müdaxiə edir və Aşıq Şəmşirin Yazıçılar İttifaqının üzvlüyünə seçilməsi məsələsi həll edilir. O, yekdilliklə İttifaqın üzvü seçilir. Elə həmin il Azərbaycan Ali Sovetinin fərmanı ilə ona Azərbaycanın Əməkdar İncəsənət xadimi fəxri adı verilir.

1957-58-ci illərdə musiqişünas Əminə Eldarova Aşıq Şəmşirin ifasında 75-80 aşıq havasını lentə köçürür və onun musiqi sənətkarlığı barədə dissertasiya hazırlayır.

Aşıq Şəmşir 1958-ci ildə böyük oğlu Qənbər müəllimlə bərabər şairin ev muzeyinə baxmağa gedir. Muzeyi gəzərkən Vurğunun özünəməxsus sazını köynəksiz, ov tüfəngini, papiros qutusunu, patron qatarını sahibsiz görüb qəmlənir, göz yaşları içərisində muzeydəki stulların birində əyləşib yazır:

*Qəfəsdə qalıbdı nəğmə bülbülü,*
*Çox çətin dayanar yazı görəndə!*
*Muzeydə yas tutub bir qara köynək,*
*Ağladım sahibsiz sazı görəndə.*

*Tüfəng canlı kimi pərişanlıdı,*

*Bunun tək sahibi adlı-sanlıdı,*
*Qatar məhbusdumu, kimlər qanlıdı?!*
*Kim soruşsun ömrü azı görəndə.*

*Müşdük, kibrit, bağlı qutu bir yanda,*
*Qəlbim qana döndü dönüb baxanda.*
*Canımı odlayıb oda yaxanda*
*Tonqal oldum bu murazı görəndə.*

*Elə bildim qaşlarını çatıbsan,*
*Ellərin Vurğunu, niyə yatıbsan?*
*Yaraq-yasağını niyə atıbsan?*
*Çox elədim etirazı, görəndə!*

*Özünə ev aldın yaman uzaqdan,*
*Küsdün Dəlidağdan, küsdün Qazaxdan.*
*Şəmşir, doymadınmı sən ağlamaqdan?!*
*Bəs kimə eylərsən nazı, görəndə?!*

Aşıq, şeiri yazanda oradakı işçilərdən bir nəfər muzeydə olan şairin sevimli qızı Aybəniz Vəkilovaya xəbər verir ki, bəs deməzsənmi, Aşıq Şəmşir muzeydə oturub ağlaya-ağlaya nə isə yazır. Aybəniz bu xəbərdən mütəəssir olur. Tez gəlib onu bağrına basıb ağlayır və aşığa təskinlik verir. Aşıq Şəmşir isə yenə üzr istəyib kənara çəkilir və beş dəqiqədən sonra "Qızım" rədifli aşağıdakı şeiri yazır:

*O zaman çox gənc idiniz,*
*Yadındamı dağlar, qızım?!*
*Atanla xoş günlər gördün,*
*Hanı gözəl çağlar qızım?!*

*Fəryadım göylərə qalxır,*
*Qəlbimi qəm-kədər yaxır,*
*Yaralıydım, qanım axır,*
*Bəs onu kim bağlar qızım?!*

*Lənət gəlsin səbəbkara,*
*Vurğun hara, ölüm hara?!*
*Qardaş axtara-axtara*
*Şəmşir əmin ağlar, qızım!*

Aşıq Şəmşir hər iki şeiri Aybəniz xanıma verir və xudahafizləşir.

1958-ci ildə dillər əzbəri olan məşhur Azərbaycan dastanları "Koroğlunun Bağdad səfəri", "Valeh və Zərnigar" Aşıq Şəmşirin və onun həmkarları Aşıq İdrisin, Göyçəli Aşıq Pənahın, Aşıq Bədəlin, balabançı Şavağatın və başqalarının ifasında ilk dəfə lentə alınıb, Azərbaycan radiosunda səsləndirilir.

Osman Sarıvəllinin və başqa Şəmşirsevərlərin fədakarlığı nəticəsində axır ki, 1959-cu ildə beş çap vərəqində aşığın ilk şeirlər kitabı Azərbaycan Elmlər Akade-

miyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşriyyatı tərəfindən nəşr edilib oxucuların istifadəsinə verilir. Kitab ədəbi ictimaiyyət və geniş oxucu kütləsi tərəfindən böyük rəğbətlə qarşılanır.

Elə həmin günlərdə Azərbaycan KP MK-nın birinci katibi İmam Mustafayevin tapşırığına əsasən rejissor Məhyəddin müəllimin rəhbərliyi ilə Aşıq Şəmşir barədə 1,5 saatlıq filmin çəkilişinə başlanılır. Xeyli iş görülür, amma respublika rəhbərliyi dəyişdirildikdən sonra filmin çəkilişi dayandırılır.

Bu əhvalat Aşıq Şəmşirə çox pis təsir edir. Amma o, Səməd Vurğunu bir gün, bir saat belə unuda bilmir.

Eyni zamanda, Azərbaycanın müxtəlif guşələrindən aşığa Şəmşirsevərlər minlərlə məktubla müraciət edir, şairlə görüşləri barədə sorğular göndərirlər. Aşıq

Şəmşir isə oxucularına, elsevər, hər sözündə, hər kəlməsində Azərbaycan nəfəsi, Azərbaycan səxavəti, Azərbaycan məhəbbəti duyulan bu qeyrətli söz ustadı barədə belə cavab verir:

*Bizim Kəlbəcərdə uca dağ kimi*
*Qalıb isti məhəbbəti Vurğunun.*
*Qəlbimizdə yuva salıb istəyi,*
*Hər ürəkdə var hörməti Vurğunun.*

*Dərya fərasəti, söz sənətkarı,*
*Cavahir kəlməli, nitqi mirvarı.*
*Şeir xəzinəmin ləl hökmdarı,*
*Çox böyükdü səadəti Vurğunun.*

*Alim, arif, əhli-dillər istəyi,*
*Vəfalı dostların canı, ürəyi.*
*Yaquba hədiyyə Yusif köynəyi,*
*Var hər gözdə şücaəti Vurğunun.*

*O ana deyibdi Azərbaycana,*
*Cənnətə yol alıb süd verən ana.*
*Vətən torpağına oldu pərvana,*
*Xalq üçündü sədaqəti Vurğunun.*

*Mərd oldu, ad aldı, özün öymədi,*
*Hamıya əl tutdu, qəlbə dəymədi.*
*Alçağa, satqına boyun əymədi,*
*Cəsur oldu cəsarəti Vurğunun.*

*O dərdli ellərin yandı halına,*
*Bu müdrik şairin bax kamalına.*
*Azadlıq dilədi ayaqyalına,*
*Öz alovu, hərarəti Vurğunun.*

*Yandı, incimədi el ataşına,*
*Düzdü möhübbünü dost-qardaşına.*
*Dünyanı bəzədi azca yaşına,*
*Vaxtsız yatdı köhlən atı Vurğunun.*

*Solmaz həmişəlik-elə bağ əkdi,*
*Onun hər mirası bir gələcəkdi.*
*Qara zəncinin də dərdini çəkdi,*
*Dövlətindən var baratı Vurğunun.*

*Adı cahan kimi qaldı əbədi,*
*Şəmşir ona az ha tərif demədi.*
*Bəs onu bu qədər sevdirən nədi:*
*Sadə qəlbi, pak sənəti Vurğunun!*

Bir müddət zamanın çərxi Aşıq Şəmşirin xeyrinə işləmir. Səməd Vurğunun bədxahları nəşriyyatlarda çoxalır və aşığın şeirlərinin və kitablarının nəşri 10 il mətbuat üzü görmür.

Aşıq, Bakı şəhərində yerləşən Mərdəkan sanatoriyasına gəlir. Şeirlərini mətbuatda dərc etdirmək istəyir. Ona istəyinə

soyuq yanaşır, üzünə yad kimi baxırlar. Səmədlə keçirdiyi günlər gözləri qarşısında canlanır. Şairin yoxluğu aşığa bərk təsir edir. Göz yaşları içərisində götürüb "Nə var" şeirini yazır:

*Daha səsin gəlmir, Vurğun, hardasan?*
*Sağ olsan haraya gəlməyə nə var?*
*Qocalıb olmuşam, yorğun, hardasan?*
*Diriltmək çətindir, olməyə nə var?*

*Taleyin şöhrəti sönməmiş olsa,*
*Şöləsinə qübar qonmamış olsa,*
*Fərhadın külüngü sınmamış olsa,*
*Bisütun dağını dəlməyə nə var?*

*Səsin kəskin ola, getməyə hədər,*
*Səni axtarmaya qəzavü-qədər.*
*Qəlbində olmasa küdurət-kədər,*
*Ağlamaq acıdır, gülməyə nə var?*

*Yanar qəlbin qələm-kağız deyilsə,*
*Keçər sözün haqq-divanda deyilsə.*
*Kələfin dolaşıb, işin əyilsə,*
*Açılmaq istəsə, ilməyə nə var?*

*Aşıq qardaş, dedim özümə mənim,*
*Şəmşirəm, şahid ol sözümə mənim.*
*Qələm yoldaşlarım üzümə mənim,-*
*Yad kimi baxdılar, bilməyə nə var?*

***

Bəli, əzizlərim! Söhbətimizin əvvəlində dediyimiz kimi Səməd Vurğunu sevənlər Aşıq Şəmşirə külli miqdarda məktublarla müraciət edir, onu ruhdan düşməyə qoymurlar. O, çağlar bulaq kimi yazıb-yaradır.

Səməd Vurğunla görüşündən sonra şairin belə erkən ölümü aşığı o qədər bərk sarsıdır ki, o, İstisu sanatoriyasına dörd il ayaq

basmır. Nəhayət, 1959-cu ildə Aşıq Şəmşir yenidən İstisuya səfər edir. Əhali, dostlar, tanışlar onu çox hərarətlə qarşılayır. Adətən, aşığın yanında şagirdləri, dostları olur. İndi də belə idi. Aşıq Şəmşirin xətrini istədiyi şagirdləri Qəmkeş Allahverdi və Aşıq Xalıqverdi də burada idilər.

Günlərin bir günü Aşıq Şəmşirin oğlu Şabər İstisuya – sanatoriyaya, atasının yanına gedir. O, üzünü atasına tutub sualla müraciət edir:

**Şabər:**
*İstisu Vurğunu soruşsa məndən*
*Dədə Şəmşir, Dəlidağa nə deyim?!*
*Bəlkə sual oldu güldən-çəməndən,*
*Ceyran adlı o bulağa nə deyim?!*

Ustad götürüb oğulunun bu sorğusunu aşağıdakı kimi cavablandırır:

**Aşıq Şəmşir:**

*İstisu Vurğunu soruşsa səndən,*
*Özü getdi, adı sağdı-belə de!*
*Qoy Ceyran bulağı yol gözləməsin,*
*Qayıtmaz o qanaq yüz min ilə, de!*

**Şabər:**

*Götür qələmini bir indi sən də,*
*Xatirət layiqdi, yazaq çəməndə.*
*Şairin hicranı bir dağdı məndə,*
*Bu bağbansız qalan bağa nə deyim?!*

**Aşıq Şəmşir:**

*Bu qəmli möhnəti ellər unutmaz,*
*Muzeydə yas tutur şair çalan saz.*
*De, bəs kimin bağrı daşdı, ağlamaz,*
*Ağlamışıq, al dəsmalı ələ, de!*

**Şabər:**

*Yolunu gözləyir Keyti, Qaraarxac,*
*Sultan Heydər qalıb görüşə möhtac.*
*Dağlar "Oğul!" - deyir, sanki yolur saç,*
*Sənətkarsız yığıncağa nə deyim?!*

**Aşıq Şəmşir:**
*Əlli il yaşamış Vurğunum hanı?!*
*Nakam qalan ömür odlayır canı.*
*Bir ah çəkib yandıraram dünyanı,*
*Bu dərdi, möhnəti ağlar dilə de.*

**Şabər:**
*Ağlaram, gözümdən car olar yaşım,*
*Fələyin işindən çıxmadı başım,*
*Qoy sağ olsun Yusif, Vaqif qardaşım,*
*Mən düşmüşəm bir sorağa, nə deyim?!*

**Aşıq Şəmşir:**
*Muzeydə saxlanır tüfəng qatarı,*
*Sazına bağlanıb matəm bağları,*

*Qoymadı yaramı qaysaya, barı,*
*Bu xəbəri Muğana de, Milə de.*

**Şabər:**
*Nə çətin olurmuş ömür inamsız,*
*Şairim, sənsiz bil dəhanım tamsız.*
*Şabərəm, deyiləm meyli-məramsız,*
*Yanan dilə, bu dodağa nə deyim?!*

**Aşıq Şəmşir:**
*Bir dəstə gül dərib döşünə taxdı,*
*Taxta yaylağından Murova baxdı,*
*Şəmşir, sənətkarın yolu uzaqdı,*
*Gəlməz oldu, gözü yaşlı selə de!*

Şagirdləri ustadlarından xahiş edirlər ki, Səməd Vurğundan, onun həsrətilə yazdığı şeirlərdən birini oxusun. Aşıq Şəmşir şagirdlərinin sözünü yerə salmır, öz sazı yanında olmadığından Qəmkeşin sazını

götürüb görək nə deyir, biz deyək, sizlər də şad olun:

*Nizaminin yadigarı,*
*Əhli-dilin ayrısıyam.*
*Vəsf etdiyi bu dağları*
*Yazan əlin ayrısıyam.*

*Kamil sahib-kamal köçüb,*
*Salıb qəlbimə xal, köçüb,*
*Sanki bir el-mahal köçüb,*
*Mən bu elin ayrısıyam.*

*Dəlidağda çəkdim yahu,*
*Uçubdu könlümün ruhu.*
*"Vurğun!" - deyir hər qətrə su,*
*Daşqın selin ayrısıyam.*

*Şəmşir gəzir pir vüqarı,*
*Səməd kimi sənətkarı.*

*Gəzdi, getdi bu dağları,*
*Neçə ilin ayrısıyam.*
*Neçə ilin ayrısıyam.*

Aşıq Şəmşir də öz növbəsində şagirdlərinə deyir ki, indi siz də mənim keçən illərdə Səməd Vurğuna yazdığım və sizin əzbərinizdə olan "Ağlar" şeirimi "Yanıq Kərəmi" havası üstündə oxuyun. Hər iki şagird sazlarının zilini-zil, bəmini-bəm, dəmini-dəm eləyib "Ağlar" rədifli şeiri oxuyurlar:

*Dövrün Nizamisi edir əlvida,*
*Dünyanı təzədən səs tutub ağlar.*
*Ümidvar etdiyin qocaman aşıq*
*Kimin ətəyindən bəs tutub ağlar?!*

*İndi qan ağlayır illər, yasdadı;*
*Obalar yasdadı, ellər yasdadı;*

*Sədəfli saz üstə tellər yasdadı;*
*Könlümün şüşəsi pas tutub ağlar.*

*Bağçada bülbüllər, göydə durnalar,*
*Qayada kəkliklər, suda sonalar,*
*Yaralı bacılar, dərdli analar*
*Mübarək qəbrinə üz tutub ağlar.*

*Vurğunsuz dağları gəzə bilmirəm,*
*Bu qəmi-firqətə dözə bilmirəm,*
*Çəməndə gülləri üzə bilmirəm,*
*Nərgiz-bənövşəni dəs tutub ağlar.*

*Hər kəlməsi bir əsərdi Vurğunun!*
*Ovxar sözü bir kəsərdi Vurğunun!*
*Şəmşiri əyibdi dərdi Vurğunun!*
*Əlində qələmin nəs tutub ağlar.*

Məclis-əhli aşıqların bu kədərli oxusundan çox mütəəssir olur. Ustadın məs-

ləhəti ilə şagirdləri Aşıq İdris və Aşıq İslam "Baş Sarıtel" və "Dübeyti" havaları üstündə "Xəbər aldım" şeirini oxuyub dinləyənlərin əhvalını yaxşılaşdırırlar:

**Aşıq İdris:**
*Tapşırmışdın, ustad, səni*
*Şiş dağlardan xəbər aldım.*
*Durna gözlü ağ sulardan,*
*Bulaqlardan xəbər aldım.*

**Aşıq İslam:**
*Bənövşədən, gül-nərgizdən,*
*Kəklik daşda səkən izdən,*
*Qaraarxacdan, Taxtadüzdən,*
*Yaylaqlardan xəbər aldım.*

**Aşıq İdris:**
*Yasəmənlər verdi cavab,*
*Lalə bağrı oldu kabab.*

*Çəmənlərdən gəldi xitab,*
*Ovlaqlardan xəbər aldım.*

**Aşıq İslam:**
*Dəlidağa getdim hər dəm,*
*Xəbər tutdum göydən, yerdən.*
*Qocalardan, körpələrdən*
*Uşaqlardan xəbər aldım.*

**Aşıq İdris:**
*Məni dilxun etdi həmən,*
*Yanağı yaş çayır-çəmən.*
*Səhər-səhər sərin əsən*
*Sazaqlardan xəbər aldım.*

**Aşıq İslam:**
*Adı ölməz Vurğun hanı,*
*Sözün, şeirin gövhər kanı.*
*Hey soruşdum o bağmanı,*
*Tər bağlardan xəbər aldım.*

**Aşıq İdris:**
*Şəmşirin el-obasından,*
*Sazımın xoş nəvasından,*
*Qartalların yuvasından,*
*Qayalardan xəbər aldım.*

Aşıq Şəmşir aşıq sirdaşlarına və məclisdə iştirak edənlərə təzəcə çapdan çıxmış kitabını məmnuniyyətlə töhvə edir.

Səhərisi gün məclis-əhlinin xahişi və ikinci sanatoriya Həmkarlar təşkilatının təşəbbüsü ilə sanatoriyanın iclas zalında Aşıq Şəmşir və şagirdləri üçün yenidən məclis qurulur. Məclisdə çoxlu mahnılar oxunur, söz aşıqlara veriləndə Aşıq Xalıqverdi “Dağların”, Aşıq İdris isə “Səni” rədifli şeirləri qarşı- qarşıya oxuyurlar:

**Aşıq Xalıqverdi:**

*Təbiətin ürəyindən od aldı,*
*Həm Fərhadı, həm Şirini dağların.*
*Sinəsində enər-qalxar avazlar,*
*Zil şöhrəti, bəm şirini dağların.*

**Aşıq İdris:**
*Necə cavab verim, səni soruşur,*
*Suala çağırır lalalar məni.*
*Deyir, hayamdadı şeirin ustadı,*
*Dindirir al-əlvan talalar səni.*

**Aşıq Xalıqverdi:**
*Bulağı var, gözlərimdə dənizdi:*
*Çiçəyi var, bir solmayan bənizdi;*
*Mənə iki gözüm qədər əzizdi:*
*Həm acısı, həm şirini dağların.*

**Aşıq İdris:**
*Dərd üzüb canımda yoxdu ixtiyar,*
*Mənə ümid verən hanı sənətkar?!*

*Dostun qəm-qüssəsi sinəm üstə var,*
*Bu möhnət dağından salalar məni.*

**Aşıq Xalıqverdi:**
*Nə yorular, nə bu yoldan bezərəm,*
*Ömür-günü nəğmələrlə bəzərəm.*
*Bu dünyanı Vurğun deyib gəzərəm,*
*Unutmaram Şəmşirini dağların.*

**Aşıq İdris:**
*O günlər yadıma düşəndə hərdən,*
*Qəlbim zədələnir belə kədərdən.*
*Bu ellər aşığı düşməz nəzərdən,*
*Şəmşirəm, nəzərə alalar məni.*

Söz tamama yetir. Hər tərəfdən alqış səsləri göyə ucalır.

Məclis-əhlinin xahişi ilə Aşıq Şəmşir sazı əlinə götürməyə məcbur olur. Bu dəfə o, şagirdi aşıq İdrisin sazı ilə "Qaytarma"

havası üstündə "Səni" şeirini dinləyənlərə təqdim edir:

*Köz kimi qızarıb dağlarda lalə,*
*Çağırır, Vurğunum, yaylaqlar səni.*
*Taxtadüz haçandır göz dikib yola,*
*İstisu üstündə qonaqlar səni.*

*Kəkliklər oxuyur, qartallar baxır,*
*Şəlalə süd kimi güneydən axır.*
*Buludlar qaralır, ildırım çaxır,*
*Sevindirər belə bu çağlar səni.*

*Sən bizim ellərə eyləsən güzar,*
*Görərsən bu yerdə gözəllik, vüqar!*
*Mədənli Kəlbəcər olub laləzar,*
*Şad ellər, sərvətli yataqlar səni.*

*Dəlidağ döşünə düzüb, gül, çəmən,*
*Sən görən qərənfil açılıb həmən.*

*Piltan, yelgətirən, şehli yasəmən,*
*Axtarır lilparlı bulaqlar səni.*

*Bənövşə izinsiz qonur yaxaya,*
*Şəmşir saz əlində çalıb oxuya,*
*Nərgizlər yol üstdə gedir yuxuya,*
*Unutmaz bu böyük ocaqlar səni.*

Məclis xoş əhvalla başa çatır. Sizi də xoş növaqlı olasınız.

Əzizlərim! Əvvəllərdə dediyimiz kimi 1959-cu ildən 1970-ci ilədək Aşıq Şəmşirin şeirlərinin nəşrinə sanki qadağa qoyuldu. 1964-cü ildə aşıq ağır xəstələnir, müalcə olunmaq üçün Bakıya – Respublika Qanköçürmə İnstitutunda müalicə olunmağa gəlir. O vaxt həmin institutun direktoru olan gözəl alim, xeyirxah insan, şəxsiyyət və ləyaqəti ilə xalqımızın dərin rəğbətini qazanmış Gürşad Hüseynov

Aşıq Şəmşiri böyük hörmət və ehtiramla qarşılayır. Onun müalicəsi üçün bütün gücünü sərf edir.

Professor Gürşad Hüseynov həkimliklə yanaşı, həm də gözəl saz çalır, xəstə olmasına baxmayaraq Aşıq Şəmşiri öz evinə aparır, saatlarla sazdan-sözdən söhbət salır, ustadın söhbətlərindən yorulmur. Onların söhbətləri əksər vaxt Səməd Vurğunla başlayıb, Səməd Vurğunla qurtarır. Həmişə aşıqdan Səməd Vurğundan danışmasını xahiş edir. Ustad da böyük həvəslə onun arzusunu yerinə yetirir.

Aşıq onun xahişi ilə "Vurğunsuz dünya" şeirini yazıb professora bağışlayır.

*Necə cavab verim, səni soruşur,*
*Suala çağırır lalalar məni.*
*Deyir, hayandadı şeirin ustadı?-*
*Dindirir al-əlvan talalar məni.*

*Dərd üzüb, canımda yoxdu ixtiyar,*
*Mənə ümid verən hanı sənətkar?*
*Dostun qəm-qüssəsi sinəm üstə var,*
*Bu möhnət dağından salalar məni.*

*O günlər yadıma düşəndə hərdən,*
*Qəlbim zədələnir belə kədərdən.*
*Bu ellər aşığı düşməz nəzərdən,*
*Şəmşirəm, nəzərə alalar məni.*

Aşıq Şəmşir müalicədən sonra Kəlbəcərə qayıdır. Bir il sonra Səməd Vurğundan bir nişanə görmək arzusu ilə İstisuya gedir.

Əzizlərim! Allah heç birinizə doğmalarınızın bəd xəbərini qismət eləməsin. Aşıq İstisuda olanda ortancıl oğlu 25 yaşlı Əkbərin faciəli ölüm xəbərini eşidib təcili kəndə gəlir.

***

Atalarımızın gözəl bir deyimi var: ”Bir yandan bağlayan fələk bir yandan açar.” 1969-cu ildə Azərbaycanda hakimiyyət dəyişikliyi olur. Şeirə-sənətə, xüsusən də Səməd Vurğuna və Aşıq Şəmşirə dərin rəğbəti olan Azərbaycan xalqının görkəmli oğlu, böyük partiya və dövlət xadimi Heydər Əliyev respublikaya rəhbər gəlir. Bundan sonra, yəni 1969-cu ildən sonra Aşıq Şəmşirin şeir kitabları dalbadal nəşr edilir. Dövri mətbuatda, qəzet və jurnallarda şeirləri çap olunur.

1973-cü ildə onun anadan olmasının 80 illiyi ilə əlaqədar Azərbaycan KP MK-nın qərarı ilə xüsusi yubiley komissiyası yaradılır. Respublikanın hər yerində yubiley gecələri keçirilir. Aşıq Şəmşir bu tədbi-

ri təşkil edənlərə dəfələrlə dərin məhəbbət və istəklərini bildirir.

Yenə də Şəmşirsevərlər ona külli miqdarda məktublarla müraciət edir. Səməd Vurğun haqqında ondan sorğular edir, yeni-yeni əhvalatlar eşitmək istədiklərini bildirirlər. O da oxucuların suallarına ətraflı və geniş cavab verməyə çalışır.

Ən maraqlı əhvalatlardan biri də əvvəlcədən qeyd etdiyimiz kimi Azərbaycanın müxtəlif rayonlarından aşığın ünvanına göndərilən məktublardır.

Qutqaşen rayonunun Nic kəndindən Esmira Qanqalovaya bir neçə dəfə göndərdiyi təskinlik məktubları diqqəti xüsusilə çəkir. Həmin məktubların birində qələmə aldığı şeirdə yazır:

*Sənin xoş halına Esmira bala,*
*Danışmağa mehribandı dil sənin.*

*Milyonların ən hörmətli balası,*
*Qohum sənin, qardaş sənin, el sənin.*

*Küsmə taleyindən, gileydən əl çək,*
*Sənin tək sevimli hanı bir çiçək?!*
*İnan, qiymətlisən mirvarilər tək,*
*İstəyir xətrini hamı, bil, sənin.*

*Baxtın kür olsaydı düşməzdin yada,*
*Sayılırsan, urvatlısan dünyada.*
*Pişvazında xidmətkeşdi ana da,*
*Xidmətini çəkir neçə il sənin.*

*Ərşin ulduzunu axtarma daha,*
*Ruhunu incidib, etmə günahı,*
*Kamalını kəskin verib İlahi,*
*Xatirini əfzun edib gül, sənin.*

*Şəmşir əgər bu hicranı qanmırsa,*
*Heysinib, "uf" demirsə, anmırsa,*

*Qəlbim sənə şamlar kimi yanmırsa,*
*Qiyamətdə yaxa mənim, əl sənin.*

22 il çarpayıda yaşamış Esmira məktubu alandan sonra Aşıq Şəmşirə yazır:

*"Şəmşir babam!*

*Saz tutan əllərinizi öpmək, məktubunuza cavab yazmaq istərdim. Sizin göndərdiyiniz məktub mənə gələn minlərlə məktubun içərisində ən qiymətlisidir. Çünki bu məktubu mənə el arasında ən çox sevilən və mənim də əziz babam kimi sevdiyim el aşığı, xalq şairi Səməd Vurğunun ən yaxın dostu göndərmişdir".*

***

Esmira Qanqalovaya ustadın ikinci məktubu isə aşağıdakı şeirlə yekunlaşır:

*Belədir dünyada əzəldən adət:*

*Biri yoxsul, biri oynar varınan,*
*Eləsi var, nə qəm çəkir, nə həsrət,*
*Kimi gün keçirir ahu-zarınan.*

*Baxtın budağında bir alması var,*
*Dövranın bir verib, bir alması var,*
*Fələyin kəsərli bir alması var:*
*Gah qılıncla kəsər, gah mişarınan.*

*Şəmşir ayaq qoyur, doğru-düz raha,*
*Gəl meyl verməyək fəryada, aha,*
*Uzaqlaşaq qəmdən, hicrandan daha,*
*Yaşayaq ölüncə xeyri-karınan.*

***

Aşıq Şəmşirin Səməd Vurğunla görüşünə nəinki Azərbaycanda, burdan kənarlarda da böyük rəğbət bəsləyirlər. Aşıqla bir çox istedad sahibləri dostluq etməyə çalışırlar. 1959-cu ildə Dağıstandan ləzgi

Mahmud üçüncü sinifdə oxuyan oğlu Sakiti götürüb onun yanına gətirir və şəyirdliyə verir. Sakit Aşıq Şəmşirdən 3 il dərs alır, kamil bir aşıq kimi püxtələşib yetişir. Sərbəst olaraq elin-obanın toy-düyün məclislərində çalıb-oxuyur. Ustadının şeirləri onun repertuarında əsas yer tutur. Əksər məclislərdə də, "Səməd Vurğun və Aşıq Şəmşir" dastanını danışıb məclis-əhlinin könlünü oxşayır.

Aşıq Sakit həm də ustadı Aşıq Şəmşirin tapşırıqlarına əsasən Dağıstan ellərində, Azərbaycanın Şimal rayonlarında Səməd Vurğunla görüşlərini, aşığın şairə yazdığı şeirləri ürəklə vəsf və təbliğ edir.

1974-cü ildə Sakit yenidən Ağdaban kəndinə - ustadının görüşünə gəlir. Aşığı da götürüb rayon mərkəzi olan Kəlbəcər şəhərinə gəlir. İctimaiyyətin xahişi ilə rayon Mədəniyyət Evində aşığın yaradıcılıq

gecəsini keçirir. Məclisdə söhbət ən çox Səməd Vurğunla Aşıq Şəmşirin görüşündən gedir.

Tədbirdə Sakitlə ustadı Aşıq Şəmşir qabaq-qənşər müxtəlif saz havaları üstündə bir-birinə həsr etdikləri şeirləri oxuyurlar.

Aşıq, ustad-şagird qayda-qanununa görə sözü birinci şagirdinə verir:

**Sakit:**
*Qismət oldu bir də sənlə görüşdük,*
*Dədə Şəmşir, ömrə, baxta çox şükür.*
*Qiblə bildim, sanki etdim ziyarət,*
*Bu bahara, bu xoş vaxta çox şükür.*

**Aşıq Şəmşir:**
*Baharı çiçəkli dəli könlümün*
*Düşməyib üstünə şaxta, çox şükür.*
*Hələ taleyimin sözüdür bütün,*

*Olmur bir ilqarı saxta, çox şükür.*

**Sakit:**
*Əyməmisən qamətinin şaxını,*
*Uzaqlara qovlamısan yaxını ,*
*Güllü ana bu cür boyu-buxunu*
*Qoymur gözdən çox uzaqda, çox şükür.*

**Aşıq Şəmşir:**
*Təvəllüdüm olub Qoşabulaqda,*
*Bənövşə şehinə çimdim o vaxtda.*
*Qəzadan, qədərdən qalım uzaqda,*
*Bir atan olmasın ox da, çox şükür.*

**Sakit:**
*Dağlar oğlu dağlar kimi dayanıb,*
*Təbi bütün gül-çiçəyə boyanıb,*
*Səksən birdə dan yerilə oyanıb*
*Yuyunursan buz bulaqda, çox şükür.*

**Aşıq Şəmşir:**

*Bələyim gül olub, köynəyim lala,*
*Anam dönüb 14-də hilala,*
*Ancaq məni o yetirib bu hala,*
*Baxtıma yar olub haq da, çox şükür.*

**Sakit:**

*Həm bahardı, həm də şaxta qocalıq,*
*Qismət olsun hər bir baxta qocalıq,*
*Görünsə də bu ocaqda qocalıq*
*Çıxmayıbdı hələ taxta, çox şükür.*

**Aşıq Şəmşir:**

*Bir sərrafam simu-zərə, lələ mən,*
*Nəğməkaram obaya mən, elə mən,*
*Qocalığa baş əymirəm hələ mən,*
*Əllərinə həna yax da, çox şükür.*

**Sakit:**

*Dədə Şəmşir, dədə olmur hər dədə,*

*Köçəriyə əziz, tacisər dədə,*
*Koroğludan dedin beçə pərdədə,*
*Çox qıy vurdun ağ otaqda, çox şükür.*

**Aşıq Şəmşir:**
*Şadlıqdır Şəmşirin hər təmənnası,*
*Onda Araz, Kürdür eşqin sədası,*
*Ürəyim atlandı ləzgi balası,*
*Olmusan kuyəndə, püxtə, çox şükür!*

Aşıq Şəmşirin və şagirdinin çıxışını Kəlbəcər camaatı alqışlarla qarşılayır.

***

1976-cı ilin martında Səməd Vurğunun anadan olmasının 70 illiyi ilə əlaqədar Aşıq Şəmşiri Qazağa - şairin doğulduğu elə dəvət edirlər. Yubiley başlamamışdan bir gün əvvəl Qazax ziyalıları, Səmədsevərlər gecə keçirirlər. Gecədə aşıq-

lar və yaradıcı adamlar çıxış edir. Yığıncaqda 1950-51-ci illərdə Aşıq Şəmşirin doğma kəndi olan Ağdabanda təyinatla müəllim işləmiş və burada işlədiyi müddətdə gözəl saz çalmağı öyrənən, indi isə Qazaxda yaşayan Xaliddin müəllim Aşıq Şəmşirdən xahiş edir ki, aşıq 60-cı illərdə şairin Bakıda göstərilən "Vaqif" tamaşasına baxarkən qələmə aldığı "Hardasan?" şeirini oxusun.

Ustad sazı sinəsinə basıb böyük sevgi və yanğı ilə "Kərəmi" havaları üstündə oxumağa başlayır:

*Əsrin pərdəsini çəkib bir yana,*
*Vaqifi göstərdin elə, hardasan?!*
*Boyun görünmədi, darıxdı qəlbim,*
*Göz yaşlarım döndü selə, hardasan?!*

*Azad qələm çəkib, azad yaradan,*

*Vətəndi səni də ustad yaradan,*
*Eldarı Qacara cəllad yaradan,*
*Sən çox yazmalıydın hələ, hardasan?!*

*Sözünün Qıratı tez mənzil kəsir,*
*Sözün Koroğlusu, onu özün sür,*
*Yıxıb şah Qacarı eylədin əsir,*
*Almırsan qələmi ələ, hardasan?!*

*Sən yazan əsərlər indi yaranmır,*
*Kim deyər ki, bu xəzinə aranmır,*
*Barmağınla ağ saçların daranmır,*
*Verən çoxdu sığal telə, hardasan?!*

*Şəmşir, götür sazı, Vurğunu çağır,*
*Bu hicran Vaqifə ağırdır, ağır,*
*Bahar leysanı tək alqışlar yağır,*
*Səhnə bürünübdü gülə, hardasan?!*

Söz tamam olur. Zalda əyləşənlər ayağa durub gurultulu alqışlarla aşığa "Sağ ol!" deyillər.

Elə bu zaman ağsaqqal bir kişi xahiş edir ki, aşıq, Səmədin "Ceyran" şeirinə yazdığın nəzirəni mümkünsə bir oxu, qulaq asaq. Aşıq gözləmədiyi bu təklifdən sevinir. Sazını bağrına basıb "Mixəyi" havası üstündə aldı görək nə dedi. Deyək, eşidənlər şad olsun:

*Aman ovçu, üzdə qurma tələni,*
*Heyifdi, düşməsin duzağa ceyran.*
*Gəl atma gülləni, qana bələnər,*
*Düşər balasından uzağa ceyran.*

*İnsan oğlu, vurma bu qələm-qaşı,*
*Onun da yoxdurmu yarı-yoldaşı,*
*Axar selə dönər gözünün yaşı,*
*Hər dönüb baxanda yarağa ceyran.*

*Qısqanır, səksənir qansız insandan,*
*Rəhm eylə, əl götür bu zərif candan,*
*Ağlaya-ağlaya gedir Muğandan*
*Vurğunu gəzməyə Qazağa ceyran.*

*Bu gözəl pəriyə gətirmə zaval,*
*Gözəldir, əzizlə qayğısına qal,*
*Bəsdir, insaf eylə, az nişana al,*
*Susayıb gələndə bulağa ceyran.*

*Şairin xatiri Şəmşirdə barat,*
*Turacı ellərə verib amanat,*
*Gözəl təbiətə almaz xəyanət,*
*Bənzəyir bir zərif qonağa ceyran.*

Aşıq Şəmşirin oxuduqlarından sonra çoxları göz yaşlarını saxlaya bilmir. Səhnəyə çıxıb ustada dərin təşəkkürlərini bil-

dirirlər. Aşıq bir neçə gün Qazaxda qalır. 3-cü gün xahiş edir ki, onu Səmədin şeirlərində adını dəfələrlə çəkdiyi Göyəzən dağına və Damcılı bulağına aparsınlar. Dostları onun arzusunu yerinə yetirirlər. Bulağa çatanda daşların üzərindəki mamırların üstündən insan kirpiyi kimi yan-yana düzülmüş süzülən su damlaları onu heyran edir.

Bu mənzərə övladını itirmiş ananın fəryadını xatırladır. Aşıq Şəmşir sazı köynəyindən çıxarıb "Göyçəgülü və "Qaytarma" havaları ilə aldı, görək nə dedi:

*Mamır kirpiyindən axan yaşdımı,*
*Gah daşır, gah süzür ara, Damcılı?!*
*Yoxsa gözlərindən qan axıdırsan,*
*Bəlkə var qəlbində yara, Damcılı?!*

*Danış qardaşımın davranışından,*

*Mənalı gülüşlü xoş baxışından,*
*Ay nainsaf, yolmu verdin başından?*
*Düşürüb göndərdin hara, Damcılı?!*

*İntizar qoyubdu o, Dəlidağı,*
*Hicrana bürünüb qaşı-qabağı,*
*Hələ yol gözləyir Ceyran bulağı,*
*Nə deyirsən bu ilqara, Damcılı?!*

*Şəmşirəm, alışdım, yandım ataşa,*
*Ah çəkərəm, dağlar gələr baş-başa,*
*Niyə qoydun gözlərindən uzaşa,*
*Necə qıydın sənətkara, Damcılı?!*

Məclisdəkilər yer-yerdən aşığı alqışlayır. Qazax camaatı və Damcılı bulağı ilə vidalaşıb getmək istəyəndə şairin son-beşik övladı Vaqif deyir:

- Şəmşir əmi, 1955-ci ildə atamla sənin görüşün zamanı mən də orada olmuşam.

O hadisə və o füsunkar təbiət, əlçatmaz zirvələr, dibi görünməz dərin dərələr yadımda çox az qalıb. Allah qoysa, yaxın vaxtlarda mənim üçün çox əziz olan atam gəzdiyi o yerləri yenidən görmək üçün Kəlbəcərə gələcəyəm.

Bir neçə aydan sonra Vaqif respublikanın tanınmış bir neçə ziyalısı ilə Kəlbəcərə gəlir. Onun gəlişindən xəbər tutan aşıq keçmiş Vurğunlu günləri xatırlayır. Atası Səmədi olduğu kimi özünü də sazla, sözlə qarşılayır:

*Dağlar al bəzəndi, bağlar gül açdı,*
*Yazın fəsli-novbaharı gəlibdi.*
*Qabil davamçısı şair yurdunun,*
*Vurğunumun ümidvarı gəlibdi.*

*Gəlib Kəlbəcərdə qonaq qalmağa,*
*Ceyran bulağına nəzər salmağa,*

*Əlbət Dəlidağdan xəbər almağa,*
*Soruşmağa sənətkarı gəlibdi.*

*Əsli mirvaridi, özü simu-zər,*
*Pakizə bir övlad əslinə bənzər,*
*Ata gəzən dağı oğlu da gəzər,*
*Unutmayıb etibarı, gəlibdi.*

*Bir çiçək çələngi alıb ülkərdən,*
*Sözünə qat verib müşki-ənbərdən,*
*Xatirə yazmağa şəlalələrdən*
*Vəsf etməyə bulaqları, gəlibdi.*

*Bu gün şöləlbndi yanan çıraqlar,*
*Bizə barat oldu bu təm-təraqlar,*
*Səfalar gətirib gələn qonaqlar,*
*Arif olan yoldaşları gəlibdi.*

*Heyranam bu kamil ada, sanlara,*
*Məhəbbət əhlinə, təmiz qanlara,*

*Minnətdaram alim olan canlara,*
*Sözün şirin xiridarı gəlibdi.*

*Şəmşir, var sözündə zər nişanəsi,*
*Dostun şəninədir hər nişanəsi,*
*O böyük şairin dürr nişanəsi*
*Vaqif kimi yadigarı gəlibdi.*

Aşıq Şəmşir özü ilə gətirdiyi şagirdlərinə işarə edir ki, indi növbə sizindir. Aşıq Qəmkeş Allahverdi ustadının Vaqif Səmədoğlunun dünənki gəlişinə həsr etdiyi "Gəldin", vaxtilə Səməd Vurğunla Aşıq Şəmşirin görüşündə iştirak edən dostu Aşıq Xalıqverdi isə aşığın Salahlı Paşaya həsr etdiyi "Mənim" rədifli gəraylılarını "Baş sarıtel" havası üstündə oxuyurlar:

**Qəmkeş Allahverdi:**
*Qardaşımın yadigarı,*

*Bizi axtar-ara, gəldin.*
*Unutmadın etibarı,*
*Düz oldun ilqara, gəldin.*

**Aşıq Xalıqverdi:**
*Dostum Paşa, deyim sənə:*
*Belə keçdi işim mənim.*
*Bilirəm ki, dar günümdə*
*Olarsan yoldaşım mənim.*

**Qəmkeş Allahverdi:**
*Çıxaq Taxta yaylağına,*
*Baxaq Ceyran bulağına,*
*Bəlkə şair sorağına,*
*Çəmənli dağlara gəldin?!*

**Aşıq Xalıqverdi:**
*Bu nə səfər, bu nə yoldu:*
*Xəzan əsdi, gülüm soldu?!*
*Getdi Vurğun, gəlməz oldu,*

*Çaşdı ağlım, huşum mənim.*

**Qəmkeş Allahverdi:**
*Sığınmışdım yaxşı mərdə,*
*Əl atdı iş düşən yerdə.*
*Bu qocalıq kimi dərdə*
*Varmı səndə çara? Gəldin.*

**Aşıq Xalıqverdi:**
*Yol gözlədim: şair gələ,*
*Gözlərindən gülə-gülə.*
*Vədə verdi bizim elə,*
*Gəlmədi qardaşım mənim.*

**Qəmkeş Allahverdi:**
*Bir norx şairsən həmi,*
*Xəbərdarsan elmə cəmi.*
*Barmağınla atan kimi*
*Ellərini dara gəldin.*

**Aşıq Xalıqverdi:**

*Özü getdi, adı sağdı,*
*Dərdi-qəmi mənə dağdı.*
*Hava ayaz, dolu yağdı,*
*Yayda düşdü qışım mənim.*

**Qəmkeş Allahverdi:**

*Sən arifsən, sözüm ara,*
*Müşkül işə hanı çara?!*
*Şəmşir, ondan uçdu hara*
*Tülək tərlan quşum mənim.*

**Aşıq Xalıqverdi:**

*Dərs alıbsan dürr kamaldan,*
*Bar götürdün o camaldan.*
*Qoca Şəmşir düşüb haldan,*
*Bu günümdəə kara gəldin.*

Aşıqlar oxuyub qurtarar-qurtarmaz alqış səsləri başları üstündə şaqqıldadı. Məclisdə iştirak edən qonaqların xahişi ilə Aşıq Gəray və Aşıq Qəmkeş Allahverdi qarşı-qarşıya dayanıb balabançı Şavağatın müşayiəti ilə təzədən meydana girirlər. Aşıq Şəmşirin Vaqifin Kəlbəcərə gəlişinə həsr etdiyi növbəti “Vurğun” şeirini “Dübeyti” havası üstündə aldılar görək necə dedilər, biz də deyək, şad olun:

**Aşıq Gəray:**
*Vaqif, soruşsan atanı,*
*Necə deyim, yoxdu Vurğun?!*
*O bəxtəvər günlər hanı?*
*Döşünə gül taxdı Vurğun!*

**Qəmkeş Allahverdi:**
*Təməl qoydu Kəlbəcərdə,*
*Şairim, gəlmədin bir də.*

*Bizi saldın niyə dərdə?*
*Keçdi görüş vaxtı, Vurğun.*

**Aşıq Gəray:**
*Zərdi sözün, hər söhbətin,*
*Istəyin, adın, hörmətin.*
*Qəlbimizdə məhəbbətin,*
*Dağlardan da çoxdu, Vurğun!*

**Qəmkeş Allahverdi:**
*Dəlidağla qucaqlaşdın,*
*Taxtadüzdə meydan açdın.*
*Qardaş niyə uzaqlaşdın?*
*Gözün yaşı axdı, Vurğun.*

**Aşıq Gəray:**
*Sözün, şeirin sənətkarı,*
*Sənsiz qoydun bu dağları.*
*"Nizaminin yadigarı",-*
*Bu ad sənə haqdı, Vurğun!*

**Qəmkeş Allahverdi:**
*Gözəl ömrün getdi bada,*
*Təbib çatmadı imdada.*
*Sənin dərdin bizi oda*
*Yandırdı, həm yaxdı, Vurğun!*

**Aşıq Gəray:**
*Ceyranı tapşırdın elə,*
*Turac vəsfi düşdü dilə,*
*Kim yaşasa yüz min ilə,*
*Deməz: - Yaddan çıxdı Vurğun!*

**Qəmkeş Allahverdi:**
*Şəmşir alışır alova,*
*Kim yetişər haray-hova?!*
*Dəlidağa, gah Murova*
*Təşəkkürlə baxdı, Vurğun!*

Vaqif və gələn qonaqların xahişi ilə Aşıq Şəmşir sazı sinəsinə sıxıb “Baxdım, ağladım” gəraylısını oxuyur:

*Vurğun gəzən yaylaqlara*
*Çöllərə baxdım, ağladım.*
*Qayıtmadı bu dağlara,*
*Yollara baxdım, ağladım.*

*Necə dözdü iyirmi ilə,*
*Məgər ilqar olar belə?*
*Taxtadüzdə qərənfilə*
*Güllərə baxdım, ağladım.*

*Sordum Ceyran bulağından:*
*Söylə şair sorağından.*
*Qan yaş süzdü yanağımdan,*
*Sellərə baxdım, ağladım.*

*“Unutmaz məni el!” – dedin,*

*Bu ilqarı sən elədin.*
*Ha axtardım görünmədin,*
*İllərə baxdım, ağladım.*

*Adın böyük adı-şandır,*
*Kəlmələrin zərnişandır.*
*İstisu da pərişandır,*
*Ellərə baxdım, ağladım.*

*Tanıyır səni bəhri-bər,*
*Yerdə, göydə axşam-səhər.*
*Şəmşir səni ananda hər*
*Dillərə baxdım, ağladım.*

Hamı mütəəssir olur. Qısa fasilədən sonra Aşıq Xalıqverdi “Orta Sarıtel” havası üstündə ustadın “Sənsiz” şeirini oxuyur:

*Кимин гялби йанар мяня,*
*Дярдим, гямим чохду сянсиз.*

*Намярдляря бойун яйдим,*
*Эюз йашларым ахды сянсиз.*

*Бир нечя дост бядямялди,*
*Ня щарайа, дада эялди.*
*Ня бирсиндян иш дцзялди,*
*Щавадарым йохду сянсиз.*

*Productions инсан, гялби шейтан,*
*Билмяз няди илгар, иман.*
*Цзя эцлян, сюзц йалан,*
*Бунлар гялиз чыхды сянсиз.*

*Шямшир, щиърин дейилмиш аз,*
*Гялям эютцр, шящриня йаз.*
*Щяр уетяндян Вурьун олмаз,*
*Ютдц,  узаг бахды сянсиз.*

Məclisin axarı bu yerə çatanda Vaqif üzünü Aşıq Şəmşirə tutub deyir:

- Şəmşir əmi, 1955-ci ildə atamla şəkil çəkdirdiyin Qara daşı görmək istəyirəm. Gəlsən, bir oranı da ziyarət edək.

Vaqifin xahişi ustadın ürəyindən olur. Gəzə-gəzə gəlirlər Qara daşın üstünə. Aşıq xeyli xəyala dalır. Şagirdləri ustadın pəjmürdə halını görüb 1959-cu ildə onun qələmə aldığı "Qayıtmaz" və Qara daşın dilindən cavab verdiyi "Qara daş" adlı qoşmalarını "Qaytarma" havası üstündə oxuyurlar:

**Aşıq Gəray:**

*Dilə gəl, cavab ver, dilsiz Qara daş,*
*O böyük şairi-süxəndan hanı?*
*Gəlib sənə pənahlandı üç qardaş,*
*O istəkli dostu-mehriban hanı?*

**Qəmkeş Allahverdi:**

*Aşıq, demə yanmır daşın ürəyi,*
*Sual verdin, cavab belə qayıtmaz.*
*Getmir məndən o Vurğunun istəyi,*
*Gəldi-getdi, bir də elə qayıtmaz.*

**Aşıq Gəray:**
*Köksündə eşitdik kəklik səsini,*
*Çəmənin-çiçəyin saldı bəhsini,*
*Car-car bulaqların şəlaləsini,*
*Görəndə halını soruşan hanı?*

**Qəmkeş Allahverdi:**
*Bu ruzigar ona vurdu min yara,*
*Gəldi təbibləri, olmadı çara.*
*Gedəndə: "Əlvida", - dedi dağlara,*
*Yol gözləmə, yüz min ilə qayıtmaz.*

**Aşıq Gəray:**
*Kölgədə daradı o ağ birçəyin,*
*Güləş gözlərinə taxtı eynəyin,*

*Hörmətin qazandı böyük-kiçiyin,*
*Səbəbkar  işlərə qarışan hanı?*

**Qəmkeş Allahverdi:**
*Ha dolansan Kəlbəcəri, Qazağı,*
*Axtarma yaxını, gəzmə uzağı,*
*Əsməz tellərindən səhər sazağı,*
*Gözlərindən gülə-gülə qayıtmaz.*

**Aşıq Gəray:**
*Söz açdı, soruşdu Aşıq Qurbanı,*
*Oxudum sözünü, qaraldı qanı,*
*Biləm Qurban qəmli gəzib dünyanı,*
*Qədir bilən hanı, o insan hanı?*

**Qəmkeş Allahverdi:**
*Qəlbinə ruh verdi bu dağ, bu dərə,*
*Xoşuna çox gəldi gözəl mənzərə,*
*Necə deyim gedib ağır səfərə,*

*Məskən salıb, o, mənzilə qayıtmaz.*

**Aşıq Gəray:**
*Elə bil cavabda pərişan məni,*
*Qəlbi viran məni, bağrı qan məni.*
*Görsə soruşmazdı Mehdixan məni,*
*Deməzmi səninlə mehriban hanı?*

**Qəmkeş Allahverdi:**
*Kəsdi ümidini ondan öz yarı,*
*Gözünü tikməsin yollara sarı.*
*Fəxri Xiyabanda onun məzarı,*
*Bəzənib çəmənə, gülə, qayıtmaz.*

**Aşıq Gəray:**
*Şəmşir, bu dəhridən kim aldı kamı,*
*Əcəl bir dəryadır, ömür bir zəmi.*
*Füsunkar Füzuli, köçüb Nizami,*
*Nəsimi, Xaqani ey dövran, hanı?*

**Qəmkeş Allahverdi:**
*Dilə gəldi, cavab verdi Qara daş,*
*Leysan kimi hər yanından axdı yaş,*
*O səyyad ovlaqdan uzaşdı birbaş,*
*Uçdu sonaları gölə, qayıtmaz.*

Əzizlərim! Aşıq Şəmşir ömrünün ixtiyar çağında onunla görüşə gələn Vaqif Səmədoğlu və gələn dostlarını böyük xətirhörmətlə yola salır. Bir neçə ildən sonra bütün ölkədə ustad sənətkarın 85 illik yubileyi təntənə ilə qeyd edilir. Həmin yubiley tədbirlərinin də əsasını "Səməd Vurğun və Aşıq Şəmşir" mövzusu tutur. Harada, hansı şəraitdə olmağından asılı olmayaraq Aşıq Şəmşir Səməd Vurğunu ən əziz adamı kimi xatırlayır və onun vaxtsız ölümünə acıyır.

Hə, əzizlərim! Vaxt gəlir, vədə yetişir, gün o gün olur ki, Aşıq Şəmşir ömrünün son

günlərini yaşayır. Oğul-uşaq əl-ayağa düşür. Aşıq onları çağırıb deyir:

- Övladlarım, məndən sarı narahat olmayın! Səməd cəmi 50 il yaşadı. Budur, mən 87 sinnimə çatmışam, hələ də nəfəs alıram. Allah verən ömrü ləyaqətlə yaşadım, ləyaqətlə də gedirəm. Heyf ki, Səmədlə keçən günlərim çox qısa oldu. Şair vaxtsız köçdü. Mənə qələm-kağız verin, ürəyimə bir qatar söz gəlib, yazım, bəlkə bir az rahatlanam.

Bunu deyib ustad sənətkar elə yataqda elə-obaya vida nəğməsi olan "Salamat qalın" qoşmasını yazır.

Yerində dirsəklənib qaşlarını çatır. Səməd Vurğunu xatırlayır. Yenidən qələmi əlinə alıb, yazmağa başlayır:

*Gərək dil açaydın, Ceyran bulağı,*

*Aşığa sualın-sorğun olaydı.*
*Gərək soruşaydın Vurğunu məndən,*
*Təsəllidən bircə sarğın olaydı.*

*Onsuz ağlayıram hey için-için,*
*Əfsus ki, olmayır yuxularım çin.*
*Ustadın əksini saxlamaq üçün,*
*Bulaqlar axmayıb durğun olaydı.*

*Baxaydı Günəşə, baxaydı Aya,*
*Yolunu salaydı qərib talaya.*
*Təzədən gələydi şair dünyaya,*
*Yenə dərya təbi çılğın olaydı.*

*Ölmək xoşdur, onsuz burda qalınca,*
*Dərdi məni möhtac qoydu balınca.*
*Salaydı atını əlik dalınca,*
*Köhləni dağlarda yorğun olaydı.*

*Hicranın atəşi yamandır, yaman,*

*Əyir qamətimi, verməyir aman.*
*Şəmşiri torpağa tapşıran zaman*
*Son söz deyən Səməd Vurğun olaydı.*

Şeir tamamlananda aşığın sinəsi atdanır.

Azca dikəlib "Ya bir Allah!" – deyir və ömür-gün yoldaşı Güllü xanıma müraciətlə:

*Məni bağışlasın, əziyyət çəkdi,*
*Bir saatlıq qonağıyam Güllünün*.

– misralarını qələmə alır.

***07 fevral 1980-ci il***

# ŞƏMŞİR VƏ SƏNUBƏR DASTANI

## Ustadnamə

*Namərdə yalvarma insandan deyil,*
*Düşmənə yaltaqlıq mərdə yaraşmaz.*
*Öyünüb desə də min yol nakişi,*
*Mənəm qəhrəman da, nər də, yaraşmaz!*

*Hər kəs qeyrətini düşünsün əzəl,*
*Gül olmaz söyüddən tökülər xəzəl.*
*Abır, həya, hörmət bilməyən gözəl,*
*Çəksə də üzünə pərdə, yaraşmaz!*

*Qatil də deməz özünə cəlladam,*
*Onun işldəyinə düşmənəm, yadam.*
*Xalqın əhvalına yanmayan adam,*
*Desə də şərikəm dərdə, inanma!*

*Həmişə kəm hünər sellənər, daşar,*
*Döyüşə girməmiş qaynayar, coşar.*
*Yerdə iş bacarmaz, göydə danışar,*
*Ona gəzmək heç düz yerdə yaraşmaz!*

*Şəmşir məqsədinə çata yaxşıdı,*
*Gövhəri sərrafa sata yaxşıdı.*
*Yaxşı oğul, comərd ata yaxşıdı,*
*Beyveci xeyirdə, şərdə yaraşmaz!*

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər. Biz də deyək iki olsun, düşmənin gözü qorla dolsun.

*Adam oğlu, ağlı topla başına,*
*Hər deyilən söz dalınca düşmə sən.*
*İnanıban vermə sirr yoldaşına,*
*Fələk salmış iz dalınca düşmə sən.*

*Mərddən soxa gözlə, igiddən hünər,*

*Uyma nanəcibə, nə çəkmə xətər.*
*Qızılda qiymət var, poladda kəsər,*
*Gövhər deyib bez dalınca düşmə sən.*

*Qazanmaq istəsən halaldan varı,*
*Atma namusunu, satma ilqarı.*
*İmtahan etməmiş sevdiyin yarı,*
*Tələsiyib tez dalınca düşmə sən.*

*Beyhaya alçaqdan dolan haşa sən,*
*Can sağlığı gör elində yaşa sən.*
*Dərs oxuyub yetişməmiş başa sən,*
*Aşıq olub söz dalınca düşmə sən.*

*Bu Şəmşir bir yana yeriyər gedər,*
*Canı qürbət eldə çürüyər gedər.*
*Şiləkən çaylarda əriyər gedər,*
*Körpü deyib buz dalınca düşmə sən.*

Ustadlar ustadnaməni iki yox, üç deyərlər, biz də deyək üç olsun, yağılar saralıb solsun.

Alağa *qərənfil, yovşana reyhan,*
*Tikanlı qanqala gül desəm, olmaz!*
*Dəmirə saf qızıl, söyüdə sandal,*
*Tapılan hər daşa ləl desəm, olmaz!*

*Arı şirə çəkir yazda çiçəkdən,*
*Nə çıxar boş yerə yalan deməkdən?*
*Bir fayda axtarma məkəs-milçəkdən,*
*Şanına tapılar bal desəm, olmaz!*

*Namərdin varı var, ürəyi yoxdu,*
*Bir insan oğluna gərəyi yoxdu,*
*Səxası, süfrəsi, çörəyi yoxdu,*
*Yoxsula verəcək pul desəm, olmaz!*

*İgid yeri düşən yerdə yaxşıdı,*

*Yaxşıya yaxşılar bir də yaxşıdı,*
*Mərd olan xeyirdə, şərdə yaxşıdı,*
*"Bivəfa, arxaya gəl" desəm, olmaz!*

*Şəmşir, de sözlərin, saxlama ləngə,*
*Əsli aslan olan layiqdi cəngə.*
*Pişik tab gətirməz şirə, pələngə,*
*Dovşana hünərdə fil desəm, olmaz!*

İndi sizə kimdən, nədən danışım Dəmirçidamlı Aşıq Şəmşir Qurbandan. Aşıq Qurbanın atası Şəmşəddin elindən köçüb Gədəbəy rayonunun Böyük Qarabulaq kəndinə, sonra isə Cavanşir qəzasının Dəmirçidam kəndinə gəlib, orada yaşamışdır. Aşıq Qurban Güneypəyə Səlmi adlı bir qıza aşiq olub onunla evlənmişdi. Qurbanla Səlminin 1893-cü ildə bir oğlu olur, adını Şəmşir qoyurlar. Şəmşir 15 yaşında Ağdaban kəndində molla məktəbinə daxil

olub, orada yeddi il oxuyur. Aşıq Şəmşir yaxın qonşuları Hilalızərrin qızı Sənubərlə hələ mədrəsəyə gəlməzdən qabaq sevişirlərmiş, ancaq ürək sirlərini aça bilmirlərmiş.

Bir gün Sənubər fikirləşdi ki, mən nə bəhanə ilə məktəbə gedib Şəmşirlə görüşüm. Bu zaman bənövşələrin açılan vaxtı idi. Sənubər belə qərara gəldi ki, bir dəstə bənövşə aparıb mollaya verim, bəlkə məni məktəbə götürə. O, çiçəkli güneydən bənövşə dərdi. Sənubər baxdı ki, bənövşə boynunu əyri tutmuşdur. Öz-özünə dedi: “Mənim atam yoxsuldu, məni məktəbə qoya bilmir, mən boynumu əyri tutmaqdan, bu bənövşənin dərdi nədi ki, belə məlul boynunu əyri tutub. Gəl bunların dərdini xəbər al”. Odur ki, dedi:

*Boynunu niyə əymisən,*

*Açan təzə bənövşələr?*
*Qurtarıb bu qarlı qışdan*
*Çıxan yaza, bənövşələr.*

*Mənim kimi bir aşıqsan,*
*Əlbət dərdin var, aşiqsan.*
*Çiçəklərə yaraşıqsan,*
*Gül-nərgizə, bənövşələr.*

*Belə əyri tutma başın,*
*Mən olum qəmli yoldaşın.*
*Car eylərəm gözüm yaşın,*
*Süzər üzə, bənövşələr.*

*Mən yoxsul qızıyam bəli,*
*Haradadır Kərəmli.*
*Yardanın rəhmi gəli,*
*Bir gün bizə, bənövşələr.*

*Ətiriniz baş cənnətdi,*

*Kim bilir kimə qismətdi.*
*Bəlkə dərdin məhəbbətdi,*
*Salmır üzə, bənövşələr.*

*Siz ki gözəl çiçəksiniz,*
*Qərənfildən göyçəksiniz.*
*Yaraşıqlı bəzəksiniz,*
*Gəlin, qıza, bənövşələr.*

*Sənubərəm yüz dərdimə,*
*Dərman olar söz dərdimə,*
*Çox yanıram öz dərdimə,*
*Bir də sizə, bənövşələr.*

Sənubər sözlərini tamam eləyib, əlində bənövşə gedib məktəbin qapısında dayandı. Bu vaxt Şəmşirin əlində qələm çölə çıxdı, Sənubərin əlində bənövşəni görüb soruşdu:

- Qonşu qızı, bu bənövşəni kimə gətiribsən?

Sənubər cavabında dedi:

- Niyə sən bilmirsən ki, mən nə üçün gəlmişəm bura? Bir də ki, ataların belə bir misalı var: "Bir atın əvəzi bir alma olar". Apar bu bənövşəni mollaya ver, bəlkə mənim məktəbə gəlməyimə icazə verdi.

Şəmşir bənövşələri alıb mollanın yanına gəldi. Molla bənövşəni görən kimi acıqlı-acıqlı dedi:

- Bənövşəni məktəbə niyə gətirmisən?

Şəmşir utana-utana dedi:

- Molla əmi, bu bənövşəni Hilalızərrin qızı Sənubər gətirib, deyir ki, əgər mümkünsə, molla məni də məktəbə qəbul eləsin.

Molla Fərzəli hirslənib dedi:

- Mən də elə bildim bir layiqli sovqatdı. Qızın məktəbdə oxuması günahdı.

Sənubər qapının arxasından bu sözləri eşidib öz-özünə dedi: "Əgər mənim atam yoxsul olmasa idi, molla heç deməzdi qızın məktəbdə oxuması günahdı".

Belə deyib ucadan ağlamağa başladı. Şəmşir qızın ağlamasını görüb dedi:

*Zimistan yaz olar, çəkmə həsrəti,*
*Dayan bu möhnətə, çox da darıxma.*
*Ədalətin gücü, haqqın nüsrəti,*
*Köməkdi qabaqda, toxta, darıxma.*

*Alan olar qoynu qurdun əlindən,*
*Hicranın əlindən, dərdin əlindən,*
*Görərsən köməklik mərdin əlindən,*
*Gələr bir ədalət haxtda, darıxma.*

*Rubə yeyib eldən rüşvət alanlar,*

*Başlarına dünya bir gün olar dar.*
*Hər bir şeyin vədəsi var, vaxtı var,*
*Gəl sən sığın kəskin baxta, darıxma.*

*Şəmşir ilə bir kam alarsan sən də,*
*Düyün düyən özü düşər kəməndə.*
*Görərsən mollanı elə bir gündə,*
*Vurular ağzına noxta, darıxma.*

Şəmşir sözünü tamam edib mollasına dedi:

- Mən elə bilirdim ki, qız ilə oğlan bir yerdə oxuya bilər. Elə onsuz da sən iki varlı adamın qızını oxudursan.

Molla Fərzəli dedi:

- Mən bilirəm, sənin fikrin odur ki, o yoxsul qızını pulsuz-parasız oxutdurasan. Onu görməyəcəksən.

Bu sözdən sonra aldı Şəmşir görək nə dedi:

*Qapıda ah çəkir o mələkzadə,*
*Qanadı sinəmin yarası, molla.*
*Nə cavab verərsən haqqa dünyada,*
*Açılmış qəlbimin qarası, molla.*

*Yaxşılıq eyləsə insan insana,*
*Əlbəttə xoş gələr adil divana.*
*O, yazıq yoxsulun bil ki, bir dana,*
*Nə malı var, nə pul-parası, molla.*

*Şəmşiri qoymursan cavabın deyə,*
*Gözün yoxdu yoxsulları görməyə,*
*Bir manat tapmır ki, sənə verməyə,*
*De nədi bu dərdin çarası, molla?*

Söz qurtaran kimi molla dedi:

- Mən bilirəm ki, o yoxsul qızın nə üçün tərəfdarısan.

Bu zaman Sənubər ağlaya-ağlaya evlərinə yola düşdü. Atası yolda onun qabağına çıxıb soruşdu:

- Qızım, nə üçün ağlayırsan?

Qız ağlaya-ağlaya dedi:

- Ata heç elə, kasıblığımıza görə ağlayıram. Mən bu gün mollanın yanına bir dəstə bənövşə aparmışdım ki, məni də mədrəsəyə götürsün. Acıqlı söz deyib məni qovdu.

Hilalızərrin dedi:

- Qızım molla bir uşağı oxutmaq üçün bir inək alır. Bizim nəyimiz var ki, ona verək.

Sənubər sakit dayanıb mollanın yanına oxumağa getməkdən əl çəkdi. Onu da deyim ki, qız tez-tez Şəmşirlə görüşüb dərdləşir və sevişirdilər.

Bir gün Şəmşirlə Sənubərin söhbət çağında Sənubərin anası gəlib bunları bir

yerdə görüb geri qayıtdı, düz ərinin yanına gedib əhvalatı ona söylədi və dedi:

- A kişi, sənin qızın bizim başımıza hələ bundan da artıq iş gətirəcək, bunu bir oğlana verək, qulağımız dincəlsin.

Ər-arvad götür-qoy elədilər. Sözü bir yerə qoydular ki, kordan, keçəldən kim qıza müştəri çıxsa verib başlarından eləsinlər. Elə bu zamanlar Hidayət adlı bir oğlan qıza elçi göndərdi. Ata-ana qızı Hidayətə vermək istədilər. Sənubər bunu bildi, içəri girdi, elçiləri geri qaytardı, ata-anasının sözünü qəbul etmədi.

Hidayət mollanın yanına gedib dedi:

- Molla əmi, mən Hilalızərrin kişinin qızı Sənubəri istəyirəm, mənə gəlmir. O, Şəmşir adlı bir oğlana aşiqdir. Mən nə cür edim?

Molla gülüb dedi:

- Ona bir dua yazacağam, ver birinə suyunu ona içirsin.

Molla duanı yazıb verdi Hidayətə.

Hidayət özünü Qədəm qarıya yetirib dedi:

- Nənə bu duanın suyunu Sənubərə içirtsən, nə istəsən verəcəm.

Qarı "baş üstə" deyib özünü Hilalızərrin evinə çatdırdı. Duanı çıxarıb dedi:

- Su gətirin, bu duanın suyunu kim içsə xoşbəxt olar.

Sənubər işi başa düşüb dedi:

- Qarı nənə, sən nahaq zəhmət çəkirsən, mənim məhəbbətimi mollanın duası poza bilməz.

Qarı peşiman olub, qayıdıb gəldi. Hidayətə ikinci dəfə elçi getməyi məsləhət gördü. Molla ilə bir neçə adam Hilalızərrin evinə elçiliyə getməkdə olsunlar, eşit Sə-

nubərdən. Sənubər bunu bildi, tez qaçıb əhvalatı görək Şəmşirə nə cür xəbər verir, Şəmşir ona nə cür cavab verir:

**Sənubər:**
*Dörd yanımı düşmən alıb,*
*Sevgim niyə yatar indi?*
*Məni səndən ayrı salıb,*
*Günahıma batar indi.*

**Şəmşir:**
*Dedin yağı düşmənlərdən,*
*Mən də yaxşı bildim indi.*
*Aralığı qatanlardan,*
*Dürüst xəbər oldum indi.*

**Sənubər:**
*Qoyma qalam bəxti qara,*
*Əğyar hara, de mən hara.*
*Uzaq elə, bir diyara,*

*Götür məni apar indi.*

**Şəmşir:**
*Haqq, ədalət, divan yoxdu,*
*Oyanarmı yoxsul bəxti.*
*Mənim ki, dostlarım çoxdu,*
*Niyə yalqız qaldım indi?*

**Sənubər:**
*Ümidini kəsmə məndən,*
*Biganələr gülər gendən.*
*Sənubər ayrılır səndən,*
*Sevinməsin əğyar indi.*

**Şəmşir:**
*Demə Şəmşir, dərdin azdı,*
*Bir görüşün mənə yazdı.*
*Məhəbbətim yorulmazdı,*
*Qəlbimdə var vüqar indi.*

Şəmşirlə Sənubər sözlərini tamam eləməkdə olsunlar. O biri tərəfdən Hidayətin elçiləri gəlib çıxdı. Danışmaqdan, həyoxdan sonra gətirdikləri yaylığı Sənubərin başına örtmək istədilər, ha axtardılar, qızı tapmadılar.

Çuğul Bəsti dedi:

- Yəqin o, Şəmşirin yanında olacaq.

Bir dəstə adamı Bəsti ilə birlikdə Sənubərin dalınca göndərdilər.

Onlar Şəmşirlə Sənubərin yanına gedəndə Sənubər uzaqdan onları görüb Şəmşirə dedi:

- Şəmşir, onlar gəlib məni sənin yanında görsələr hər ikimizi öldürəcəklər. Sən qaç get, gəlib məni tək görsünlər, xəta sovuşsun.

Şəmşir qaçıb getdi. Adamlar gəlib Sənubəri tək gördülər. Onu aparmaq istəyəndə o, zar-zar ağladı. Onlardan kömək

istədi. Adamların ona yazığı gəldi. Ona dedilər:

- Bacı, biz səni aparmırıq. Haraya istəyirsən get, ya da qaç gizlən.

Adamlar geri qayıdıb Sənibərin atasına və Hidayətə dedilər:

- Sənubəri tapmadıq.

Hidayət başqa bir dəstə göndərdi. Onlar da çox axtardılar, lakin Sənubəri tapmadılar.

O biri tərəfdən Sənubər qaçıb kənddən çıxdı. Az getdi, çox getdi, dağ ətəyində bir çobana rast gəldi. Bu çobanın adı Heykəl idi. Heykəl çoban Sənubəri görüb dedi:

- Bacı, sən kimsən, haraya gedirsən?

Sənubər başına gələni ona nağıl eləyib dedi:

- Sənə pənah gətirmişəm, qardaş mənə kömək elə!

Heykəl çobanın ona yazığı gəldi, dedi:

- Sən mənim oldun qiyamət günü bacım. Əlimdən gələni sənə kömək edəcəyəm.

Elə bu zaman iki balalı ceyran bunların yanına gəldi. Sən demə Heykəl çobanın dostu ovçu Məhəmmədlə ovçu Nadir pusquda imişlər. Onlar ceyranları görəndə istədilər ki, ox atsınlar. Sənubərin qəlbi dərdlə dolub ovçulara görək nə dedi:

*Saxlayın əlizi, amandı aman,*
*Ox atmayın bu ceyrana, ovçular.*
*Könlümün şəhrini etməyin bərbad,*
*Siz qıymayın gözəl cana ovçular.*

Ovçular təəccüb qalıb sözün mabədini gözlədilər.

Aldı Sənubər:

*Dərs alırdım ya əlifdən, ya sindən,*
*Meylim kam almadı təmənnasından.*
*Qəza-qədərindən, qul xatasından,*
*Mən qaçmışam bu məkana, ovçular.*

*Sinəmdə baqidi qurtarmaz bir dağ,*
*Qərib Sənubərəm, çəkirəm fərağ.*
*Gəlin bacı-qardaş olaq ayrılaq,*
*Siz bir yana, mən bir yana ovçular.*

*Yoxdu Sənubərin başqa əlacı,*
*Mərd igid olmasın namərd möhtacı.*
*Siz mənə bir qardaş, mən sizə bacı,*
*Öz sevgimin dürdanəsi ovçular.*

Sənubər sözünü tamam edib, dərdi-qəmə qərq oldu. Heykəl çoban onu bu halda görüb dedi:

- Sənubər bacı, ovçu Məhəmməd mənim dostumdu.

Ovçu Məhəmməd dedi:

- Əziz bacı, mən də ölüncə sənin qardaşınam.

Elə bu zaman Nadir dedi:

- Zənanələr əhlində qayda elə belədi. Əzəl özlərini çox çəkirlər, mazamata mindirirlər.

- Aldı Sənubər görək Nadirə nə dedi:

*Haqq yetişsin köməksizlər dadına,*
*İşim tənəzzüldür, dara düşmüşəm.*
*Salan yoxdu mən yazığı yadına,*
*Eliyə dərdimə çara, düşmüşəm.*

*Ox atmısan mənə, yaralıyam mən,*
*Elimdən obamdan aralıyam mən,*
*Ağdiyar elinin maralıyam mən,*
*Vətənimdən çıxıb hara düşmüşəm?*

*Kimi döyər, kimi söyər qəribsən,*

*Bənövşə tək qəddim əyər, qəribsən.*
*Baxanlar rəngimə deyər qəribsən.*
*Bu nə haldı mən avara düşmüşəm.*

Bu sözdən sonra ovçu Məhəmməd dedi:

- Bacı, sən özünə niyə qərib dedin?

Bu, Nadirə xoş gəlmədi. Elə bil ki, Sənubər Məhəmmədə vurulubdu, - dedi:

- Məhəmməd namərd yoldaşdı. Araya keçib işimizi pozur.

Sənubər cavabında dedi:

- Atam oğlu, mən sən deyən adam deyiləm. Mən sevgimin ucundan çöllərə düşmüşəm.

Ovçu Nadir dil azarlığa başlayıb dedi:

- Əgər sən bir ağıllı qız olsaydın, atan-anan qoymazdı səni çöllərə düşəsən.

Bu söz Sənubərə toxundu, aldı görək ona nə dedi:

*Deyim, bil dərdimi vəfasız qardaş,*
*Hər insan oğluna ana şirindi.*
*Məhəbbət əhlini yandırır ataş,*
*Yandıran oda pərvanə şirindi.*

*Kim görsə mənim tək eşq ataşını,*
*Tökər gözlərinin qanlı yaşını.*
*Fərhad külüng çalıb dəldi başını,*
*Kim qıyardı şirin cana şirindi.*

*Sənubər geyməyə kətan yaxşıdı,*
*Mən deyə bilmərəm yetən yaxşıdı.*
*İnsan üçün ana vətən yaxşıdı,*
*Arif olub sözüm qana şirindi.*

Sənubər sözünü deyib qurtardı.
Nadir dedi:

- Dünyada çox oğlan var. Elə gərək sənin dediyin olsun? Məgər mən pis oğlanammı? Mənə gəlsən xoşbəxt olarsan.

Bu danışıqda dülgər oğlu Fail gəlib çıxdı. Sənubərdən xəbər aldı:

- Ay qız, sən bu ovçuların yanında nə gəzirsən?

Sənubər ona cavab verdi:

- Mən də şikarı itkin düşən ovçunun maralıyam. Hərçəndi bu dövr Leyli-Məcnun dövrü deyil, ancaq mənim bu çöllərə düşməyimin əsil səbəbi zalımlar olub. İndi qulaq as, deyim:

*Mənim elim Ağdiyardı,*
*Deyim sənə haralıyam.*
*Gözüm yardan intizardı,*
*Ürəyimdən yaralıyam.*

Dülgər oğlu Failin ürəyi dərdə gəlib dedi:

- Bacım, mən səni tanıyıram, mən də ağdiyarlı Aşıq Qurbanın şagirdi olmuşam. Dülgərliyi də mənə o öyrədib. İndi icazə ver sözünə cavab verim.

Aldı Fail görək nə dedi:

*Qəm eləmə qərib bacım,*
*Solub gül tək saralısan.*
*İndi bildim bir səyyadın,*
*Sən bir dərdli maralısan.*

Aldı Sənubər:
*Mən öz rahimdə olmadım,*
*Ölüb vətəndə qalmadım,*
*Sevdim, seçdim, kam almadım,*
*Belə baxtı qaralıyam.*

Aldı Fail:

*Daşqın sellər bir gün yatar,*
*Qəm yükün üstündən atar.*
*Müşkül olan kama çatar,*
*Niyə qəlbi qaralısan?*

Aldı Sənubər:
*Atam saili kəmtərdi,*
*Qəddim əyib sevgi dərdi.*
*Mənim adım Sənubərdi,*
*Şəmşirimdən aralıyam.*

Fail o saat bildi ki, bu həmin onun ustadı Qurbanın oğlu Şəmşiri deyir.

Aldı Fail:
*Hədər getməz əziyyətin,*
*Fail deyir var şöhrətin.*
*Harada olsa niyyətin,*
*Sən özün də oralısan.*

Fail ilə heykəl çoban onlardan ayrıldılar.

Məhəmməd Sənubəri gətirdi evinə. Arvadı Həliməyə dedi:

- Bu qızı su tapılmaz səhrasında istəkli dostum Heykəl çoban mənə əmanət verdi və dedi adamları gələnə kimi qonaq saxlayım. Mənim üçillik uzaq yola səfərim var. Mən gələnə kimi onu öz qızımız kimi saxlarsan.

Məhəmməd yola düşəndə Sənubər fikir elədi ki, birdən Hidayətin adamları məni ondan soruşarlar. Məhəmməd bilməz yerimi deyər.

Aldı görək bu münasibətlə Məhəmmədə nə dedi:

*Xəbər tutan olsa itkin bacından,*
*Sən vermə bir kəlmə nişana məndən.*
*Çöllərə düşmüşəm eşqin ucundan,*

*Qoy əhval çatmasın düşmana məndən.*

*Canım qardaş, yolda uyma uyquya,*
*İşini bildirmə, yağılar duya.*
*O haqqın düşməni məlun mollaya,*
*Lənət apar həmin şeytana məndən.*

*Bir ah çəkib baislərə qarğaram,*
*Neçə ki, dünyada hələ sağ varam.*
*Sənubərəm, şamlar kimi yanaram,*
*Gəlsin od aparsın pərvanə məndən.*

Sənubər sözünü tamam etdikdən sonra, Məhəmməd xüdahafizləşib yola düşdü.

Nadir Məhəmmədin getməsindən xəbərdar olub düz onun arvadı Həlimənin yanına gəlib dedi:

- Həlimə, sən nə səbirli adamsan. Sənin belə səbrli olduğunu bilməzdim.

Həlimə dedi:

- Nadir, bu nə sözdü dedin?

Nadir yavaşcadan ona dedi:

- Niyə, sən öz evində olan gününü görmürsən?

Həlimə dedi:

- Nadir, sən bu şeytan sözlərini danışma. O, Məhəmmədin doğma bacısıdı.

Nadir gülüb dedi:

- Düz deyiblər, arvadın ağlı olmaz. Bacı, o düz deyil, Məhəmməd səni aldadır. Sabah başın ağrı çəkəcək ha.

By söz ağılsız Həlimənin başına batır. Evə gəlib Sənubərə deyir:

- Çəpəl, sən mənə günü gəlmisən? Bu saat evdən çıx.

Sənubər nə qədər and-aman içdisə də, Həlimə onun sözünə baxmır. İtələyib bayıra çıxardır, qapını bağlayır. Sənubər əlacsız qalıb çöl-biyabana düşür. Getha-get, gedib Xoşnişan elində həkim Saniyə

rast gəlir. Həkim Sani ondan hal-əhval soruşur. Sənubər başına gələn qəzayi-qədəri ona danışır.

Həkim Sani deyir:

- Qızım, qorxma, Məhəmməd mənim də dostumdur. O tez qayıdıb gələcək. O gəlincə sən bizim evdə qalarsan.

Sənubər burada qoyaq, görək Məhəmməd necə oldu.

Məhəmməd uzun səfərə çıxmağı hələ saxlayıb, bir neçə gündən sonra qayıdıb evinə gəldi. Sənubəri evdə görməyib Həlimədən soruşdu:

- Bəs Sənubər hardadı?

Həlimə doluxsunub dedi:

- O, gecə məni yuxuya verib, harasa qaçıb getdib, bir soraq yoxdu.

Məhəmməd soruşdu?

- Ovçu Nadir bizə gəlməmişdi ki?..

Həlimə dedi:

- Bəli, gəlmişdi.

Məhəmməd mətləbi anladı, elə həmin saat yola düşdü ki, gedib Xoşnişan elində həkim Sani ilə görüşsün və ondan məsləhət alıb Sənubəri axtarsın.

Bəli, o, gedib Xoşnişan elinə yetişdi, həkim Sani ilə görüşdü. Həkim Sani Məhəmmədi kefsiz görən kimi işi duydusa da, bir söz demədi. Öz-özünə dedi: "Əgər bunlar bacı-qardaşdırlarsa, bir-birini tanıyacaqlar".

Həkim Sani Məhəmmədi evə dəvət etdi. Sənubər Məhəmmədi görən kimi aldı görək nə dedi:

*Tavar laçın kəklik ovlar,*
*Tülək tərlan daş axtarar.*
*Bizim eldə bir qayda var,*
*Bacını qardaş axtarar.*

Məhəmmədin gözləri doldu və belə dedi:

*Mərd igidlər bu dünyada,*
*Namus çəkər, ar axtarar.*
*Gözü taxta niyyət budur,*
*Ellərini var axtarar.*

Aldı Sənubər:
*Dərd olub həddən ziyada,*
*Bilməm kimə gedim dada.*
*Bayqu gəzər viranada,*
*Məskənini boş axtarar.*

Aldı Məhəmməd:
*İlqar üçün can nisaram,*
*Xain ilə yoxdu aram.*
*O nanəcib zatı haram,*
*Gen dünyanı dar axtarar.*

Aldı Sənubər:
*Sənubərəm, fələk mənə,*
*Dəydi acı külək mənə,*
*Nadir qurdu kələk mənə,*
*Məcgəz milçək leş axtarar.*

Aldı Məhəmməd:
*Məhəmmədə sənsən bacı,*
*Namərdin olma möhtacı.*
*İndi bildim o oğracı,*
*Xainlikdən kar axtarar*.

Söz tamama yetişdi. Məhəmməd həkim Sani ilə görüşüb Sənubəri götürüb evinə gəldi. Həlimə Sənubəri görcək fəryad çəkib dedi:

- Gözümün qanlısını niyə gətirdin?

Məhəmməd Nadiri çağırıb dedi:

- Hər kəsin etdiyi yaxşılıq öz qabağına çıxmamış olmaz, indi qulaq as, gör nə deyirəm:

*Satqın işlərindən utan, öl, barı,*
*Sən əl götür, hiylə, kələkdən, Nadir.*
*Atdın namusunu, satdın arını,*
*Heç zaman qorxmadın fələkdən, Nadir.*

*Ağ buluddan qara yağış bir damar,*
*Arı çəkər çiçəklərdən birdəmar.*
*Dost olarmı şeytan, çaran, bir də mar,*
*Bilgilən xainsən ürəkdən, Nadir.*

*Yaxşı adam el gözünə çıraqdı,*
*Məhəmməd də bilir el deyib haqdı.*
*Mərd igidlər yaman gündə yaraqdı,*
*Səni ayırmaram köpəkdən, Nadir.*

Məhəmməd sözünü qurtardı. O, Həliməyə cəza vermək, evindən qovmaq istəyirdi. Bunu Sənubər başa düşüb, aldı görək Məhəmmədə nə dedi:

*Xeyli vaxtdan bəri mənim,*
*Nələr çəkib başım, qardaş.*
*Pis günlərə düşən zaman,*
*Sən oldun sirdaşım, qardaş.*

*Ürəyimdə var bir zədə,*
*Açıb deyə bilməm nədə.*
*Vaxt dolandı, çatdı vədə,*
*Düşüb sənə işim, qardaş.*

*Saraldım dərdi-qəmlərdən,*
*Bar götürdüm sitəmlərdən.*
*Küsmə o ağlı kəmlərdən,*
*Ayağına düşüm, qardaş.*

*Sənubər, yox gəlib-gedən,*
*Bu yollar bağlanıb nədən?*
*İncimə sən Həlimədən,*
*Axar gözdən yaşım, qardaş.*

Söz tamam olduqdan sonra Sənubər Məhəmmədə dedi:

- Qardaş, Həliməni bağışla, onu Nadir yoldan çıxarmışdı.

Məhəmməd Sənubərin sözünü qəbul edib Həliməni bağışladı.

Bəli, Sənubər bir gün bulaq üstündə oturub gəlib-gedənlərə baxırdı. Bu vaxt iki yolçu Sənibəri görən kimi, onun duruşundan qərib olduğunu hiss elədilər. Onlardan biri Sənubərə dedi:

- Bacı, qərib adama oxşayırsan.

Sənubər dedi:

- Mən qərib deyiləm. Bəs siz hardansınız?

Onlar dedilər:

- Şəhrizarlıyıq.

Sənubər yaxşı bilirdi ki, Şəhrizara yol Ağdiyardan adlayıb gedir. Dedi:

- Qardaş, siz oxumaq, yazmaq bilənsinizsə, bir neçə sözüm var, deyim yazın. Aparıb Ağdiyarda bir adama verin.

Onlar dedilər:

- Adını desən verərik.

Aldı Sənubər:

*Aparın kağızı, qərib yolçular,*
*Şəmşir adlı bir insana yetirin.*
*Düşmən bilər, birdən sirrim açılar,*
*Çəkin onu, çox pünhana yetirin.*

*Adı məşhur eldi Ağdiyarın da,*
*Uca dağları var dörd kənarında.*
*Gedin sakit durun qapılarında,*

*Tapıb onu, bir bəhanə, yetirin.*

*Tala düzündədi ev binaları,*
*Qapısı açılır cənuba sarı,*
*Görüş bulağından bir az yuxarı,*
*Özünüzü siz o yana yetirin.*

Yolçular dedilər:
- Bacı, bəlkə özünü tapmadıq, qardaşlarının adını desənə.

Aldı Sənubər:

*Körpə qardaşları Əmir, Talıbdı,*
*Bilmirəm onların hansı qalıbdı.*
*Qara məni niyə gözdən salıbdı,*
*Sözlərimi dərd qanana yetirin.*

Sənubər sözünü qurtardı. Yolçular kağızı qatlayıb ciblərinə qoydular. Onlar gə-

lib Ağdiyardan keçən zaman, məktəb uşaqlarını görüb dedilər:

- Bizə Şəhrizarın yolunu göstərə bilərsinizmi?

Uşaqlar gülüşüb qaçdılar.

Bu vaxt Şəmşir onların yanına gəldi.

Onlar dedilər:

- Şəmşir adlı bir adam lazımdı, əgər mümkünsə, onu bizə göstər.

Şəmşir dedi:

- Elə mən həmin axtardığınız adamam. Nə demək istəyirsinizsə, buyurun.

Onlar məktubu verməzdən əvvəl dedilər:

- Biz Nurələm elindən keçəndə bir qıza rast gəldik. O, bizə bir məktub verib, özü də səndən başqa heç kimə verilməməsini xahiş etdi.

Məktubu Şəmşirə verdilər. Şəmşir oxuyub çox şad oldu. O, yolçulardan çox

razı qaldı, Şəhrizarın yolunu onlara göstərdi.

Şəmşirin Bəybulud adlı qoçaq bir yoldaşı var idi. Gedib yoldaşı Bəybuluda dedi:

- Bəybulud, amandı, Sənubərdən xəbər var, gəl bir yerdə gedək.

Bəybulud dedi:

- Canla-başla razıyam, gedək.

Dostlar elə həmin gün ata-analarından icazə alıb yola düşdülər. Bir qədər getmişdilər ki, birdən göy üzündə bir qatar durna gördülər.

Şəmşir aldı görək durnalara nə dedi:

*Bir mələk misallım itibdir çoxdan,*
*Siz də gedin baxa-baxa durnalar.*
*Bizə də bu yazı yazılıb haqqdan,*
*Qarşınıza xoş gün çıxa, durnalar.*

*Artıb ürəyimdə qəmin fərağı,*
*Qəlbimə çəkilib eşqimin dağı.*
*Dumanlı dağlara salım sorağı,*
*Oyanarmı qara çuxa, durnalar.*

*Ay gözəl durnalar, görsəniz yarı,*
*Dərdimi canana danışın barı.*
*Deyin unutmasın o düz ilqarı,*
*Qoymasın göz yaşım axa, durnalar.*

Onun ayrılığı neçə il oldu,
İndi gül yanağı saraldı, soldu.
Şəmşirin gözləri yaş ilə doldu,
Üzər dəryasında naxa, durnalar.

Şəmşir sözünü tamam etdi, yola düşdülər. Gəlib bir dağın ətəyində əkinçinin yanına çıxdılar. Əkinçinin adı Nasim idi.

Əkinçi Nasim Şəmşirdən xəbər aldı:

- Siz haradan gəlib, haraya gedirsiniz?

Şəmşir əkinçi Nasimdən Sənubəri soruşdu.

Əkinçi Nasim dedi:

- Qardaşım, sənin axtardığın itgini mən də axtaracağam.

Onlar əkinçi Nasimlə halal-hümmət edib yola düşdülər. Gəlib malyeməz sonsuz Səlimin çobanına rast gəldilər.

Bəybulud çobanı görəndə Şəmşirə dedi:

- Çobanlar həmişə çöldə olurlar, gəl bundan da xəbər alaq, bəlkə bir şey bilir.

Şəmşir razı qalıb, çobandan Sənubəri soruşdu:

- Çoban qardaş, sən Nurələm elini tanıyırsan?

Çoban cavab verdi:

- Mən Kərəməz kəndində malyeməz sonsuz Səlimin çobanıyam, ildə iyirmi qoyuna bir toğlu alıram. Mən Sənubəri-zadı tanımıram.

Şəmşirlə Bəybulud çobandan ayrıldılar, gəlib həmin malyeməz sonsuz Səlimə qonaq oldular. Şəmşirlə Bəybulud sonsuz Səlimdən heç bir şey öyrənə bilmədilər. Şəmşirin yadına Sənubər düşdü, dərdi cuşa gəldi, aldı görək nə dedi:

*Çal-çarpazdı yanır, sönməz,*
*Var sinəmdə dağım mənim.*
*Hanı Ağdiyar elimiz,*
*Görünmür ovlağım mənim.*

*Necə yorub məni təklik,*
*Kimsədən yoxdur köməklik.*
*Öz elimdə gözəl kəklik,*
*Olurdu qonağım mənim.*

Sonsuz Səlim dedi:

- Sən yüz gün danışsan da, başıma bir şey batmır.

Aldı Şəmşir:

*Sən əl vurma yaram qanar,*
*Cəsədim alışıb yanar.*
*Arif qanar mənası var,*
*Nədir danışmağım mənim?*

*Şəmşirəm, inan sözümə,*
*Dünya tar olur gözümə.*
*Sonsuz Səlim, öz-özümə,*
*Gəlir indi lağım mənim.*

Söz tamam oldu. Şəmşir sonsuz Səlimdən soruşdu:

- Sənin ürəyin kimə yanar, kimə rəhm edərsən?

Səlim dedi:

- Qışda mənim bir qara kürə qoyunum düşüb ölmüşdü, bilməmişəm, onun ətini qonşuluğumda Pənah adlı bir yoxsul vardı onun uşaqları aparıb, bir də bir aşıq gəldi kəndə, ona əlli qəpik vermişəm, elə mənim qəlbim bu iki şeyə yanır, başqa şeyə yanmır.

Şəmşir aldı görək bu münasibətlə malyeməzə nə dedi:

*Çox mal qazanıbsan həddindən artıq,*
*Yemədin qalacaq kimə, malyeməz?*
*Boğazın tikilib açılmır ağzın,*
*Batarsan möhnətə, qəmə, malyeməz.*

*Qızılın ilandı, gümüşün çayan,*
*Dolanar boynuna onlar bir zaman.*
*Yoxdu səndə nə etibar, nə iman,*
*Dünyada insanam demə, malyeməz.*

*Səni bir gün qucaqlayır dar məzar,*
*Şəmşirin sözünü saxla yadigar.*
*Yurdunda nə oğlun, nə də qızın var,*
*Varis olmaz ağlı kəmə, malyeməz.*

Sonsuz Səlim:

- Sənin bu hədyan sözünü eşitməyə vaxtım yoxdu. Mən sizin kimiləri görmək istəmirəm.

Şəmşir dedi:

- Səlim əmi, biz gedərgiyik, bir kəlmə söz də deyim.

Aldı Şəmşir:

*Bu dünyanın varı, malı-dövləti,*
*Hanı Süleymana qalmadı, getdi.*
*İskəndər axtardı abi-həyatı,*
*İçib bir kami-dil almadı, getdi.*

Sosuz Səlim dedi:

- Sən İskəndəri görübsən ki, ondan danışırsan?

Şəmşir dedi:

- Mən görməmişəm, ancaq tarix yazanlar belə xəbər verirlər:

*Nə Calub, nə Qalub, nə Cəmşid, nə Cəm,*
*Hatəmin qardaşı oldumu Hatəm,*
*Sənin kimi neçə milyon ağlı kəm,*
*Bu cahanda baqi olmadı, getdi.*

*Fikriniz düz deyil, dərdiniz təmiz,*
*Çərxin qərarına yaxşı baxın siz.*
*Dağyanusdan əsla qalmayıb bir iz,*
*Qülləsinin başı dolmadı, getdi.*

Sonsuz Səlim dedi:

- Sənin deməyindən belə çıxdı ki, elə mən var-dövlətimi sənə verim hə!?

Şəmşir dedi:

\- Sənin malın mənə lazım deyil, qulaq as dalısına:

*Nəmrud deyib mənəm bəhridə Allah,*
*Şəddat məzlumlara çəkdiririrmiş ah.*
*Firon da dəryada geyinib silah,*
*Dərdinə bir əlac almadı, getdi.*

*Gülər Şəmşir kimi qəlbi dağlılar,*
*Əriyər, nazilər qarnı yağlılar.*
*Qazanıb  yeməyən ağzı bağlılar,*
*Dünyadan  bir xəbər bilmədi, getdi.*

Sonsuz Səlimin acığı tutub dedi:

\- Mən sizi bir gecə qonaq saxladım, bu da mənim yaxşılığım ki, mənimlə ədavətə başlayırsan?

Bəybulud sonsuz Səlimə dedi:

- Biz sənin suyundan da bir içim içməmişik. Ancaq biz dediyimiz sözdən sən bir şey başa düşürsənmi?

Səlim dedi:

- Demək, indi də məni başadüşməz hesab edirsiniz, başa düşməyən siz özünüzsünüz.

Bu danışıqda qarabağlı Ələkbər gəlib bura çıxdı. O, Şəmşiri tanıyırdı. Ələkbər Şəmşirlə hal-xoş elədi. Şəmşir əhvalatı ona söylədi.

Ələkbər dedi:

- Axı, siz bura nə üçün gəlmişsiniz? Bura sizin yeriniz deyil. Durun bizə gedək.

Qarabağlı Ələkbər Şəmşirlə Bəybuludu götürüb evlərinə gəldi. Soruşdu:

- Sənubərin məktubu sizə haradan gəlmişdi?

Şəmşir dedi:

- Nurələm elindən gəlib.

Ələkbərgilin kəndindən Nurələmə getmək üçün gərək Xoşnişan mahalından keçəydin.

Ələkbər dedi:

- İndi durun gedək. Mənim Xoşnişanda bir həkim dostum var, elə ondan xəbər tutarıq.

Onlar yola rəvan olub, gəlib həkim Saninin evinə çıxdılar.

Həkim Sani soruşdu:

- Siz itiyi itmiş adama oxşayırsınız. Bəs bu oğlanlar kimdi?

Ələkbər cavab vermədən, aldı Şəmşir görək ona nə cavab verdi:

*Məhəbbət salıbdı məni bu hala,*
*Bir kimsə dərdimi bilməz, ay həkim.*
*Köməksizəm, tutan yoxdu nəzərdə,*
*Nə şad olub üzüm gülməz, ay həkim.*

*Nə edim ürəkdən çıxmadı xətər,*
*Axırda Məcnundan mən oldum betər.*
*Eli Ağdiyardı, adı Sənubər,*
*Şəmşirin səsinə gəlməz, ay həkim.*

Söz tamam olan kimi həkim Sani dedi:

- Oğlum, üç il bundan qabaq həmin qız bura gəlmişdi.

Həkim Sani əhvalatı olduğu kimi danışdı və dedi:

- Bəs sən onun dalınca nə üçün gec gəlmisən?

Belə deyəndə Şəmşir dedi:

*Qoymur məni dərdi-qəmim,*
*Ayaq tutub gəzim eldə.*
*Gözəl sevdim, itkin düşdü,*
*Adı qaldı bizim eldə.*

*Dolanıram biyabanı,*

*Səs-sorağın bilən hanı.*
*Bir görəydim o cananı,*
*Həsrət qalıb gözüm eldə.*

*Bağ-bostanın tağbatağdı,*
*Fəraqi sinəmdə dağdı.*
*Bilmirəm ölüb, ya sağdı,*
*Dərdə necə dözüm eldə.*

*Harayıma bir kəs yetmir,*
*Qohum-qardaş gəlib getmir.*
*Neçə ildi daha ötmür,*
*Nə söhbətim, sazım eldə.*

*Könlüm ondan intizardı,*
*Bu gərdişdə nələr vardı.*
*Şəmşir, bu bir yadigardır,*
*Yaz, oxunsun sözün eldə.*

Söz tamama yetdi. Həkim Sani dedi:

- Oğlum, bu qarabağlı Ələkbər qoçaq oğlandı, səni öz sevgilinə çatdırar. Ancaq sən də əsil-nəslini de görüm haralısan?

Aldı Şəmşir belə dedi:

*Əslim Miskinlidi, elim Ağdiyar,*
*Mənim üçün mehribandı vətənim.*
*Bu diyarda səndən qeyri kimim var,*
*Nə şirindi mənə candan vətənim.*

*Baxmadım dövlətin azı-çoxuna,*
*İnsaf deyil dosta düşmən toxuna.*
*Sinəm nişanədir hicran oxuna,*
*Bir dərdimə yüz dərmandı vətənim.*

*Atam Aşıq Qurban, anam türk qızı,*
*Üstümə Murovda səpiblər duzu.*
*Mənə köynək olub Buzluğun buzu,*
*Şəmşirəm, Ağdabandı(yoxsa Ağdiyar) vətənim.*

Elə bu sözdə həkim Sani dedi:

- O qızın etibarını mən çox yaxşı gördüm, o ölüncə ilqarından dönməz. Gedin Məhəmmədin yanına ola bilsin ki, həmin qızı bu günə kimi saxlamış olar. Əgər köməyin varsa, öz arzuna çata bilərsən.

Həkim Sani bu sözünə qarşı Şəmşir aldı görək nə dedi:

*Deyim dərdi, sən tanış ol yaxından,*
*Çoxdandı qəlbimə yara düşübdü.*
*Sevgi fəraqından, qəmin oxundan,*
*Sinəm üstə dərin yara düşübdü.*

*Hanı bu günümdə qardaşdan imdad,*
*Köməksizin qəlbi heç olarmı şad.*
*Vermiş xəbərini nə qohum, nə yad,*
*Leyli kimi bu dağlara düşübdü.*

*Şəmşir istər hasil ola diləyim,*
*Hamı arxam, elim olsun köməyim.*
*Gəzirəm tapılmır, hüri-mələyim,*
*Gözdən itib uzaqlara düşübdü.*

Söz tamam olan kimi həkim Sani dedi:

- Ələkbər, sən ovçu Məhəmməmədin elini tanıyırsan, gedin, mən də soraq alaram.

Şəmşir, Bəybulud və qarabağlı Ələkbər yola düşüb getməkdə olsunlar, sizə kimdən danışım, ovçu Məhəmməddən.

Bir müddətdən sonra ovçu Məhəmməd Sənubərə dedi:

- Bacı, mən əhd etmişdim ki, səni öz vətəninə aparam, bu gün gərək yol başlayaq.

Bu zaman Məhəmmədin oğlu Hafiz dedi:

- Ata Sənubəri mən aparacağam, çünki o mənə ana-bacı kimi olub.

Məhəmməd Hafizin sözündən keçə bilmədi, Sənubər ilə Hafizi yola saldı.

Onlar getməli olanda Sənubər fikir etdi ki, dünya işidir, yolda uşağa bir qəza üz verə bilər, gəl onu şirin dil ilə geri qaytar. Aldı Sənubər görək nə dedi:

*İtkin canım sənə qurban,*
*Hafiz, gəl bax mənə birdən.*
*Gəl sən qayıt bu yollardan,*
*Xəta dəyər sənə birdən.*

Hafiz başa düşüb aldı görək nə dedi:

*Sən bu sözü dedin nədən?*
*Nə dərd olsa mənə gəlsin.*
*Bir yol deyib Həlimədən,*
*Yüz min yara mənə gəlsin.*

Sənubər:
*Pənahlandım adınıza,*
*Yansam, xoşdu odunuza.*
*Sən uşaqsan, yadınıza*
*Düşər sənin anan birdən.*

Hafiz:
*Demirəm el-obasızam,*
*Nə də yurdsuz-yuvasızam.*
*Bilmirsənmi anasızam,*
*Dərdin mənə ana, dəysin.*

Sənubər:
*Cuşa gəldi canımda qan,*
*Ana adın çəkmə, aman.*
*İndi mənəm sənin anan,*
*Dərdin dəysin mənə birdən.*

Hafiz:

*İgidlik gedər biz ilə,*
*Ürəyimdə ildən-ilə.*
*Hər kim sənə atsa güllə,*
*Qoy gəlsin bu cana dəysin.*

Sənubər:
*Sirri səndən necə danım,*
*Rəqib kimi var düşmanım.*
*Sənubərəm, qəmli canım,*
*Gedər badi-fəna birdən.*

Hafiz:
*Sən Hafizə oldun ana,*
*Cəfa çəkdin qana-qana.*
*Gedib çatsaq Ağdabana(ağdiyar?),*
*Oduna pərvana dəysin.*

Söz tamam oldu, Sənubər dedi:

- Görürəm sən qayıtmaq istəmirsən. Atamın Teymur oğlu Mərd Mustafa adlı bir dostu var, axşam onun evində qalarıq.

Bəli, onlar gedib Teymur oğlu Mərd Mustafanın evində qonaq qaldılar. Sabahı günü getməli olanda Teymur oğlu dedi:

- Qızım, mən səndən xəbər almadım ki, haralısan, sən də demədin. Mənim evimə çox gələnlər olur, ancaq adlarını, haralı olduqlarını deyirlər, inciməsən, sən də deyərsən.

Aldı Sənubər görək nə dedi:

*Gecələr ah çəkib gündüz ağlıyan,*
*Var Leyli, Əslinin parəsi məndə.*
*Sinəm yaralıdı, tapılmır loğman,*
*Eşqin, məhəbbətin yarası məndə.*

Teymur oğlu dedi:

- Mən səndən elinizi xəbər aldım, sən isə eşq aşığı kimi başladın.

Aldı Sənubər:

*Bağban oldum gül yerinə qəm dərdim,*
*Alıb canım həm möhnətim, həm dərdim.*
*Bu günümdə hanı bilir kim dərdim?*
*Yoxdu həkimlərin çarəsi məndə.*

*Belə əhd eylədim düz ilqarınan,*
*Ömür başa vuran vəfadarınan.*
*Ürək qopub, uçub gedib yarınan,*
*Üzülüb qalıbdı parası məndə.*

Sənubər sözünü qurtaran kimi Mehdi bəyin qızı Mina xanım gəlib bu söhbətə çıxdı. Sənubərə diqqətlə baxıb dedi:

- Qızım, sən Hilalızərrin itkin düşən qızı Sənubər deyilsən?

Sənubərin gözləri doluxub, aldı Mina xanıma görək nə dedi:

*Bir vəfalı yar yolunda başı-candan keçmişəm,*
*Qohum-qardaş, el-obadan, xanimandan keçmişəm.*
*Ondan ayrı bu dünyada sağlığı mən neynirəm,*
*Qorxum yoxdu ölümümdən, çünki candan keçmişəm.*

*Sənan kimi yoldan çıxıb ərkanı tərk etmişəm,*
*Cadı-küpə nifrət edib duanı tərk etmişəm,*
*Qazılara nələt deyib, mollanı tərk etmişəm,*
*İblisləri yolda qoyub, şər-şeytandan keçmişəm.*

*Nə zamandı intizaram mən ana torpağına,*
*İnsafdımı yar yarının düşməyə sorağına.*
*Əsdi badi-xəzan eşq ömrünün yarpağına,*
*Sənubərəm, dumanlardan, qar, borandan keçmişəm.*

Mina xanım Sənubər adını eşidəndə dedi:

- Mustafa əmi, bu həmin mən deyən qızdı. Onun atası bizə çox qulluqçu olub. Mənim eşitdiyimə görə bunların kəndində bu bir oğlana aşiq olub, o da məktəbdə oxuyurmuş. Bu qız da məktəbə getmək istəyəndə molla onu yoxsulsan deyə qovub. Başqasına zor ilə nişan qoymaq istəyəndə bu da baş götürüb itib. Hələ bu günə kimi səddi-sorağı yox idi.

Belə dedikdə Sənubər ağladı. Mina xanım Sənubərin ağlamasına görə dedi:

- Niyə ağladın, elə mənim də dərdim çoxdu.

Aldı Mina xanım görək nə dedi:

*Sən ağladın qəlbim oldu virana,*
*Gözlərinin yaşı axdı, ağlama.*
*Bil ki, mənim nə atam var, nə anam,*
*Dəli dərdim səndən çoxdu, ağlama.*

*Mən ki, don geyərdim yaşıldan, aldan,*
*Yoxsulluq əl verib düşmüşəm haldan,*
*O vardan, o maldan cahi-cəlaldan,*
*Hanı bir nişanə yoxdu, ağlama.*

*Bu möhnət Minanı yandırır, yaxır,*
*Fələk hər insana bir təhər baxır.*
*Kimiyə əvvəldi, kimiyə axır,*
*Yaradanın rəhmi çoxdu, ağlama.*

Mina sözünü tamam edəndə Sənubər dedi:

- Bacı, indi mənim dərdimi lap artırdın.

Aldı Sənubər:
*Dərdsiz aşiq ağlayarmı,*
*Mənim dərdim var, ağlaram!*
*Namərdə bel bağlamışam,*
*Sinəm sızıldar, ağlaram!*

Aldı Mina xanım:
*Bacı, bir söz deyim sənə,*
*Olar qəlbin şad, ağlama!*
*Oyanar iqbalın yenə,*
*Taparsan imdad, ağlama!*

Aldı Sənubər:
*Düşmənim çox, dostum azdı,*
*Bu möhnətim qurtarmazdı.*

*Kim günümü belə yazdı,*
*Dərd çəkib azar, ağlaram!*

Aldı Mina xanım:
*Sözünü anladın bəli,*
*Yaxşıdı hər kəsin eli.*
*Dar günündə kömək Əli,*
*Olma xəcalət, ağlama!*

Aldı Sənubər:
*Dolanaram Leyli kimi,*
*Bəxtimdən gileyli kimi,*
*Sənubərin meyli kimi,*
*Tapmaz, ya tapar, ağlaram!*

Aldı Mina xanım:
*Mina xanım desin inan,*
*Dərdinə tapılar dərman.*
*Möhnətini elə pünhan,*
*Bilməsin xoryat, ağlaram!*

Sənubər və Mina xanım sözlərini qurtardılar. Bu vaxt Mərd Mustafa dedi:

- Mina xanım, sən ki bu qızı tanıyırsan, buna hörmət lazımdı.

Mərd Mustafa Sənubərlə Hafizi öz balaları kimi saxlamaqda olsun, indi sizə kimdən xəbər verim, Şəmşirdən, Bəybuluddan və qarabağlı Ələkbərdən.

Onlar gəlib ovçu Məhəmmədin evinə çıxdılar. Sənubərdən əhval soruşdular.

Məhəmməd dedi:

- Sizdən bir neçə gün qabaq oğlum Hafizlə onu Ağdiyar elinə yola saldım. Ancaq Sənubər əvvəlcə atasının dostu Teymur oğlu Mərd Mustafanın yanına getməli idi. Onun da evi İmarət mülkündədi.

Şəmşirlə Bəybulud qarabağlı Ələkbərlə görüşüb ayrıldılar. Bir qədər getdikdən sonra yolda məsləhət elədilər ki, hər

birimiz ayrı yol ilə getməliyik. Bəlkə birimizə rast gəldilər. Şəmşir Gülhəyat çaya tərəf yol başladı, Baybulud isə İmarət mülkünə gəlib Mustafanın evinə çıxdı.

Sənubər Bəybuludu tanımadı. Ancaq Bəybulud gördü ki, bu qızın adına Sənubər deyirlər.

Bəybulud qızdan xəbər aldı:

- Bacı, sən bu evədənsən, yoxsa qonaqsan?

Sənubər dedi:

- Qardaş, sənin səsin mənə dost səsi kimi gəlir.

Bəybulud dedi:

- Bacı,mən səni tanıya bilmədim. Məni bağışla. Deyəsən, bizim gəzdiyimiz elə sənsən. Biz iki yoldaş idik, o başqa yol ilə getdi, mən bu yol ilə gəldim.

Sənubər soruşdu:

- Bəs o biri yoldaşın kim idi?

Bəybulud dedi:

- O Şəmşir idi. Gülhəyat çayı ilə getdi.

Sənubər qorxdu ki, birdən bu adam Hidayətin adamı olar. O, fikrə getdi.

Bəybulud başa düşüb dedi:

- Sənubər bacı, belə görünür ki, sən məni Hidayətin adamı hesab etdin. Bu da Şəmşirə verdiyin nişanə, baxa bilərsən.

Bəybulud cibindən Sənubərin Şəmşirə nişanə üçün verdiyi üzüyü çıxarıb Sənubərə göstərdi. Sənubərin qəlbi sevindi.

Sənubər ondan soruşdu:

- Bəs Hidayət necə oldu?

Bəybulud Sənubərin Hidayəti soruşmasından şübhələnib dedi:

- Olmaya Şəmşiri unutmaq istəyirsən?

Bu söz elə bil Sənubərin ürəyini qılınc kimi parçaladı. Bəybulud baxdı ki, sözü

ona toxunmuşdur. Ondan üzr istədi. Sənubərin könlün aldı.

Sənubər Mustafadan icazə aldı, Mina xanım ilə vidalaşıb Hafiz və Bəybuludla yola düşdü. Bir qədər gəlmişdilər ki, Bəybulud öz-özünə dedi: “Bu bir yoxsul qızı ola, özü də bu etibarda, gəl bunu bir sına”.

Bəybulud dedi:

- Sənubər, bu qədər qürbət ellərdə gəzdin, heç səni sevən olmadımı?

Cavabında Sənubər aldı gərək nə dedi:

*Namərdə sığınıb arxalanmadım,*
*Şahmarın qoynunda yata bilmədim.*
*Məhəbbət eşqilə çöllərə düşdüm,*
*Namusu, qeyrəti sata bilmədim.*

*Qaçdığım qəzaya gəldim yetirdim,*

*Sağ əlimdən tərlanımı itirdim.*
*İlqar üçün xoryat sözü götürdüm,*
*Möhnətin yükünü ata bilmədim.*

*Sənubər həsrətdi ana-ataya,*
*Bu cavan ömrümü yetirdim zaya.*
*Könlümün ilk ovu uçdu havaya,*
*Yüyürdüm, dalınca çata bilmədim.*

Sənubər razı qalmayıb, dübarə dedi:

*Kim inansın doğru deyib danışam,*
*Bilinməz bir dərdim var, gəzirəm mən.*
*Hələ ilqarımı unutmamışam,*
*Namus axtarıram, ar gəzirəm mən.*

*Şər atlansa çapar, atı yorular,*
*Axan sular ha bulansa durular.*
*Böhtanın zənciri çox tez qırılar,*
*Eləyib aləmə car, gəzirəm mən.*

Bir qədər getdikdən sonra Sənubər dedi:

- Atam oğlu Bəybulud, Hafizin atası mənim əziz qardaşımdır. Birdən onun başına bir qəzayi-qədər gələr, olarmı onu aparıb sahibinə verək.

Bəybulud dedi:

- Mən Şəmşirlə Gülhəyat çayına vəd vermişəm, birdən gəlib bizi burada tapmaz.

Sənubər dedi:

- Eybi yoxdur, əgər onda əsl məhəbbət varsa, qoy o da məni gəzsin.

Onlar razılaşıb Hafizi atasının yanına gətirdilər. Məhəmməd onları görüb çox şad oldu. Məhəmməd elə bildi ki, Sənubər öz mətləbinə çatıb.

- Ellərinizdə nə var, nə yox? – deyəndə, Sənubər belə cavab verdi:

- Qardaş, mən hələ Şəmşirlə görüşməmişəm. Fikrini dağıtma.

- Bacı, olmaz ki, sən ondan birdəfəlik üz döndərəsən. Axı, nə qədər əziyyət çəkmək olar?

Sənubər dedi:

- Qardaş, mən ölməyə razıyam, üz döndərməyə yox. Aldı görək Məhəmmədə nə dedi:

*Səhər günəşilə sinməyən bir kəs,*
*Gün batsa kölgədə sinər, inanma.*
*Leyli, Leyli deyib dağlara düşən,*
*Məcnun ilqarından dönər, inanma.*

*İgid sonu gözlər, köhlən qabağı,*
*Gör heç sönginərmi eşqin ocağı.*
*Özündən yanarsa baxtın çırağı,*
*Əsərsə yüz külək sönər, inanma.*

*Çoxdu bu dünyada var sevən insan,*
*Bağça sevən insan, bar sevən insan.*
*Sənubər tək doğru yar sevən insan,*
*Cəfadan ovsanıb dinər, inanma.*

Sənubərin sözünə Məhəmməd əhsən dedi. Onlar Hafizi atasına verib vətənə qayıtmaqda oldular. Gəlib Laləli yurd dağının yastana bir yerində əyləşdilər. Dağlara baxan Sənubərin ürəyi dərdə gəlib Murov dağı yadına düşdü, aldı görək nə dedi:

*Uca başın qar örtülü,*
*Ayağı göy meşə, dağlar,*
*Bəzənirsən çəməngülə,*
*Olursan tamaşa, dağlar.*

*Qərib qürbət eli gəzdim,*
*Göz yaşımdan namə yazdım,*
*Hər kim desə inanmazdım,*

*Yolum sənə düşə, dağlar.*

*Sən xəstəyə saxla qarı,*
*Baxar gözü sənə sarı.*
*Unutmasa yar ilqarı,*
*Dönər könlüm quşa, dağlar.*

*Yarpızdıdı bulaqların,*
*Göy çəməndi yaylaqların,*
*Çiçəklidi ovlaqların,*
*Sürmə çəkir qaşa, dağlar.*

*Quru bağa bar gələydi,*
*Mərd olana var gələydi,*
*Bu günümdə yar gələydi,*
*Sənubərlə qoşa dağlar.*

Sənubər sözünü tamam edib Bəybuluda dedi:

- Bəlkə, mən gedib Ağdiyara çıxmadım.

Bəybulud dedi:

- Bacı, niyə darıxırsan, üç-dörd günə gedib Ağdiyara çatarıq.

Sənubər keçəcək günlərin birini yüz günlə bərabər bilirdi; odur ki, Bəybuluddan soruşdu:

- Sən doğrusunu mənə de görüm, əgər Şəmşir səninlə gəlmişdisə - niyə səndən ayrılırdı?

Bəybulud dedi:

- Hörmətli bacı, sənin qardaşın Məhəmməd bizə demişdi ki, hərəniz bir yol ilə gedin. Sənubər bəlkə birinizə rast gələr.

Bəybulud Sənubəri sakitləşdirmək üçün dedi:

- Bu qədər cövri-cəfaya dözmüş adamın təzədən ümidsizliyi yaramaz.

Bu vaxt aldı Sənubər görək nə dedi:

*Səyyad baxtım yeni qurub torunu,*
*Tutmaq istər ya bir tərlan, ya sona.*
*Bir misaldı tənəzzüldə tərəqqi,*
*Düşməlidi ya əzələ, ya sona.*

*Gözüm yaşı qətrə-qətrə a damı,*
*Məndə yoxdu, dəryada var adamı,*
*Ha çəkəsən kefi, eyşi, a dəmi,*
*Axır gərdiş tutmalıdı yas ona.*

*Sənubər möhnətdən çəkib, odu var,*
*Məni dərdə salan sevgim odu, var.*
*Sinəsində mən sənəmin odu var,*
*Kim bilir ki, o hey yana, ya sənə.*

Sənubər sözünü qurtardı, yola düşdülər, gedib Ağdiyarın kənarında olan daş novlu bulağın başında düşdülər. Bir az

sakit olmuşdular ki, elə bu zaman Yelli yaldan bir dəstə atlının gəlməsini gördülər. Atlılar yaxınlaşdıqda Sənubər baxıb dedi:

- Onun biri mənim qardaşım İsfəndiyardı. Biri isə Hidayətdi. Bəs onlar bizi tanısa nə edəcəyik?

Bəybulud dedi:

- Qorxma, bir bəhanə edərik.

Onlar gəlib Bəybuludu tanıdılar. Sənubər isə üzünü bürüdüyündən onu tanımadılar.

Hidayət şübhələnib dedi:

- Bəybulud, bu qız kimdi?

Bəybulud dedi:

- Mən tanımıram, özündən xəbər al.

Hidayət Sənubərə: - sən kimsən? – dedikdə, Sənubər ona cavab vermədi.

Hidayət Bəybuluda dedi:

- Onu haradan gətirmisən?

Sənubərin qardaşı İsfəndiyar dedi:

- Bu qızın duruşu mənim itkin düşən bacıma oxşayır.

Hidayət dedi:

- Deyəsən, bu sənin bacın Sənubərdi, elə o evdə olan zaman da məni görəndə üzünü gizlətdi.

Bəybulud dedi:

- Adam adama oxşayar da.

Hidayətlə İsfəndiyar çıxıb getdilər.

Elə bu zaman Sənubərin yaxın qonşusu Güllər də gəlib çıxdı. Sənubəri görən kimi hər iki qonşu qızı qol-boyun oldular.

Güllər Sənubərin anasına şadlıq xəbəri vermək üçün getmək istəyəndə Sənubər onu dayandırıb görək nə dedi:

*Gəl sən mənim gəldiyimi,*
*Gedib demə bacım mənim.*

*Yağı düşmənlər bilməsin,*
*Sən ol sərdə tacım mənim.*

Aldı Güllər nə dedi:
*Ay mənim istəkli pirim,*
*Qəmli könlüm güldü deyim,*
*Qoy ananı sevindirim,*
*Sənubərin gəldi deyim.*

Sənubər:
*Mənim dərdim çoxdu inan,*
*Sənsən istəkli mehriban,*
*Məni güldürsən bu zaman,*
*Oldun kəbəm, hacım mənim.*

Güllər:
*Hanı sən dərdə saldığın,*
*Varmı sorağın aldığın,*
*Oldumu bir ucaldığın,*
*Söylə nələr oldu deyim.*

Sənubər:
*Gəzdim dolandım dayazı,*
*Bir kəsə etmədim nazı.*
*Sənubərin bahar yazı,*
*Gəlmədi mehracım mənim.*

Güllər:
*Güllər sənə desin gözəl,*
*Bağlar kimi olma xəzəl,*
*Doğru sözlü axır, əzzəl,*
*Sənin dərdin doldu deyim.*

Bu iki qonşu qızı sözlərini tamam etdilər. Güllər özünü Sənubərin anasının yanına yetirib onu muştuluqladı.

Sənubər də gəlib anası ilə görüşüb öpüşdü.

Anası xəbər aldı:

- Qızım, sən bu uzun müddətdə çöllərdə oldun, səndən bir soraq ala bilmədim, indi gəlib çıxıbsan, bəs sənin sorağını alan qonşumuzun oğlu haradadır ki, Bəybulud gəlib o, gəlib çıxmayıb?

Sənubər dedi:

- Ana, heç mən özüm də onu görməmişəm. O Bəybuluddan ayrı düşüb.

Onlar burada qalsınlar, indi sizə kimdən xəbər verim, Şəmşirdən. Şəmşir Bəybuluddan ayrılandan sonra gəlib Gülhəyat çayına çatdı, bir neçə gün gözlədi. Axırda əlacsız qalıb İmarət mülkünə gəldi. Orada Mina xanımın əmisi qızı Bulqar ilə görüşüb əhval tutdu ki, Sənubər Bəybuludla Ağdiyara gedib.

Şəmşir tək-tənha gəlib Səngən qalasında aşıq məclisinə çıxdı. Aşıqları görəndə çox sevindi.

Onların böyüyü Aşıq Soltan dedi:

- Sənin əgər aşıqlıqdan xəbərin varsa, bir neçə sözüm var, ona cavab ver.

Şəmşir razı oldu.

Aldı Soltan:
*Səndən xəbər alım, ay gəzən aşıq,*
*Söylə görüm, üç yüz altmış beş nədi?*
*On iki qardaşdı, qırx səkkiz otaq,*
*Dolu nədi, yarım nədi, boş nədi?*

Aldı Şəmşir:
*Verim cavabını, ay aşıq Soltan,*
*Bir ildə gün üç yüz altmış beş olur.*
*Məhsulat bol olur yay, payız, hər an,*
*Qışda yarım, yayda dolu boş olur.*

Aldı Soltan:
*Birdən bar gətirir, birdən tökülür,*
*Birdən çadır qurur, birdən sökülür,*
*Birdən səhv olur, birdən bükülür,*

*Onu bilən idrak nədi, huş nədi.*

Aldı Şəmşir:
*Qış dağı qar alır, əriyir yazda,*
*Sularda buz donur soyuq ayazda,*
*Ürək hərdən büküləndə az-az da,*
*Onu bilən fəhm, kamal huş olur.*

Aldı Soltan:
*Ulduzlar görünür bilinmir sanı,*
*Onun bağçasının kimdi bağbanı?*
*Düzgün başa salın Aşıq Soltanı,*
*Gərdişində bahar nədi, qış nədi?*

Aldı Şəmşir:
*Ulduzlar görünür, bilinmir sanı,*
*Təbiətdə o bağçanın bağbanı.*
*Şəmşir düşündürsün Aşıq Soltanı,*
*İldə bir yol bahar olur, qış olur.*

Şəmşirə afərin dedilər. Aşıqlar da baxdılar ki, o zor aşıqdı, bir söz demədilər.

Şəmşir xüdahafizləşib yola düzəldi, gəlib Hacırza kahasına Qədim adlı bir adamın evində qonaq qaldı.

Qədim dedi:

- Quzunun anası mələməsə idi, birini kəsərdim.

Şəmşir dedi:

- Səxavətinə görə çox sağ ol, ancaq qulaq as.

Qədim dedi:

- Aşıq, isti-isti birini de, qulaq asaq.

*Xəbis, namərd adam dərdə dayanmaz,*
*Dar gündə yanından qaçar, əylənməz.*
*Səxasız insanda, qonaqsız evdə,*
*Mal-dövlət çoxalmaz, nə var əylənməz?*

*İgidin əsli var, gözəlin zatı,*
*Nakəsin boynuna bağlansın çatı.*
*Mərdlər üçün olsa halal baratı,*
*Çırağın özündən yanar, əylənməz.*

*Nə lazım nadana bildirmək sirri,*
*Qalmaz xəyalında min sözün biri.*
*Xain canavardan kim görüb sürü,*
*Hər ovçu bir yerdə qırar, əylənməz.*

Varlı Qədim dedi:

- Aman o canavarın əlindən, gecələr qoymur yuxu yataq.

Söz tamam olandan sonra Şəmşir yola rəvan oldu. Bir dağın döşündə bir daşın başında oturdu. Birdən onun qulağına ağdiyarlı əmisi ovçu Qaraşın səsi gəldi:

- Adə, sən kimsən orada?

Şəmşir əmisinin səsini tanıdı.

Ovçu Qaraş Şəmşirə yaxınlaşıb onu bağrına basdı. Öpüşdülər, görüşdülər, bir-birindən əhval-pürsan oldular.

Ovçu Qaraş qolçağından çörək çıxarıb ortaya qoydu. Hərə bir az taam edəndən sonra söhbətə başladılar. Birdən iki balalı maral otlaya-otlaya onların yanına çıxdı. Ovçu Qaraş marallara güllə atdı. Marallar qaçdı. Balalları isə mələşməyə başladı. Şəmşir bunu görəndə aldı görək ovçu Qaraşa nə dedi:

*Sənin tüfənginin güllə səsindən,*
*Titrəşir bu ucqar dağlar, əmi can.*
*Ananın qanını döndərdin çaya,*
*Balalar mələşib ağlar, əmi can.*

*Çox ovçular töküb qanı bu dağda,*
*Gülləsinin var nişanı bu dağda,*
*Mənim atam Qurban hanı bu dağda,*

*Kimə qalıb o ovlaqlar, əmi can?*

*Şəmşir dedi vurma dərdli maralı,*
*Qorxusundan canda qanı qaralı.*
*Bəzən elə olur qaçır yaralı,*
*O yaranı de kim bağlar, əmi can?*

Bu zaman ovçu Bayram da gəlib çıxdı, hal-xoşdan sonra Bayram dedi:

- Atan xəstə idi, indi yaxşıdı. Sənubərlə Bəybulud bir neçə gün bundan qabaq sağ-salamat gəlib çıxdılar.

Şəmşir atasının xəstə olmasını eşidəndə sarsıldı, çünki o, atasını çox istəyirdi. Ona görə aldı görək nə dedi:

*Zimistandan çıxan təzə bülbüləm,*
*Yeni nobaharı görməsəm olmaz.*
*Sanki bağ salmışam min zəhmət ilə,*
*Butağında barı görməsəm olmaz.*

*Onunla şirindi ağzımın tamı,*
*Heyif ki, doyunca almadım kamı.*
*Ziyarət etməyi böyük atamı,*
*Kamil sənətkarı görməsəm olmaz.*

Ovçu Qaraş dedi:

- Oğlum, sənin atan ilə mən bu dağlarda çox gəzmişəm. Bir neçə kəlmə bu dağlara de, gedək.

Aldı Şəmşir:

*Yaranmışa ölüm haxdı dünyada,*
*Gəlmişəm səninlə görüşüm, dağlar.*
*İndi qız-gəlinlər oynamaqdadı,*
*Qoy mən də xeyrinə qarışım dağlar.*

*Qayadan kəkliyin gəlir avazı,*
*Elə bil dillənir aşığın sazı.*

*Bir söz deyim əgər qalarsan razı,*
*İzin ver əhvalın soruşum, dağlar.*

*Eşq əlindən xəzan kimi əsən var,*
*Umudunu yar yolundan kəsən var.*
*İndi məndən inciyən var, küsən var,*
*Gedim onlar ilə barışım, dağlar.*

*Adın çox çəkilir söz qatarında,*
*Dumanlar oynaşır bürcü barında.*
*Çiçəkli köksünün cığırlarında,*
*Az olmadı yeriş-yürüşüm, dağlar.*

*Quş kimi bu dağdan uçub gedirəm,*
*Sərin sularından içib gedirəm,*
*Şəmşirəm, demirəm köçüb gedirəm,*
*Kamıma çatmamış var işim, dağlar.*

Söz tamam oldu, onlar gəlib Ağdiyara çatdılar, atası ilə görüşdü, onun sağaldığı-

nı görcək çox şad oldu. Sonra Şəmşir Sənubərin yanına gəldi. Onlar bir-birini görən kimi, bihuş oldular. Onları özlərinə gətirdilər.

Sənubər uca dağlara və kəndinin gözəlliyinə baxıb nə dedi, Şəmşir ona cavab verib nə verdi:

*Hər zülmü cəfaya, dərdi-möhnətə,*
*Döz sevgilim, döz, başına dolanım.*
*Məni salar yada, gələr qeyrətə,*
*Çox demişəm düz, başına dolanım.*

Aldı Şəmşir:

*Hanı bir insafı, mürvəti olan?*
*Haqdan ümid gəz, başına dolanım.*
*Mərdin ətəyindən tutmaqdan qeyri,*
*Yoxdu başqa söz, başına dolanım.*

Aldı Sənubər:
*Möhtac olur namərd, quldur, yolkəsən,*
*Hansı namussuza deyiblər əhsən.*
*Zəhmətindən halal barat istə sən,*
*Dolan doğru, düz, başına dolanım.*

Aldı Şəmşir:
*Qeyrət, namuslu ol obada, kənddə,*
*Mənim tək xidmət et ellərə sən də.*
*Şeytan səni sala bilməz kəməndə,*
*Qaç, sən ondan tez, başına dolanım.*

Aldı Sənubər:
*Həmişə yan füqəralar halına,*
*Rəhm et Sənubər tək ayaqyalına,*
*Göz tikmə özgəyə, yoxsul malına,*
*Əl zəhmətin gəz, başına dolanım.*

Aldı Şəmşir:
*Bağlı qapıların gələr açarı,*

*Murada yetirər hər sənətkarı,*
*Şəmşirin sözünə açar bazarı,*
*Salar şeirim iz, başına dolanım.*

Şəmşir Sənubərin üzünə heyrətlə baxdı. Təbi cuşa gəldi. Aldı görək nə dedi:

*İsmin hərifində ay qaşı kaman,*
*Hərasən olmuşam ikisinə mən.*
*İmlasında əlif-nuna vurulan,*
*Adını çalmıram iki sinə mən.*

*Ara yoxdu kitablarda miməsan,*
*Əlif-nundu sat əlində mim asan,*
*Oxuduqca aşikardı mim asan,*
*Çarpaz dağlar gördüm iki sinə mən.*

*Şəmşir gül becərdi, nə dərdi qaldı,*
*Çarxın sarayında nə dərdi qaldı.*
*De görüm, o kəsin nə dərdi qaldı?*

*O bal ləblərinin ikisin əmən.*

Söz tamam oldu. Sənubər Şəmşirdən incimişdi, ondan ayrılıb getmək istəyəndə Şəmşirin qəlbi dərdə gəlib aldı görək dübarə nə dedi, Sənubər ona nə cavab verdi:

*Mərd igidlər səxasından bəllidi,*
*İstər yesin arpa, pənir, yağ, darı.*
*Kim nə bilir ömrü yüzdü, əllidi,*
*Çoxlar deyib bu dünyaya ya darı.*

Aldı Sənubər cavabında görək nə dedi:

*Mən sənə can dedim, sən də mənə can,*
*Bildim məndən soyuqlaşmaz o xara.*
*Mənəm bu bağçanı bəsləyən bağban,*
*Cəfa çəkdim, qismət oldu o xara.*

Aldı Şəmşir:
*Gəl qoy məni qəm oxuna, şana sən,*
*Heç baxmadın nə şövkətə, şana sən,*
*Gəl keşik çək o pətəyə, şana sən,*
*Qoyma qonsun qapımıza yad arı.*

Aldı Sənubər:
*Çal mismarı xanəmizdə polada,*
*Mərd cibində bəzək verər pul ada,*
*Su verərsən daşdan keçər polada,*
*Boş dəmiri döymə, gəlməz oxara.*

Aldı Şəmşir:
*Bu Şəmşirdən döndürməsin o da üz,*
*Desin mən süd gölündə o da üz,*
*Canın salar el uğrunda oda, üz,*
*Əgər olsa namus, qeyrət, ya arı.*

Aldı Sənubər:

*Od salarsan quru yanar yaş ilə,*
*Sənubərin gözü dolub yaş ilə,*
*Sağ bədənə ya ipək gey, ya şilə,*
*Xəstə çün badə dəyməz o xara.*

Söz tamam olub, Sənubərin belə dərdli sözlərinə qarşı aldı Şəmşir dedi:

*Bağ becərdim allı-güllü çiçəkli,*
*İnsaf deyil yarpağını yad üzə.*
*Hava bəd əsməsin qarlı, küləkli,*
*Qatarımı ya dağıda, ya düzə.*

*Çox sevirəm saz simində mən zili,*
*Ümidvaram, tez taparam mən zili.*
*Nabələdlər çətin kəsər mənzili,*
*Yolu düşər dağa, daşa, ya düzə.*

*Qış dolansın Şəmşir üçün ara yaz,*

*Göy üzündə ara bulud, ara yaz.*
*Ədalətsən, bu dərdini ara yaz,*
*Yüz yalvarsan soyux baxar yad üzə.*

Hidayət Sənubərin gəlib çıxdığını və Şəmşirin yanında olduğunu bildi. Tez gedib Mahmud qazıya şikayət elədi.

- Şəmşir mənim nişanlımı aldadıb, özünə ram edib. Bu dində ziddi. Başına dönüm qazı ağa, onun cəzasını ver.

Qazı o saat Şəmşiri çağırıb dedi:

- Sənin nə ixtiyarın var ki, xalqın nişanlısını yoldan çıxardırsan. Səni bu saat dara çəkdirərəm.

Şəmşir aldı görək qazıya nə dedi:

*Əzəl ibtidadan bəli deyəndən,*
*Yolundan çıxarıb insanı qazı.*
*Millətlər yaranıb xalq olan gündən,*
*Qatır o zamandan aranı qazı.*

*Beş söz deyər dördü hədyan, biri şər,*
*Elin arasına salar kin-kədər.*
*Yalan nöqsan söylədiniz nə dəqər,*
*Aləmi çalxaladı ruhani qazı.*

*Elə ki kəməndə saldınız bizi,*
*Bu qurğunu qurub hiyləbaz özü.*
*Xəstələrə deyir cin tutub sizi,*
*Özünə dost tutur şeytanı qazı.*

*Gəlin tapaq günahkarı bu işdə,*
*İman yoxdu əfəndidə, keşişdə.*
*Hanı o dev, hanı o cin, fəriştə.*
*Nahaqdan danışır yalanı qazı.*

*Ancaq pul almaqdı mollanın dərdi,*
*Bacarsa dünyanı talan edərdi.*
*Zökəm düşənlərə deyir nəzərdi,*
*Tumova da yazır davanı qazı.*

*Qulaq ver, sözümdə məna dərindi,*
*Kimdi görkəzənlər bizə zor indi.*
*Quranın qanunu dirilərindi,*
*Ölənə oxuyur Quranı qazı.*

Mahmud qazı dedi:

- İndi mən sənə dəymirəm, sonra bilərsən.

Aldı Şəmşir:

*Şəmşirin haqqı var düz deyib sözü,*
*Baxsın ədalətli bir hakim gözü.*
*Haqq özü qəlbinə oxşadıb sözü,*
*Mən sənə demirəm böhtanı, qazı.*

Şəmşir sözünün qurtaran kimi Mahmud qazının yaxın dostu Mürsəl Əfəndi qazının tərəfdarı olub Şəmşiri təkləmək

istədi. Şəmşir Mürsəl Əfəndiyə işin doğrusunu danışdısa da, sözünü eşitmədi. Ona görə Mürsəl Əfəndiyə aldı görək nə dedi:

*Əfəndim, yolundan çıxma dişqara,*
*Namərd dəmir şişə taxılıb ölsün.*
*Halaldan tapmışıq bil ki, bu varı,*
*Xanlar qoy yanıb-yaxılıb ölsün.*

*Malyeməz istəyir inad yeridə,*
*Təhri qoyun özü qurddur dəridə.*
*O qəlbi dar qalmalıdı geridə,*
*Üzülsün qonşudan, üzülüb ölsün.*

*Ətə çatmayanda bir muşun (pişik)əli,*
*Qan sormasa zəli tez olar dəli.*
*Olarmı şeytanın düzgün əməli,*
*Lənət torbasına söxulub ölsün.*

*Ya hiyləgər adam, ya da göbələk,*

*Əlindən qaç qurtar, üzündən əl çək,*
*Satqını, alçağı quru çinar tək,*
*Daş kimi yerində çaxılıb ölsün.*

*Şəmşirəm, obanı, eli sevirəm,*
*Səadət baxtımdan alıram ənam.*
*Nə həsrət aparır alçaq, ağlı kəm,*
*Ürəyi çatlasın, sıxılıb ölsün.*

Söz tamam olan kimi Mahmud qazının, Əfəndinin tapşırığı ilə Şəmşiri tutub bir dama saldılar. O, damda qalmaqda olsun, eşit Qapanlı mahalında Şəmşirin Mədət Məhəmməd oğlu adlı bir dostundan. O, Şəmşirin tutulmasını eşitdi. Gəlib damın bacasını açdı. Şəmşiri səslədi. Şəmşir Mədəti səsindən tanıyıb aldı görək nə dedi:

*Mədət, açdın pəncərəni,*

*Aldıq səhər küləyini.*
*Müşküllərə verdi barat,*
*Qanadının lələyini.*

*Pəncərədən saldın işıq,*
*Nə gözəldi bu yaraşıq.*
*Zindanlarda qalan aşıq,*
*Mərddən istər diləyini.*

*Bu gün səni saldım yada,*
*Nə tez yetişdin imdada.*
*Görüm var ol bu dünyada,*
*Verdin könül istəyini.*

*Hər gününə, hər ayına,*
*Qəmlər qonmaz sarayına.*
*Gəldin Şəmşir harayına,*
*Gördüm dostun köməyini.*

Şəmşir sözünü qurtardı.

Mədət dedi:

- Mən necə edim ki, səni buradan qurtarım.

Şəmşir cavabında dedi:

- Sən məni buradan necə qurtara bilərsən? Sabah Mahmud qazı mənə divan tutacaq, gəlib tamaşa edərsən.

Elə bu zaman yüzbaşı Sarı Şəmil başının dəstəsi ilə gəlib onlara divan tutmaq istəyəndə Şəmşir dedi:

- Yüzbaşı, olarmı sizə bir söz deyim, sonra cavablandırarsan.

Sarı Şəmil elə bildi ki, Şəmşir ona yalvaracaq, icazə verdi.

Aldı Şəmşir:

*Elmin dəftərində çəkilmir adın,*
*Əyləşibsən tərlan quş yuvasında.*
*Şahbaz olmaz sardan, ala qarğadan,*

*Dolanma laçının boş yuvasında.*

Sarı yüzbaşı laçın adı çəkiləndə elə bildi ki, onun ev yoldaşından danışılır. Gülüb dedi:

- Bu nə bilir ki, mənim xanımımın adı Laçındı?

Aldı Şəmşir:

*Çiçək almaq qışda qara yaraşmaz,*
*Qızıl gülün rəngi xara yaraşmaz,*
*Şikar sağsağana, sara yaraşmaz,*
*Gəzmə qarçıqayın daş, yuvasında.*

*Nə durubsan hazır nemət nam üstə,*
*Xalqın əli yıxar səni yan üstə.*
*Sızıldasan axır quru şan üstə,*
*Məkkəz milçəklərin boş yuvasında.*

*Sənin tək çoxları getdi dünyadan,*
*Sən hələ qafilsən, ay alçaq nadan.*
*Vaxt olar qalarsan səri sərgərdan,*
*Donub buz olarsan quş yuvasında.*

Bu sözə Mədət güldü. Sarı yüzbaşı Mədətə bir neçə tatar vurdu. Bu hala Şəmşirin halı tab gətirməyib dedi:

*Soyub o yoxsula vurma şallağı,*
*Şəmşirin qəlbinə çəkmə bu dağı.*
*Belə taraqqanın nəsdi qabağı,*
*Qal qəza-qədrinin çaş yuvasında.*

Bu sözdən sonra Mahmud qazı dedi:
- Bunun cəzası çox olmalıdı.

Şəmşir dedi:

*Bəhram-Gura, Nadir şaha qalmadı,*

*İskəndərə, Süleymana bu dünya.*
*Qoşunlu Fironlu çarxın fərmanı,*
*Qərq elədi bir ümmana bu dünya.*

Bu halda qarabağlı Ələkbər gəlib bu məclisə çıxdı. İşdən xəbərdar olub, sonu gözləməyə başladı:

*Dağa gül ələdib iz axtaranlar,*
*Görünmür birisi də, hanı onlar?*
*Adlarına təbil, cəngivuranlar,*
*Qoymaz ondan təknişana bu dünya.*

*Şəmşir bu əhvalı bilir ürəkdən,*
*Xəbərdaram bütün hiylə, kələkdən.*
*Əzilib un olur, keçir ələkdən,*
*Düzüb zülmükarı sana bu dünya.*

Söz tamam olan kimi qazı dedi:
- Bunların cəzasını vermək lazımdı!

Bu vaxt qarabağlı Ələkbər və qapanlı Mədət birləşib Şəmşiri qaranlıq damdan çıxartdılar. Soruşdular:

- Səni nə üçün tutublar?

Şəmşir belə cavab verdi:

*Haqqı, ədaləti gəl unutma sən,*
*Sözün doğrusunu bizdən xəbər al.*
*Ev sahibi odur, qonaq olan mən,*
*Nə tutmuşuq malyeməzdən xəbər al.*

*Bunlar yalqız görüb iki qardaşı,*
*Əlbir olub Mahmud qazı, yüzbaşı.*
*Artdı gözümüzün car oldu yaşı,*
*Əyriyə inanma, düzdən xəbər al.*

Qarabağlı Ələkbər dedi:

- Bəs sən özün haradansan? Bura nə iş üçün gəlmisən?

*Bizə düşmən olub qazı, Əfəndi,*
*Şəmşiri bənd edib hiyləsi fəndi.*
*Bunlar talayırlar obanı kəndi,*
*Ara, axtar, kəndimizdən xəbər al.*

Söz tamam olandan sonra qarabağlı Ələkbər üzünü qazıya, Əfəndiyə tutub dedi:

- İnsanı günahsız yerə incitmək düz deyil. Siz onları nə üçün incidirsiniz?

Şəmşir əhvalatı olduğu kimi Ələkbərə danışdı və dedi:

- Mən onu sevirəm, o da məni. Zalımlar bizi bir-birimizdən ayırırlar. Qardaş, bizə kömək elə. Sənubər Hidayətin nişanlısı deyil.

Mürsəl Əfəndi dedi:

- Mən Şəmşirə bir bağlama deyəcəyən. Aça bilsə buraxarıq gedər. Aça bilməsə, Sənubərin üzünü görə bilməz.

Aldı Mürsəl Əfəndi:

*Bir bədən gördüm bu gün əl-ayağı yeddidi,*
*Qırx səkkiz qanadı var, şəmsi çırağı yeddidi.*
*Dörd qardaşın bir səhrada bağçası, bağı yeddidi,*
*Səkkiz min yeddi yüzün qırx dörd qolbağı yeddidi.*

Aldı Şəmşir:

*Bir ilin gərdişinin hər bir sayağı yeddidi,*
*Qırx səkkiz həftəsinin əli barmağı yeddidi.*
*Üç yüz altmış beş günü var, qarası, ağı yeddidi,*
*Səkkiz min altı yüz saatın qırxdı, cəm tağı yeddidi.*

*Dörd fəslin qərarının həm təm-tərağı yeddidi.*

Aldı Mürsəl Əfəndi:

*Səkkiz min altı yüzün qırx olan barmağına bax,*
*On iki kargüzarın gəşti dolanmağına bax.*
*Bəzəyinə, kəmərinə, dörd yerdən qurşağına bax,*
*Onun əlvan libasına, qarasına, ağına bax.*
*Müxtəsər, sözlərinin yaxın, uzağı yeddidi.*

Aldı Şəmşir:

*İlin səkkiz min altı yüz qırx olan saatını bil,*
*Bir ilin beş bayramının mən deyim, sən adını bil.*
*On iki aylarının gərdişi, muradını bil,*
*Gecə qara, gündüzü ağ, ləzzətini, dadını bil.*

*Əfəndim, həftələrin başı, ayağı yeddidi.*

Aldı Mürsəl Əfəndi:

*Sənə Mürsəl əfəndinin yenə vardı bir sualı,*
*Sualıma cavab verin, olsanız bu işdən halı.*
*Mənim qorxumdan bu yana quşlar gəlsə qanad salı,*
*Bir məkanın kimlər üçün yaman olur qeyli-qalı,*
*Gözümlə görməmişəm, gəlir sorağı yeddidi.*

Aldı Şəmşir:

*Şəmşirəm, baş əymərəm molla, sizin hədənizə,*
*Dolanıb ilan kimi yoxsul malı mədənizə.*
*Yıxarsınız aralıqdan hazır olur vədənizə,*
*Göstərdiyin yaman məkan qismət olsun dədənizə,*
*Görməsən o mənzili, deməzdin çağı yeddidi.*

Ələkbər dedi:

- İndi də Şəmşir desin, qazı ilə molla cavab versinlər.

Bu təklifi hamı  razı oldu.

Aldı Şəmşir:

*Beş alim gördüm bu gün onun dəftərxanası beş,*
*Onun on min şagirdi var,*
*səkkiz min zəbanəsi beş.*
*Ağzından şəkər süzür, kəlməsi - dürdanəsi beş,*
*Yazısı beş mətləbi beş, qələmi – nişanəsi beş,*
*Dili əhmərdən yaranan, gövhəri - xəzanəsi beş.*

Əfəndi cavab verə bilməyib dedi:

- Sözünün hamısını desin, biz hamısına birdən cavab verərik.

Aldı Şəmşir:

*Libaslarından danışım, bəzəniblər doqquz dona,*
*Beş alimin yeddi əli səcdə qılır dəyir rəna.*
*Baş açmadı qazı, əfəndi, molla da qaçdı bir yana.*
*Boy üstündə bir hesabı yetişir minə, milyona,*
*Qaşlarını yoxdu bilən, gərdişi- zəmanəsi beş.*

*Şəmşir, saxla sən yadında xeyli qənimətdi bu söz,*
*Sahatı qanan yanında elmi-mərifətdi bu söz.*
*Sərraflar bazarında çox əla qiymətdi bu söz,*
*Təşbehatla yoxdu işim, doğru həqiqətdi bu söz,*
*Atası bir, anası bir, səbəb nədi xilqəti beş.*

Cavab olmadığına görə qarabağlı Ələkbər dedi:

- İndi bu adam mənim ixtiyarıma keçdi. Bir adamın hünəri yoxdur ki, ona bir söz desin.

Qazının, Əfəndinin sözü qurtardı. Şəmşiri Ələkbərə verib buraxdılar.

Sənubər anasının yanına getdi.

Sənubər gedəndən iki il sonra atası vəfat etmişdi. Atasının ölüm xəbəri Sənubərin dərdini birə-beş artırdı. Aradan xeyli keçəndən sonra Sənubər soruşdu:

- Ana, bəs Hidayət necə? Evlənib, yoxsa yox?

Anası dedi:

- O, hələ sənin yolunu gözləyir.

Bu söz Sənubəri elə sarsıtdı ki, elə bil yara üstündən yara vurdular.

Sənubər aldı görək anasına nə dedi:

*Heç qurtarmaz söz yarası,*
*Məni niyə yaraladın?*
*Var sinəmin öz yarası,*
*Bir də kəsib paraladın.*

*Vurdun qəmi, qüsərini,*
*Bax gör yara yerlərini.*
*Qəlbimin ağ dəftərini,*
*Niyə pozdun qaraladın?*

*Sənubərəm, aslan kimi,*
*Qəmlərim var dastan kimi,*
*Bir sahibsiz bostan kimi,*
*Məni baxtsız uraladın.*

Bu zaman Şəmşir gəlib çıxdı. Şəmşirin buraxılmasından ürəyi açıldı.

Sənubər Şəmşirə dedi:

- Hidayətin bacısı Səmariyyə gəldi mənə dedi ki, biz səni gözləyirdik, nə

yaxşı gəldin. Onun sözü mənim ürəyimi paralayıb, o gündən bəri özümü doğrulda bilmirəm. Deyəsən bizi bir-birimizdən ayıracaqlar. Bu dünyadan nakam gedəcəyik. Aldı görək nə dedi:

*Düşdüm eşq ucundan elə bir dərdə,*
*Dərman yoxdu azarına sinəmin.*
*Nələr çəkdim qərib - qürbət ellərdə,*
*Bir qulaq as güzarına sinəmin.*

Aldı Şəmşir cavabında:

*Məni Məcnun edən vəfalı Leyli,*
*Sən ov çıxdın şikarına sinəmin.*
*Bu çərxi – fələkdən mənəm gileyli,*
*Qəmlər qondu vüqarına sinəmin.*

Aldı Sənubər:
*Bir sənin eşqinə min badə içdim,*

*İlqarın yolunda başımdan keçdim.*
*Məcnun sorağına gəldim yetişdim,*
*Yaxşı çatdın bazarına sinəmin.*

Aldı Şəmşir:
*Ey sənəm sürahi qaməti şahbaz,*
*Mənim də dərdimi desən qurtarmaz,*
*Sənin gəlişində dedim açar yaz,*
*Qarmıyağdı baharına sinəmin?*

Aldı Sənubər:
*Sənubəri bir sal yada gedirəm,*
*Kam almadım mən dünyada, gedirəm,*
*Can verib yolunda fəda gedirəm,*
*Göz yaşı tök məzarına sinəmin.*

Aldı Şəmşir:
*Bu dərdə dayanıb dözmərəm sənsiz,*
*Şəmşirəm, bağları gəzmərəm sənsiz,*
*Döşümə bənövşə düzmərəm sənsiz,*

*Gül taxmaram kənarına sinəmin.*

Söz tamam olanda Sənubər gözünü dolandırdı, bir neçə qətrə yaş gözlərindən leysan kimi süzələndi.

Şəmşir dedi:

- Sənubər, nə üçün ağlayırsan?

**Bu xəstə çağında Sənubər,**
**Gəzdiyin ellərmi yadına düşdü?**
**Çiçəkli güneylər, soyuq bulaqlar,**
**Çəmənli çöllərmi yadına düşdü?**

Sənubər dedi:

- Qulaq as, gör yadıma düşən nədi?

*Məni oyadardı səhər yuxudan,*
*Anamın gur səsi yadıma düşdü.*
*Deyərdi dur qızım, bahar çağıdı,*
*O şirin nəfəsi yadıma düşdü.*

Aldı Şəmşir:
*Hanı, kimdi kömək duran bu işə?*
*Arif əhsən deməz belə gərdişə,*
*Ayazın mehinə çimən bənövşə,*
*Açılan güllərmi yadına düşdü?*

Aldı Sənubər:
*Dalıb xəyallara, düşmə uzaqlara,*
*Məhəbbətmi salıb Məcnunu dağa,*
*Səməndər aşiqdi oda yanmağa,*
*Şamın pərvanəsi yadıma düşdü.*

Aldı Şəmşir:
*Şəmşirə sən doğru verdiyin ilqar,*
*Niyə müşkül olub etibarlı yar?*
*Dünyada baxtından var yarıyanlar,*
*Həmin gözəllərmi yadına düşdü?*

Aldı Sənubər:

*Sənubər mətləbə çatmadı nədən?*
*Yoxsa bu fələkdi mənə zülm edən,*
*Çox olub əlindən balası gedən,*
*Kərəmin anası yadıma düşdü.*

Bu əhvalatı eşidən Hidayət və bacısı Səmariyyə gəldilər Sənubərin yanına. Onları görən Sənubərin dərdi daha da artdı və dedi:

- Siz durun evinizə gedin, mənim gözüm sizi görməsin.

Onlar durub evlərinə getdilər.

Sənubər Şəmşirə dedi:

- Şəmşir qəmlənmə qulaq as, gör nə deyirəm:

*Mənim bu bir ürəyimin,*
*Yarı mənim, yarı sənin.*
*Gəl düz bölək alma kimi,*
*Yarı mənim, yarı sənin.*

Aldı Şəmşir cavabında:

*Qocalaram fərağından,*
*Ala gözlü pəri, sənin.*
*İşıq salır yarpağında,*
*Didarının nuru sənin.*

Aldı Sənubər:
*Bülbüllərim dil açmadı,*
*Mənə kömək əl açmadı,*
*Bir bağ saldım, gül açmadı,*
*Dedim olar barı sənin.*

Aldı Şəmşir:
*Boyağısan vicdanımın,*
*İlqarımın, imanımın,*
*Bədəndə iki canımın,*
*Biri mənim, biri sənin.*

Aldı Sənubər:
*Məcnun kimi dağları gəz,*
*Lal sular tək dinməz-dinməz,*
*Mən gedirəm bir də görməz,*
*Gözün Sənubəri sənin.*

Aldı Şəmşir:
*Eldən aldım sorağını,*
*Gör sinəmin bu dağını,*
*Şəmşir çəkir fərağını,*
*Uşaqlıqdan bəri sənin.*

Söz tamam oldu, Sənubərin yanına gələn qız-gəlinlər onun könlünü aldılar. Bu zaman qarabağlı Ələkbər bir dəstə ilə gəlib çıxdı, dedi:

- Niyə kefsizsiniz?
- Əhvalatı ona xəbər verdilər. Ələkbər dedi:

- Qəm eləməyin, sizin toyunuzu eləyib gedəcəyəm. Hamı ilə razılaşmışam.

Bu zaman Hidayət də gəlib çıxdı, dedi:

- Əzizlərim, görürəm siz bir-birinizi ürəkdən sevirsiniz. Mən əl çəkdim. Sənubər bu gündən mənim bacımdı. Toyunuzu edin. Allah mübarək etsin, xoşbəxt olasınız.

Hamı şad oldu. Həmin gündən toya başladılar. Bir dəstə xanəndə, aşıq gətirdilər. Yeddi gün, yeddi gecə toy eləyib Sənubəri Şəmşirə verdilər. Toyun axırıncı günü Şəmşir özü aşağıdakı duvaqqapma ilə öz toyunu tamamladı.

İnsaf et sevgili yar, salmısan haldan məni sən,
Məcnun tək zay elədin əql-kamaldan məni sən,
Gözlərin min can alır, saxla zavaldan məni sən,
Gəl qurtar, bir mən ölüm, bu qeyli-qaldan məni sən,

Tovlayıb salma kənar eldən, mahaldan məni sən.

*Təzə cavan,*
*Şirin zəban,*
*Öldüm, aman!*
*Halım yaman.*

*Bir şux cavansan pərim!*
*Gözəl, göyçək dilbərim!*
*Uzun boylu ərərim!*
*Ətrin, mişgü, ənbərim!*
*Dildə şirin əzbərim!*

*Cismdə bir can kimi,*
*Ağılda ümman kimi,*
*Tutiyi-irman kimi,*
*Hüsnü də qılman kimi,*
*Çöllərdə ceyran kimi.*

Ovçunam, salma uzaq gözəl camaldan məni sən.

*Naz ilə bir bəri bax, ağıllı, kamallı gəlin!*
*Xoş gülüş, xoş danışıq, ey incə ufallı gəlin!*
*Qaşların təhri-qələm, yanaqların xallı gəlin!*
*Boy gözəl, bədən lətif, bir mələk misallı gəlin!*
*Sinni bir ilk bahar, bənövşəli, allı gəlin!*

*Qaşı hilal,*
*Huri misal,*
*Ləbində bal,*
*Eylər xəyal,*
*Bu xətti çal.*

*Qoy, quzu, alsın qadan!*
*Bəzəkli, tovuz nişan!*
*Gəl danışaq mehriban!*
*Biz sən ilə hər zaman,*
*Sirr bir olaq canhacan...*

*Kəndimizin göyçəyi,*
*Sinəsi dağ çiçəyi,*
*Gəl kəsmə tel, birçəyi,*
*Budur sözün gerçəyi.*

*İnsaf et, ayırma heç ağ üzdə xaldan məni sən.*

*Kölgədə qüzey, yerdə gün dəyməmiş qardı sinən,*
*Xəstəyəm min fərmana təkcə bərabərdi sinən,*
*Elə bil göy bağçada yetişməmiş nardı sinən,*
*Gül açır, çiçək açır bir yeni bahardı sinən,*
*Simuzər, yaqut, gövhər açılıb, elə bil bazardı sinən.*

*Sanki mələk,*
*Bayaz bilək,*
*Açma kələk,*
*Etdim dilək,*
*Öldüm fələk!*

*Səndə nələr var hələ,*
*Özün salıbsan dilə,*
*Mən yazığa rəhm elə,*
*Zər düzülüb kəkilə,*
*Dilin dönüb əsələ.*

*Çıxdı aşığın canı,*
*Gəzdi bütün dünyanı,*
*Dolanıram hər yanı -*
*Cümlə Azərbaycanı,*
*Sənin kimi can hanı?*

*Ac arıyam, bir doyuzdur dodaqda baldan məni sən.*

*Gah qaçır könlüm quşu saçları ilana tərəf,*
*Gah baxır həsrət gözüm döşdəki bostana tərəf,*
*Mürği-ruh fərar edir, uçur asimana tərəf,*

*A dostlar nəzər salın bu canlar alana tərəf,*
*Göz yetirsin hərdən o biz tək nocavana tərəf.*

*Camalın bir ağ kağız,*
*Bir busə versən, ay qız.*
*Yaram üstə bağla buz,*
*Kənar keçmə ay ulduz.*

*Ol mənimlə qol-boyun,*
*Toylarda olur oyun,*
*Qızlar, siz də oynuyun,*
*Ləzzəti var bu toyun.*

*Gəl barı al könlümü sənsən ucaldan məni sən.*

*Tellərin çin-çin edib hər yana gərdəndən aşır.*
*Arxalıq, zər yaxalıq baxar-baxmaz göz qamaşır,*
*Hələ də mənim könlüm dərya kimi aşıb-daşır.*
*Səni ki, el tanıyır cahanda olmusan məşhur.*

*Camalı ay,*
*Qaşları yay,*
*Aman, haray,*
*Qılmana tay,*
*Sailə pay.*

*Ancaq o da dodaqdan,*
*Bir cüt busə yanaqdan,*
*Fikrim odu bayaqdan,*
*Mən öldüm ağlamaqdan,*
*Düşdüm əldən, ayaqdan.*

*İnsaf eyləsən əgər,*
*Dərdimi alsan xəbər;*
*Aşıq üçün bir qədər*
*Qapında qalar nökər,*
*Qulluğunda sərbəsər.*

*De nədir qəsdin, qərəzin eylədin yoldan məni sən!*

*Şəmşirəm, qeydimə qal, səni sevən bir aşığam,*
*Möhnətin sərsəmiyəm, dərd əlindən dolaşığam,*
*Məhəbbət çırağından şölə çəkən bir işığam,*
*Dərin eşq dəryasıyam, elə sanma bir qaşığam,*
*Toylarda, nişanlarda, məclislərdə yaraşığam.*

*Əlimdə saz,*
*Bülbül avaz,*
*Oyna az-az,*
*Sən elə naz,*
*Ey quba qaz.*

*Məskəndi göllər sənə,*
*Çəmənli çöllər sənə,*
*Quldur gözəllər sənə,*
*Yoncudu dillər sənə.*

*Oyna, danış, gül barı,*
*Dünyanın odu varı;*
*Bizim tərəfə sarı,*
*Mənə də bax, sən Tarı!*

*Gözəldə yoxdu vəfa,*
*Çoxu çəkibdi çəfa,*
*Çoxu gəlib təvafa,*
*Vardı sürən xoş səfa,*
*Yar, sən də gəl insafa.*

*Yetir bir lütfün varına özün halaldan məni sən.*

# POLAD
## Əsərin məzmunu

Dədənin Polad əsərinin qısa məzmunu.

Ucqar rayonlardan birində ətrafı sıx meşəli dağlarla əhatə olunmuş dağların ətəyində geniş düzənlikdə yerləşən kənddə gözəl təsərrüfat vardır. Təsərrüfatın rəhbəri xüsusi orta təhsilli baytar Polad təsərrüfatı gözəl idarə eləyir və kolxoz rayonun ən qabaqcıl kolxozlarından biri kimi bütün dövlət tapşırıqlarını yerinə yetirməklə bərabər kolxozçuları yaxşı əmək haqqı verir. Qəflətən müharibə başlayır. Dövlətin qərarı ilə səfərbərlik elan edilir. Bu kəndə də nümayəndələr gəlib yığıncaqda Polad özü təşəbbüs qaldırır ki, döyüşə gedir. Onu bu qərarından çəkindirmək mümkün olmur. Polad elə həmin vaxt kəndin igidlərindən 11 nəfəri də özü ilə götürüb müharibəyə gedir.

Onu manqa başçısı işləyən Humay əvəz edir. Həm də Poladın təsərrüfat briqadiri Qara dayı söz verir ki, bütün gücü və fərasəti ilə müntəzəm işlərinə kömək edəcək, gənc gəlin qızları səfərbər edib ölkə üçün, ordu üçün lazım olan məhsul istehsalında fəal olacaq.Belə də olur. Qızlar, gəlinlər müharibəyə gedən ərlərini və nişanlılarını igidliklə əvəz edir kolxoz nəinki zəifləyir, əksinə təsərrüfat daha da genişlənir bol taxıl-- ə istehsal olunur, cəbhə üçün göndərirlər. Hətta, kəndin gəlin qızı ordu üçün corab, əlcək, isti köynək toxuyub göndərirlər.

Polad cəbhədə özünü qəhrəman kimi aparır. Verilən döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirir. O, qalibiyyəti sayəsində döyüş taktikasını öyrənir və bu çətin şəraitdə qalibiyyəti sayəsində özünü istedadlı həlim və qayğıkeş insan kimi təqdim edərək hörmət qazanır.

O cəbhədə olan zaman ailəsi, qızı ona ürəkaçan məhsullar göndərirlər.

Müharibə qurtarır. Polad kəndlərinə igid əsgər kimi qayıdır. Onun sinəsi orden və medallarla doludur. Kənd əhalisi onu təntənə ilə qarşılayır və s.

**İştirakçılar:**

Polad – Kolxoz sədri

Əjdər Kərimov - müəllim

Minayə Qasımova - Poladın arvadı, kənd sakini

Qara kişi – kolxoz briqadiri. Kəndin sakini, ağsaqqal

Humay - manqa başçısı –

Sərəncam - qabaqcıl kolxozçu

(Lalə) İlza Kərimova – Poladın qızı, gənc qız

Xırda Əhmədova - kənd sakini, qabaqcıl kolxozçu

Qaranaz Qurbanova - Poladın bacısı, qabaqcıl kolxozçu

**Birinci pərdə, birinci şəkil.**

Ətrafı qalın meşələrlə örtülmüş uca dağların ətəyində mövcud olan sahələrdə salınmış kənd. Kəndin orta hissəsində tikilmiş kolxoz idarə heyətinin uzun binalarının qabağında toplaşan qızlar işə hazırlaşırlar. Manqa başçısı onlara tapşırıq verib gedir, onlar öz aralarında danışırlar.

Poladın qızına müraciətlə soruşurlar:

- Ay bacı, nə xəbər var?

Atandan məktub gəlirmi?

Poladın qızı:
Xeyli vaxtdı məktub yoxdu,
Ürəyimdə duyğu çoxdu.
Deyir atam sağ-salamat dönəcəkdi,
Sevincindən gözlərində güləcəkdi.

May ayıdır. Hadisə uzaq bir əyalətdə dağ rayonlarının birində, hər tərəfdən uca, lakin qalın örtüklü meşələrlə örtülmüş uca dağların geniş ətəklərində salınmış qədim Ağdiyar kəndində baş verir. Əkin əkməyin əsl vaxtı gəlib, hamı iş üstündədir. Sağıcı qızlar sağına başlayırlar.

Kəndin düz ortasından qədimlərdən kəndi iki hissəyə bölən "El yolu" adlanan dolayı yol keçir. Kəndin orta hissəsində - təpənin üstündəki 30-cu illərdə inşa edilmiş birmərtəbəli, lakin geniş həyəti və hündür otaqları olan məktəb binası, həmin binanın qabaq tərəfində uzun tikililəri olan kolxoz idarəsi vardır.

Kənd camaatının bir hissəsi kolxoz idarəsinin həyətinə toplaşıb nə isə söhbət eləyirlər. Birdən kəndin sağ tərəfində ucalan dağın üstündən təyyarə səsi eşidilir.Təyyarə uçuşlarını çox nadir hallarda görən kənd adamları səs-küylə təyyarəyə tamaşa etməyə

başlayırlar, məktəblilərin demək olar ki, əksəriyyəti sinif otaqlarından çölə axışıb qışqıra-qışqıra nə isə deyirlər.

Təyyarə uçub gedir və adamlar “Xeyir ola, görəsən o təyyarə hara gedirdi?” - deyə bir-birlərinə suallar yağdırır.

Camaat bir-birinə suallar verir:

- Ay balam, heç buralardan təyyarə getməzdi, görəsən bu nə məsələdir? Allah xeyir eləsin!

Təyyarənin kəndin üstündən uçuşundan bir neçə gün keçirdi. Rayon mərkəzindən kəndə iki nəfər təhkimçi gəlir və camaatı kolxoz idarəsinin qabaq tərəfindəki meydançaya yığıb müharibə başlanması barədə məlumat verir.

Kolxozçular məlumatdan çox narahat olur, sədr çıxış edərək sözünü deyir və məlum edir ki, səhərdən ölkədə səfərbərlik elan edilibdir.

Kolxoz sədri:

Əzizlərim, zaman gəldi,
Müharibə başladı.
Biz səfərbər olmalıyıq,
Bəd xəbərlər yaman gəldi,
Müharibə başladı.

Kolxozçular xornan:
Biz bu gündən əsgər kimi
Döyüşməyə hazırıq.
Hünər ilə, zəhmət ilə
Faşistlərə dərin qəbir qazırıq!

Qızlar:

Qoy kişilər əsgər getsin,
Biz də qalıb işləyək.
Düşmənin hər fitvasına
Gücünə nifrət deyək!

Kolxoz sədri Polad:

Əzizlərim, möhkəm olun,
Sınaq vaxtı başladı.
İndi ölkə tamamilə
Büsbütün “Savaş!” - dedi.
Möhkəm olub birləşək biz,
Pozulmasın cərgəmiz.
Düşmən istəyir ki,
Hər şeyimiz məhv ola.
Gərək elə birləşək ki,
Düşmənimiz dəf ola!

**Birinci pərdə, ikinci şəkil.**

Kənd. Kənddə Kolxoz idarə heyətinin sədri – orta təhsilli olmasına baxmayaraq ixtisasını gözəl bilən və kənd əhalisinin sağlamlığı keşiyində duran Polad özü yaşında və özündən bir neçə yaş kiçik olan kənd cavanlarını toplayıb könüllü dəstə

düzəldir və müharibəyə getmək qərarına gəldilər.

Polad yoldaşlarına və kənd camaatına müraciətlə:

Vətən bizim canımızdır,
Vətən bizim anamız.
Müdafiəyə qalxmalıyıq
İndi bizim hamımız.

Biz düşmənə göstərərik gücümüzü qorxmadan,
Ay qardaşlar, kömək edin siz də bizə arxadan!

Poladın arvadı Nənəş bacı:
Sən doğru yol seçdin, üzün ağ olsun,
Ölməyə hazırıq, Vətən sağ olsun,
Gecə-gündüz işləyərək arxa dürarıq sizə,
Təki yaxşı hünəriniz gəlib yetişsin bizə!

Poladın gənc qızı Pəri bala:
Ata, sənə uğur olsun, düşmənə vermə aman,
Qoyma düşmənləri göz açmağa heç zaman.

Polad:

Qəşəng balam, arxayın ol, biz qovarıq düşməni,
Heç vaxt düşmən ala bilməz, bu qüdrətli Vətəni.

Əzəcəyik başını,
Atacağıq daşını.
Ağlar qoyacağıq
Yarını, yoldaşını.

Çoxdu bizim igidlər
Geri dönən deyillər.
Yeriyib dəstə-dəstə

Cumallar düşmən üstə.

Çoxdu bizdə igidlər,
Cəsarətli cigidlər.
Düşməni məhv etməmiş
Geri dönən deyillər!

Ağsaqqal Qara dayı üzünü Polada və onun dostlarına tutub:

Əziz balalarım, əziz oğullar,
Gedin, qədəminiz mübarək olsun!
Qudurmuş düşmənin əzin başını,
Əlinizdə sınmaz dəyənək olsun!

Gözünü açmağa macal verməyin,
Güclü olsalar da, boyun əyməyin.
Kişi tək döyüşün, savaş eyləyin,
Sizlərə İlahi qoy kömək olsun!

Gənc qızlar hərənin əlində bir dəstə meşəli güneylərdən dərilmiş gül dəstəsi yola düşmək istəyən cavanlara yanaşıb mahnı oxuyurlar:

Sizə uğurlar olsun,
Gəlsin yaxşı sədanız.
Düşmənimiz xar olsun,
Əlləriniz var olsun!

Sizə söz veririk biz,
Qeyrətlə işləyəcəyik.
Tapşırılan işlərdə
"Yoruldum!"- deməyəcəyik!

Poladın manqa başçısı Humay:

Gedin yaxşı döyüşün,
Bizdən arxayın olun.
Yolunu bilin işin,
Düşmənin canın alın.

Mən də söz verirəm ki
Gəncləri toplayacam.
Kəndin heç bir işində
Bir kəsir qoymayacam.
Manqalar yaradacam,
Gəlinlərdən-qızlardan.
Onları seçmirəm mən,
Göydəki ulduzlardan.
Hamı əl-ələ verib,
Yarış geçirəcəyik.
Təsərrüfat işində
Qeyrətlə işləyəcəyik!

Qara dayı üzünü toplaşan qız-gəlinə tutub:

Sağ olun balalarım,
Halal olsun sizlərə.
Qeyrətlə əl qoymusuz
Kənddə bizim işlərə.
Biz sizə inanırıq,

Sizə arxalanırıq.

İndi icazə verin,
Dostları yola salaq.
Onlara yaxşı yollar,
Uğurlar arzulayaq!
Qoy camaat sağ olsun,
Vuruşsunlar igid tək.
Hamılıqla onlara
Biz uğurlar diləyək!

Bütün kənd əhalisi ordu sıralarına gedənləri gül-çiçəklə yola salırlar.

**II pərdə, birinci şəkil.**

Yenə həmin kənddir. Avqust ayıdır. Gənc qızlar-gəlinlər hamısı oraqla taxıl biçirlər. Qara dayı atını birinci qızların yanına sürüb atdan düşür. Əksəriyyət onun

ətrafına toplaşıb cəbhədən xəbər eşitmək istəyirlər.

Qara dayı onları xoş təbəssümlə qarşılayıb cəbhədən alınan xəbərlərdən düşməsin hücumlarından və döyüşçülərin igidliyindən danışır.

Poladın gənc qızı Lalə bala ona suallar verməyə başlayır.

Dayı, sən Allah bir danış,
Atamgildən de, nə xəbər?
Poçtalyon da yoxa çıxıb,
O gələrdi hərdən-hərdən.

Axı məktub gözləyirik,
Doğru xəbər bilməyirik,
Tab gətirib dözməyirik,
Xəbər yoxdu igidlərdən.

Atam gedib iki aydı,

Kaş ki, salamat olaydı.
Hər şad xəbər bizə paydı,
Üzülmüşük inan, dərddən.

Qara dayı Laləni bağrına basıb alnından öpür və deyir:

Atandan şad xəbər gəlib,
Qonşu kənddən əsgər gəlib.
Cəbhədə bir döyüşüblər,
Ayrılanda görüşüblər.
Sırağa gün gördüm onu,
Tərif eylədi atanı.
Olub bülük komandiri,
Qırıb töküb nemesləri.
Ordenə təqdim ediblər,
İnşallah, şad xəbər gələr.

Lalə:

Sağ ol Qara baba,

Səni sevir bu el-oba.
Axı bizim babamızsan,
Yol göstərən atamızsan.
Borcluyuq səni eşidək,
Vaxtlı-vaxtsız işə gedək.
Qoy bol olsun məhsulumuz,
Qələbə çalsın ordumuz!

Qara dayı :

Var olun siz, balalarım,
İgidlərim, qoçaqlarım!
İşi görən sizləriniz,
Siz balsınız, şəkərsiniz!
Çox çəkməz ki, ordumuzdan
Şad xəbər eşidərsiniz!

Lalənin rəfiqələri hamısı Qara dayının başına toplaşıb xorla:

Gözləyirik şad xəbərlər,

İnşallah, tezliklə gələr.
Biz də gülüb sevinərik!
Həm də xəbər gətirənə
Yaxşı nəmərlər verərik!

Qara dayı:

Balalarım, gedin işə,
Sizi nələr gözləyir.
Hər addımda hərəkətlə
Vicdan, hünər gözləyir.
Allah qoysa, Allah qoysa:
Xoş xəbərlər gözləyir!

Artıq gecədən xeyli keçibdir. Hamı dağılır, sakitlikdir. Hərdən-hərdən kəndin müxtəlif tərəflərində xırda-xırda səs eşidilir.

**İkinci pərdə, ikinci şəkil.**

1942-ci ilin mart ayıdır. Bütün kənd ağ qara bələnmişdir. Ətrafı sıx meşələrdən ibarət olan kənd elə bil ağ örpəyə bələnmiş bir gözələ bənzəyir. Kəndə rayon mərkəzindən adamlar - nümayəndələr gəlib, onların əsas məqsədi cəbhədə gedən vəziyyətlə əhalini tanış etmək və arxa cəbhədə çalışan əmək adamlarını ruhlandırmaqdır.

Rayondan gələn adamların içərisində söz sənətkarları və el aşıqları da var .

Gündüzdur. Camaat böyük bir ev damına yığışıb.

1-ci çıxışçı

Yoldaşlar, sizə sağ ol üçün gəlmişik,
Düşmən qorxutmayır, sizi arxa bilmişik.
Yaxşı məhsul becərdiniz, yaxşı taxıl verdiniz,

Cəbhə üçün, kömək üçün böyük işlər gördünüz.
Dövlətimiz minnətdardır zəhmət çəkən hər kəsə,
Görürəm ki, hazırsınız cəbhə kömək istəsə.

2-ci çıxışçı

Kəndinizin adamları yaxşı hünər göstərir,
Ordumuza kömək üçün taxıl-çörək göndərir.
Sağıcılar hünərlidi, qoçaqdır,
Darıxmayın, əzizlərim inşallah,
Düşmən məhv olacaqdır!
Amma belə bir xahişimiz olacaqdı sizlərə:
İndi isti əlcək, corab çox lazımdı əsgərə.
Kəndinizin gəlin-qızı bu işləri bacarır,

Yaxşı təchiz olan əsgər hünərdə gümrah olur.

Poladın arvadı çıxış edir:

Əziz dostlar, hər birimiz bir cüt corab toxuyar,
Bunun üçün evimizdə yunumuz, ipimiz var.
Uzaq çəkməz, bir on günə işimizi görərik,
Əsgərlərə corab, əlcək toxuyub göndərərik.

Onun rəfiqəsi:

Söz verirəm bir cüt əlcək, bir cüt corab toxuyum.

İkinci qız:

Mən də Sizə söz verirəm isti köynək toxuyum,
Həm də igid qardaşlara daim dua oxuyum.

Üçüncü qız:

Mən də isti  şərf toxuyub göndərəcəm orduya,
Əsgər əyər hünərlisə düşmən düşər qorxuya!

Bütün qızlar, gəlinlər bir-bir çıxış etdi. İsti geyim düzəltməyə öhdəliklər götürdü.

Bu məclisdə iştirak edən aşıq, Humayın və qızların cəsarətinə heyran-heyran tamaşa edir, sonra onların xahişi ilə sədəfli sazını sinəsinə basıb ustadlardan, xüsusən, Koroğludan mahnılar oxuyur.

Sonra üzünü əmək adamlarına tutub belə bir "Çoban bayatı" çəkir:

Aşiqəm, qaya gəldi,
Dağ uçdu, qaya gəldi.
Dar gündə səsim çıxdı,
Dostlar haraya gəldi.

Hamı əl çalır və xahiş edirlər ki, aşıq bir qədər də oxusun. Aşıq camaatın sözünü məmnuniyyətlə qəbul edir və deyir:

- Ay camaat, Hitler gec-tez məhv ediləcəkdir, yıxılacaqdır.

Məğrurlanıb, "mənəm" deyib gəzənlər,
Qəvvas olub süd gölündə üzənlər,
Yoxsul füqaranı döyüb əzənlər
İstər xandı, istər bəydi, yıxılar.

Boysuz ağac qorxu çəkməz kökündən,
Əyilməz çox əsən çöl küləyindən.
Namərdin sarayı boşdu kökündən,
Yel əsər, bənnası zaydı yıxılar.

Hamı aşığı alqışlayır, məclis sona yaxınlaşır.

**İkinci pərdə, üçüncü şəkil.**

Yenə yay vaxtıdır. Kənd camaatı geniş ərazinin birində nəhəng bir--- ağacının kölgəsində məclis keçirirlər. Yenə rayon mərkəzindən bir neçə nümayəndə gəlib. Onlarla birlikdə Poladın qiymətli ordenlə təltif edilməsi barədə qəzetlərdə nəşr edilən hökumət fərmanını əhaliyə çatdıranlar xoş xəbər söyləmək üçün gəliblər.

Poladın işini cəsarətlə davam etdirib təsərrüfatı qardaşı ilə birlikdə hünərlə idarə edən Humay:

Bu gün muştuluq günüdür,
Hamınız sevinin, dostlar!
Kəndimizin oğulları
Düşmənlərlə vuruşurlar.

Bilirsiniz üç nəfərin
Qara kağızın almışıq.
Yenə cəbhə üçün bu gün
Beş igid yola salmışıq.
Çoxdu bizim el obada
Qoç igidlər, qoç oğullar,
Onlar hücuma girəndə
Düşmənlər qorxub qaçırlar.
Və eləcə qaçacaqlar,
Dünyada rüsvay olacaqlar!
İndi də icazə verin,
Sözü biz Əliyə verək.
Polad necə döyüşübdü,
Qoy ondan söyləsin görək!

Əli nümayəndədir, o müharibədə sol əlindən yara alıb, bir aylıq məzuniyyətə gəlib. Onun sol qolu boynundan asılıdır. O, səhnəyə çıxır, qadınlardan bəziləri ağlaşır, "Can qardaş!" - deyən də var. Amma Əli

qəhrəmanlığından, düşmənlə necə vuruşduğundan və Poladdan danışır:

Analarım, bacılarım, var olun siz,
Bilirəm ki, yaxşı hünər göstərmisiz.
Taxılınız bol olubdur,
Bütün anbarlar dolubdur.
Ödənibdi öhdəliklər,
Bu hünərə kim nə deyər?!
Sizin igid yetirməniz
Polad qardaş təltif olub.
Ölkəmizin ən şərəfli ordeniylə
O yenə də cəbhədədir, düşmənlərlə
Hesab çəkir, geri dönər tezlik ilə!

Hamı əl çalır.
Söz Poladın arvadına verilir:

Xəbər çatdırın Polada,
Qoy döyüşsün o orduda.
Biz də onu alqışlarıq,

İsti köynək, corab, əlcək,
Nə desə yola salarıq.
Deyin ki, biz salamatıq,
Ona sağlıq arzularıq!

Hər tərəfdən yüksələn alqış səsləri dağlarda əks-səda verir.

Poladın qızı Lalə səhnəyə çıxır:

Mən atama salamımı
Nəğmə ilə göndərirəm.
Bu dağların güllərindən
Boynuna çələng hörürəm.

Qış dolansın, yaz gəlsin,
Gölə quba-qaz gəlsin.
Göylə uçan ağ quşlar,
Deyin, atam tez gəlsin!

Atam, gülə-gülə gəl,

Al süngünü əlә, gәl!
Məhv et yağı düşməni,
Yurdunu məhv elə, gəl!

Alqışlar qopur hamı alqış deyir
Şadlıq-sadyanalıq davam edir.

***

"Polad" əsəri nikbin yeniliklərlə bitir. Müharibə qurtarır və Polad sağ-salamat qayıdır. Onun sinəsi qələbə orden və medalları ilə doludur. Bütün kənd toy-bayram içindədir.

Əsərin əlimizdə olan hissəsi hazırda Tərtər rayonunun Sarov kəndində yaşayan, vaxtilə "Polad" dramında əsas rollardan birinin aparıcısı olan Xırda Əvəz qızı Əhmədovanın yaddaşı əsasında qələmə alınmışdır. 85 yaşını keçməsinə baxmayaraq, az savadlı bu qadın çox dərin

və möhkəm yaddaşının köməyi ilə böyük xeyirxahlıq göstərib əsərin oxuculara çatdırılmasında xüsusi rol oynadı. .

**Dədənin ikinci səhnə əsəri**

## ƏSLİ VƏ KƏRƏM
***Dram***

Bu əsər "Əsli və Kərəm" dastanı əsasında səhnələşdirilmiş mənzum dramdır.

Əsərdə Əsli ilə Kərəmin məhəbbət macəraları və o zamanın qadağalarına baxmayaraq, Kərəmlə Əslinin məhəbbətlərinin qalib gəlmələri genişliyi ilə verilmişdir.

Doğrudur, dastanda Əslinin ağzından çıxan çınqının Kərəmin üstünə düşməsi nəticəsində Kərəm yanıb külə dönür və dastan qəmgin sonluqla bitir. Amma səhnə

əsərində əsər nikbin sonluqla, yəni Əsli ilə Kərəmin qovuşması ilə bitir.

Kərəmlə Əslinin görüşmələrinə və əlaqələrinə ciddi qadağa qoyulmasına Xan oğlu Kərəmin onunla izdivacına heç cür icazə verilməməsinə baxmayaraq səhnə əsərində Əsli ilə Kərəm Əslinin cəsarəti və istəyi nəticəsində qovuşur. Əsli çox ustalıqla qara keşişi aldadaraq ona xahişlər edir. Onun yalvarışlarına məhəl qoymayan qara keşiş Əslini də götürüb başqa diyara köç etmək qərarına gəlir. Amma qız sözünə sadiqdir o məhəbbətinin artıq məhv olduğunu görəndə xəncərlə qara keşişi məhv edir, Kərəmlə qovuşur. Burada yaddaşımda olan bir əhvalatı danışmasam olmaz. Əsər qonşu Usacıq(Çapar) kəndində oynanılırdı. Biz bir-iki nəfər əl çəkməyib piyada həmin kəndə getmişdik. Elə ki, Əsli qara keşişin sinəsinə xəncəri sancıb Kərəmə doğru gələndə zaldan tamaşaçılardan xeyli yaşlı bir

erməni qadını yerindən qışqıra-qışqıra düz səhnəyə çıxıb Əslinin yaxasından tutdu ki, sən bizim keşişi niyə öldürürsən?!

Əsli rolunu oynayan Güləsər Məmmədova (Dədəmin əmisi qızı idi) pəhləvan gövdəli qız həmin qadını qucağına alıb dedi:

- Ay axmaq, sən öl, səni bu səhnədən elə ataram ki, qarpız kimi dağılarsan! Bu sözdən sonra alqışlar qopdu.

Onu da deyim ki, tamaşaçıların 70-75% - i Usaçıq(Çapar) kəndinin erməniləri idi.

# FƏRHAD VƏ GÜLƏNDAM DASTANI

## *Binamuslara nifrət, namuslulara rəğbət dastanı*

İndi sizə kimdən və nədən danışım?! Keçən dastanlardan, Əmiralı adlı yoxsul bir kişidən.

Əmiralı kişinin mal-dövləti olmadığı kimi, övladı da yox idi. Nəhayət, o yarı yaşlarına çatanda İlahi ona bir övlad verdi, oğlu oldu. Adını Fərhad qoydular. Fərhad on beş, on altı yaşına çatanda ata-anası vəfat etdilər. Yetim qalmış Fərhada bir yandan kömək əlini uzadan olmur. Naəlac qalıb axırda Sərdar şahın mülkündə özünə bir dəyə bina edir. Gündəlik çörək pulunu isə, ancaq qaratikan kollarının kökünü qazıb bazarda satmaqla çıxarır və bu minvalla dolanır.

Günlərin birində Sərdar şahın qızı Güləndam kənizlərini də götürüb gəzməyə çıxır. Bu vaxt yolları Fərhadın daxmasının yanından düşür. Elə bu vaxtda Fərhad qaratikan kökünün şələsini belinə alıb, şələlənib bazara yola düşməkdə idi. Boylu-buxunlu, yaraşıqlı bu cavan oğlanın şələlənmiş halətini görən Güləndamın qəlbi yandı. Soruşdu:

- Oğlan, məgər sənin ayrı bir sənətin, peşən yoxmu?

Fərhad cavab verdi:

- Mənim bir arxam, elim yoxdu ki, məni bir sənət, peşə sahibi eləsin, kömək göstərsin. Çarəm nədir? Nə qədər sağam gərək bir vasitə ilə özümü saxlayam. Yaxşı olar ki, öz əl zəhmətimin halal bəhrəsi olsun. Fərhadın bu sözündən Güləndam o qədər razı qaldı ki, bilmədi ondan necə

ayrılsın. Çünki, bu gözəl cümlə həm də, gözəl ağızdan çıxmışdı.

Elə oradaca Güləndam Fərhadın məhəbbət zəncirinə bağlandı. Qayıdıb öz şahanə taxtına gəldisə də, səbr-qərarı kəsildi, bir saniyəsi bir ilə döndü. Naəlac qalıb öz qulluqçusunu Fərhadın yanına göndərdi və tapşırdı:

- De ki, mən onu ürəkdən sevirəm. O da məni sevsə  mən öz ilqarımda ölüncə varam.

Bu xəbər Fərhada çatanda o, bir ah çəkdi, dedi:

- Mən yoxsul, malsız, pulsuz adam, sən isə şah qızı. Bizim aramızda uzaq-uzaq yollar var. Hər kəs ayağını yorğanına görə uzatsa yaxşıdır.

Qaravaş bu sözü olduğu kimi Güləndama danışdı. Güləndam davam edə bil-

mədi, durdu özü gəldi Fərhadın yanına, dedi:

- Fərhad, yolları uzaq eyləyən də, yaxın eyləyən də, qadir Allahdır! Mən səni qəlbən sevmişəm, başqa fikirlərə düşmə!

Fərhad fikirləşdi ki, mən şah qızını aldım, nə ilə saxlayacağam. Məndə heç bir yaşayış yoxdu axı, gəl dərdini şah qızına de, bəlkə məndən əl çəkdi.

Bu yerdə Fərhad görək şeir diliylə dərdini Güləndam xanıma necə bəyan elədi:

*Atadan, anadan yetim qalmışam,*
*Mənim malım, mülküm, varım yoxdu, yox!*
*Mən hələ bir bağın intizarıyam,*
*Bağçasız bağbanam, barım yoxdu, yox!*

*Sən bir şah qızısan, mənsə bir nökər,*
*Yoxsulluq, qəriblik qəlbimi sökər.*

*Ağlaram, gözlərim qanlı yaş tökər,*
*Kömək duran səbəbkarım yoxdu, yox!*

*Mənə qəhr edibdi zəmanə, gedim,*
*De, hansı mənzilə, məkana gedim,*
*Sən göstər, yol alım hayana gedim,*
*Umudvarım, havadarım yoxdu, yox!*

*Ağa başa keçər, yoxsul ayağa,*
*Bu dövranda duran kimdi dayağa?!*
*Gedib qapısında pənahlanmağa*
*Qohum-qardaş, bir simsarım yoxdu, yox!*

*Fərhadam, yara var məndə, Güləndam,*
*Dönər "sar quşu"na arxasız adam.*
*Baxtımı kəməndə salıb bəd əyyam,*
*Əl atmağa heç tutarım yoxdu, yox!*

Fərhad sözünü tamam edən kimi Güləndam xanım dedi:

\- Sən elə sanma ki, mən səni "məcazi" sevmişəm. Qulaq as, gör nə deyirəm:

*Sənə qəlbən vurulmuşam,*
*Yaman tutub gözüm səni.*
*Firqətindən yorulmuşam,*
*Düşündürsün sözüm, səni.*

*Şöləsiyəm şəmsi-mahın,*
*Sahibi ol bu mətahın.*
*Mərd qızıyam Sərdar şahın,*
*Gəl, qəlbimə düzüm səni.*

*Qaşım qələm, hüsnüm aydı,*
*Məlakələr mənə taydı.*
*"Ata!" - deyib çağıraydı*
*Keşkə oğlum, qızım səni.*

*Qəlbin böyük, özün nökər,*
*Meylim səndən əlmi çəkər?!*

*Sanki göydə sənsən ülkər,*
*Bəyənmişəm özüm səni.*

*Sən gözümdən olsan kənar*
*Eşq oduna cismim yanar.*
*Güləndamın diləyi var:*
*Ürəyimdə gəzim səni.*

Fərhad doğrudan da Güləndamın ona olan eşq-məhəbbətinə inandı. Bu iş bir ilin arasında elə şayan oldu ki, bəs Sərdar şahın qızı qaratikan kökü qazıb satan oğlana, bir çulu cırığa aşiq olub. Bu xəbər Sərdar şaha çatan kimi qızını qulluğuna çağırıb dedi:

- Səndən gözləmədiyim şeylər eşidirəm. Əgər elə bir xəyalın sahibisənsə özünü ölmüş bil. Mənin bir şahlıq adımı sən yerə vurub qaratikan kökünü qazan

bir yoxsul kimsəsizə aşiq olmusan. Bu doğrudurmu?

Qız cavab verdi:

- Bəli, ata, elədir ki, var. Sən elə bilmə ki, yoxsuldan gələcəyə ümid gözləmək olmaz. Yoxsulun da Allahı var, yoxsulun da ürəyi var.

Şah qızına qəzəbləndi və dedi:

– Rədd ol!

Atası onu hüzurundan qovdu. Beləliklə, Güləndam Fərhadın yoxsul daxmasının xanımı, işığı oldu.

Fərhad və Güləndam üç-dörd ay olardı ki, yaşamışdılar. Fərhad həmişə fikirli və qaşqabaqlı olurdu. Bir gün Güləndam xanım soruşdu:

- Fərhad, sən niyə belə qaşqabaqlısan, özü də bir gün yox, iki gün yox, həmişə?

Fərhad dedi:

- Güləndam, axı sən belə çətin günlər görməyibsən. Mən səni sənə layiq saxlaya bilmirəm.

Güləndam gülə-gülə cavab verdi:

- Atalar deyiblər ki, “Yaman günün ömrü az olar!” Darıxma Fərhadım, Allaha şükür elə, hər şey yaxşı olar.

Fərhadın dərdi bir az da artdı, ürəyi kövrəlib dedi:

*Salamat qal, gözəl yarım,*
*Bir diyara gedəsiyəm.*
*Artıb dərdim, intizarım,*
*Qəlbim yara, gedəsiyəm.*

Güləndam Fərhadın niyyətini başa düşür. Ona belə cavab verir:

*Dünya malı, a Fərhadım*
*De, gör kimə qalasıdır?!*

*Gələcəyə umud olmaq*
*Ürəyin bir qalasıdır.*

Fərhad:
*Əbri-baran tək dolmuşam,*
*Necə saralıb-solmuşam.*
*Yanında xəcil olmuşam,*
*Üzüqara gedəsiyəm.*

Güləndam:
*Cəfa çəkmə, sən bu yolda,*
*Əl kiridi mal da, pul da!*
*Haqq nəzəri olsa qulda*
*Hasil mətləb alasıdır.*

Fərhad:
*Gedim oda qalanmağa,*
*Malım yoxdu talanmağa,*
*Tapammadım dolanmağa,*
*Mən biçarə, gedəsiyəm.*

Güləndam:
*Getsən özüm öldürərəm,*
*Düşmanları güldürərəm,*
*Dərdim kimə bildirərəm,*
*Qəm canımın bəlasıdır.*

Fərhad:
*Yoxdu məndə ata-ana,*
*Əhvalıma kimlər yana.*
*Yol başlayım biyabana,*
*Olsa hara, gedəsiyəm.*

Güləndam:
*Çoxlar görüb bu viranı,*
*Süleymanlar köçüb, hanı?*
*Kim tutub fani dünyanı*
*Bir gündə məhv olasıdır.*

Fərhad:

*Fərhadı kim çəkər başa,*
*Üz tutum hansı qardaşa?*
*Mənim oxum dəydi daşa,*
*Yansam nara, gedəsiyəm.*

Güləndam:
*Güləndama gülər ellər,*
*Çox çəkmişəm acı dillər.*
*Yenə qaynar quru göllər,*
*Qorxma, bir də dolasıdır.*

Hər iki sevgilinin sözləri tamam olur. Fərhad həmin gecə öz-özünə fikirləşir: “Mən bu şah qızını bu yoxsulluq içində saxlaya bilməyəcəm, gərək gedib bir yanda nökər olum, işləyim, əlimə sərmayə alım”.

Uzun-uzadı fikirlərdən, sevgilisi ilə məsləhətlərdən sonra Fərhad çarıqlarının bağını bərkidib yola düşür. Gəlib qul baza-

rına çıxır. Ətrafa baxıb böyük yığıncaq görür. Bir tərəfə əyləşir. Bu vaxt bir tacir Fərhadın çox layiqli, şahanə oturuşuna, baxışına, mehriban sifətinə nəzər salır və soruşur:

Oğlan, sən nökər axtarırsan, yoxsa nökər olmaq məramındasan?

Fərhad dedi:

- Mən yoxsulam, ağa. Rəhmli bir adam olsa mən ona nökər olardım.

Tacir dedi:

- Həmin rəhmli adam mənəm. İnanırsansa, etibar edirsənsə gedək mənimlə.

- Bəli, Fərhadı həmin rəhmli tacir gətirdi evinə. Malını, mülkünü ona tapşırıb dedi:

- Mən bir neçə illik sövdəgarlığa gedirəm. Mən gəlincə bu mal-mülk, hər şey sənə əmanətdir, muğayat ol! Qayıdıb sağ-salamat gəlsəm ağanam, gəlməsəm hər

şey haqqın, halalın, xoşun olsun, bağışladım sənə!..

Tacir Fərhadla sağollaşıb öz qəflə-qatırı ilə sövdəgarlığına  yola düşdü. Bu getməklə tacir bir ildən-iki ildən yox, düz on səkkiz ildən sonra öz evinə dönə bildi.

Güləndam xanımın həsrətindən bağrı qan olan Fərhad ürəyini daşa döndərib dözürdü ki, tacirə söz verib, onu ümidvar eləyib. Etibarsızlıq kişi işi deyil.

Səfərindən qayıdan tacir hər işi öz qaydasında, nizam-intizamla görəndə Fərhadı bağrına basıb öpdü, dedi:

- Oğlum, on səkkiz ildir sən mənim mal-dövlətimi göz bəbəyin kimi qorumusan, özümdən də etibarlı saxlamısan. Sənin hər ilinə yüz manat qızıl verirəm, halalın olsun! Bəlkə səni gözləyən var, gedə bilərsən.

Fərhad tacirlə halallaşıb yola düşəndə tacir onu sınamaq üçün dedi:

- Fərhad, oğlum, məndə bir neçə ağıllı söz var, o sənə verdiyim on səkkiz yüz manatı mənə versən, deyərəm. Fərhad öz-özünə dedi: "Qoy desin, görüm bu qiymətdə o nə sözdü. Onsuz da Güləndam xanım indiyə qalmaz, çünki rahatlığa öyrənən şah qızına etibar yoxdu".

- Fərhad pulu tacirə verdi, tacir dedi:

1. Oğlum, bu yoldaşın sirrini o biri yoldaşa demə.
2. Gördüyün işi dərhal, əlbə-əl xəbər alma.
3. Bir işin əslinə çatmamış onu tutma.
4. Dərya dalğalı olanda ondan keçmə.
5. Körpünün uzaqlığına ərinib daşqın çaya düşmə.

Tövsiyələri deyəndən sonra tacir Fərhadın pulunu da özünə qaytarır, ona

yəhərli-yüyənli bir at da verib "Yaxşı yol" arzuladı.

Fərhad xeyli yol gedir və gəlib dəyənin qırağında bir evin qapısına çatdı. Ev sahibinə dedi:

- Allah qonağıyam, bu gecə məni qonaq saxla.

Ev sahibi dedi:

- Allah qonağı mənim evimdə qala bilməz, başqa yerə get! Fərhadın əlacı kəsildi, qərib yerdə çöldə qalmamaqdan ötrü başladı kişiyə şirin dilnən, şeirlə müraciətə:

*Qapıdan qaytarma qərib, bikəsəm,*
*Qoy qalım evində Allah qonağı.*
*Yandırma qəlbimi, yanqın nəfəsəm,*
*Çox çəkmişəm dərdi-qəmi, fərağı.*

Ev sahibi:

*Mənim dərdim hər kim bilsə qalar mat,*
*Allah qonağısan, qalma bu yerdə.*
*İstəyirsən başın ola salamat,*
*Özünü bəlaya salma bu yerdə.*

Fərhad:

*Əzəldən belədi bazarım mənim,*
*Düşüb yad ellərə güzarım mənim,*
*Bir kəsə dəyməmiş azarım mənim,*
*İnanmasan özün eylə sınağı.*

Ev sahibi:

*Sən də dərd əhlisən, anladım sözdən,*
*İsmətinin nuru getməyib üzdən.*
*Gəl mənim halımı keçirmə gözdən,*
*Dərdlərimə şərik olma bu yerdə.*

Fərhad:

*Fərhadam, bir şirin dil adamıyam,*
*Elin nökəriyəm, el adamıyam,*
*Mənə rəhmin gəlsin, yol adamıyam,*
*Olur yaxşıların Allah dayağı.*

Ev sahibi:

*Alovlunun sən evində qalarsan,*
*Solarsan, günümü görüb solarsan.*
*Müşkül halətimi xəbər alarsan,*
*Əcəl dəryasına dalma bu yerdə.*

Söz tamama yetdi. Ev sahibinin adı Alovlu idi. Alovlu görür ki, qonaq abırlı-ismətli adam olsa da bərk dirəşib, qonaq heç gedənə oxşamır. Odur ki, razı olur, qapını onun üzünə açır.

Fərhad evə daxil olanda görür ki, bir arvad zəncir ilə bağlanıb, yanında da bir tula var. Fərhad üçün yemək hazırlanır. Yeməkdən bir qab da tulanın qabağına qoyurlar. Tulanın qabağından qalan yeməyi Alovlu arvadın qabağına qoyur. Əlinə qamçı alıb arvadı döyə-döyə yedizdirir. Fərhadın ürəyi yanıb xəbər almaq istədi. Lakin birdən tacirin tövsiyəsi yadına düşdü: “Gördüyün hər işi dərhal xəbər alma”. Əlbəttə, ağıl sahibləri ağıllı sözü unutmaz!

Səhər açıldı. Fərhad gedəsi olanda ev sahibi Alovlu soruşdu:

- Sən niyə demədin ki, bu arvadın günahı nədir ki, sən belə edirsən?

Fərhad dedi:

- Mən Allah qonağıyam. O işləri ki, Allah bilir, onlara mən qarışmaram. O işlər ki, mənə aid deyil, mən soruşmaram.

Alovlu dedi:

- Mən sənə dedim ki, Allah qonağı burda olmaz. Ona görə ki, hər gələn qonaq xəbər alırdı ki, bu nə üçün belədi, nə üçün filandı, feşmandı. Dərdimi təzələyirdi. Mən də öldürüb salırdım bu zirzəmiyə. İndi sən soruşmadığın vəziyyəti mən sənə danışım, niyə belədir?!

- Mən dustaq idim. Qolu bağlı halda bir gün dustaqlıqdan qaçdım. Gəlib çatdım evimə, gördüm qapım bağlıdır. Qapıma arvadım çıxmadı, məni görüb qapını açmadı. Qabağıma, səsimə bu tula çıxdı. Qolumdakı zənciri dişləri ilə çeynədi, kəsdi, qolumu açdı. O gündən sonra mən belə edirəm, belə yaşayıram. Fərhad Alovludan ayrılıb yola düşdü. Gəlib öz yurduna çatdı. Baxıb gördü ki, daxmasının yerində bir gözəl imarət tikilib. Xəyal etdi

ki, yəqin Güləndam xanım başqasına ərə gedib, bu evi də sonradan tikiblər.

- Fərhad evə çatıb darvazanı döydü, ev sahibini qərib sayaq çağırdı. Güləndam xanım qabağa çıxdı. Amma, Fərhadı tanımadı. On səkkiz illik vaxt, ağır işlər, ev-eşik, ailə həsrəti, hicranı Fərhadı qocaltmışdı, cavanlığından əsər-əlamət qalmamışdı. Fərhad dedi:

- Ay xanım, Allah qonağıyam, məni bu gecə qonaq saxlayarsanmı?

Qonağın ləhcəsi Güləndam xanıma şirin gəlsə də qeyrətinə kəsir gəldi, dedi:

- Qonaq, incimə başqa evə get.

Güləndam xanımın Fərhadı tanımaması Fərhada təsir elədi, dözə bilmədi, görək bu dəfə nə dedi:

*Gəlmişəm, sən saxla gözəl,*
*Bir gecəlik qonaq məni.*

*İnsaf elə, haqqa düzəl,*
*Salma eldən uzaq məni.*

Güləndam dərhal cavab verdi:

*Ağlını topla başına,*
*Qonaq, danışma hədyanı.*
*Neçə ildi bu qapıya*
*Qoymamışam bir insanı.*

Fərhad:
*Gəl məndən eşit iltimas,*
*Sözlərimə bir qulaq as.*
*Qoy qəlbindən dağılsın yas,*
*Qovlama bal dodaq, məni.*

Güləndam:
*On səkkiz il ahu-zaram,*
*Seyrəqiblə yoxdu aram.*
*Mən bir kəskin zülfüqaram,*

*Bölərəm yağı düşmanı.*

Fərhad:
*Acıqlanma, mələk pəri,*
*Ürəyimin şahbaz, nəri.*
*Xoş nəzərlə baxsan bəri,*
*Tanıyarsan bayaq məni.*

Güləndam:
*Ağlını kim alıb sənin,*
*Huşun harda qalıb sənin,*
*Əcəlinmi dolub sənin,*
*Gəzirsən o yan, bu yanı.*

Fərhad:
*Mənim arxam, kürəyimsən,*
*Qüvvətimsən, dirəyimsən.*
*Cismim, canım, ürəyimsən,*
*Unudubsan, ancaq məni.*

Güləndam:
*Şübhələndim bu sözündən,*
*Vahimə aldım gözündən.*
*Xəbərin varmı özündən,*
*Söylə eşidim ad-sanı.*

Fərhad:
*Mənim adım Qəmküsardı,*
*Canım yolunda nisardı.*
*Bir vəfalı yarım vardı,*
*Edər bir gün soraq məni.*

Güləndam:
*Mən şah qızı Güləndamam,*
*İtkin Fərhada qurbanam.*
*De, sən kimsən xam oğlu, xam?!*
*Tərk etmirsən bu meydanı.*

Söz tamama çatandan sonra Güləndam qonağı qəbul edir, evə aparır və süfrə

hazırlayır. Axşam düşdükdə evə bir gözəl oğlan daxil olur, qonaqla görüşüb yeməyə əyləşir. Yeyib-içəndən sonra qonağı yatmağa öz otağına yola salırlar.

Oğlan Güləndam xanımla qaldı. Fərhadın yerinə qor doldu, yata bilmədi, özözünə dedi: "Arvada etibar olmaz!" deyiblər. Məni gözləməyib, ya buna ərə gedib, ya da..." Sözün dalını deməyə dili gəlmədi. İstədi durub keçsin Güləndam xanımla oğlan yatan otağa, ikisini də öldürsün, yenə rəhmli tacirin tapşırığı yadına düşdü: "Bir işin əslinə çatmamış onu tutmağa tələsmə".

Səhər açıldı. Fərhad səhər çörəyinə Güləndam xanımdan xəbər aldı:

- Xanım, xəbər almasam bu sirr məni görda da rahat buraxmayacaq. Siz dediniz ki, on səkkiz ildi bu qapıya yad insan

qoymamışam. Bəs gecə sənin otağında qalan oğlan kim idi?

Güləndam xanım dedi:

- Qonaq, günah eləmə. Mən ilqarsız arvadlardan deyiləm. O, mənim oğlumdur. Bu evləri də o tikdirib, öz atasının yurdunda.

Sevincdən az qaldı Fərhadın ruhu bədəndən çıxsın. Özünü nişan verməyə başladı.

*Yadına gəlirmi Güləndam xanım,*
*Qaratikan kökü qazdığım günlər.*
*Dolanmağa olmadı təhər, əncam,*
*Baş alıb bu yerdən azdığım günlər.*

*Göndərdin kənizi sən elçiliyə,*
*Bəs özün görüşə gəlmədin niyə?*
*Bir çatan olmadı dada, köməyə,*
*Göz yaşımla namə yazdığım günlər.*

*Fərhadam, söhbətim, sözüm dillərdə,*
*Məcnun kimi hey dolandım çöllərdə.*
*Düşür xəyalıma, qürbət ellərdə*
*"Güləndamım!",- deyib gəzdiyim günlər.*

Güləndam Fərhadı tanıyıb sevincindən ağlayır, Fərhadın boynuna sarılır.

Fərhad on səkkiz il əvvəl öz daxmasından çıxanda ana bətnində olan 18 yaşlı cavan da gözləri dolmuş halda ata-anasına baxdı.

İki sevgili təzədən toy-bayram sevinci, toy-bayram məclisi təşkil eləyib el-obanı şadlığa dəvət elədilər. Allaha şükür elədilər.

# AT ƏHVALATI

Dədə Şəmşirin oğlu Əkbər müəllim xırmanlar vaxtı atı vələ qoşur, xırman döyür. Sonra da harasa getmək istədiyinə görə yəhərləyib atı buraxır ki, bir az otlasın. Əkbər müəllimin başı işə qarışır, at gözdən yayınır, dərələrdən başıaşağı, enişə çıxıb gedir. Əkbərin başı bir vaxt işdən ayazıyanda görür at yoxdu. Başlayır atı axtarmağa. Gəlib Turşsuyun üstündə bir nəfərə rast gəlir. Atı soruşur. Kişi deyir:

- İndicə başında qantarğa olmayan, yəhərli bir atın səllim getdiyini gördüm. Bilmədim hara gedirdi, nə də soruşmadım.

Əkbər kişiyə baxıb mat qalır və yadına düşür ki, atın başına qantarğa taxmayıb. Yazıq Əkbər müəllim nə qədər gəzirsə atı tapa bilmir, yorulub əldən düşmüş halda, şər qarışanda evə çatır. Əhvalatı Aşıq

Şəmşirə danışır. Sən demə, at Ağdabandan 7 km aşağıda, dərədə Tərtər sahilində yerləşən, erməni-müsəlman qarışıq kənd olan Çərəkdara çıxır və keçir bu kəndin oğruları olan erməni Yelmar ilə müsəlman Məstanın əlinə.

Dədə Şəmşir, qonşu Çərəkdar kəndinə bəzi gümanı gələn adamların adına belə bir məktub göndərir:

*Qulaq asın var deyirəm*
*sözümün canı, qonşular.*
*Xoş bilirəm vurduğunuz*
*mənə ziyan, qonşular.*
*Yaralansa mərd nə qədər*
*dözər, dayanı, qonşular.*
*Lazımdı ki, gözləyəsən*
*hörməti, nanı, qonşular.*
*Qonşuluq düz olmalıdır*
*söz qurtaranı, qonşular.*

*Olan olub, keçən keçib,*
*çox görmüşük beləsini.*
*Gözümüzlə götürmüşük*
*ağır hicran şələsini.*
*At, qoyun, mal qalmadı,*
*gördü gözüm eləsini.*
*Qurar bir gün yamanlara*
*ədalət öz tələsini.*
*Hər işin, hər qisasın*
*gələr zamanı, qonşular.*

*Nəmrud dedi: "Allah mənəm!"*
*niyyəti başa varmadı.*
*Firon qərq oldu ümmana,*
*əcəl gölün o yarmadı.*
*Xəzinə yığdı Dağ Yunus,*
*əldə bir şey aparmadı.*
*Qurtardı "Vartan vergisi"*
*Haqq vergisi qurtarmadı.*
*Satarmı dünya malına*

*insan insanı, qonşular.*

*İyirmisi sentyabr*
*min doqquz altmış iki il.*
*Axşam saat 17-də*
*tarixini yazmışam, bil.*
*Bir kəhər atım itib,*
*nə təpəldi, nə də səkil.*
*Çox gözəl yorğası var,*
*qızıl irəng, köhlən nəsil.*
*Əgər ona rast gəlsəniz*
*budur nişanı, qonşular.*

*Aradım "Alçalığı"*
*"Kərəm arı yandıranı".*
*"Kəkil meşə", "Carcarlığ"ı*
*"Sarı Qaya", "Tək xırman"ı.*
*"Yapalaqlı dam güneyi"*
*qarış-qarış gəzdim hanı?*
*"Buzluğu", "Qalayçı"nı*

*Bir də dolandım “Şaban”ı.*
*Baxmamış bu yerlərin*
*yoxdu qalanı, qonşular.*

*“Mizdi”dən iz kəsmişəm,*
*axtarmışam “Mirfəttah”ı.*
*“Turşsu”da, “Məscidli”də*
*bircə yer qoymadım dahı.*
*Yorur məni eniş, yoxuş,*
*yazıq canım çəkir ahı.*
*Bu nainsaf oğru, görək*
*niyə unudub, Allahı?!*
*Atsız aşıq çətin gəzər*
*Eli-obanı, qonşular.*

*Dayanmırıq, axtarırıq*
*altı-yeddi gündən bəri.*
*Dağı, daşı, meşələri*
*təpələri, dərələri.*
*Azərbaycan ellərinə*

*çatdırmışam bu xəbəri.*
*Doğrudur, qardaşyana*
*uzun sözün müxtəsəri.*
*Amanatın, qayıtmağa*
*varmı imkanı, qonşular?*

*Ağsaqqal qohumlarım*
*kömək versinlər bu işə.*
*Nə lazım, bilən olmasın*
*çox düşməsin dilə-dişə.*
*Dost gərəkdi dost yolunda*
*Fərhad olub dağı deşə.*
*Adətkara kim nə desin,*
*müsəlmanda var bu peşə.*
*Yelmarı mən axtarım,*
*siz də Məstanı, qonşular.*

*Bir at məni salmaz kasıb,*
*adamın sığmır adına.*
*Belində bir yəhər gedib,*

*bax, işimin avandına.*
*Mərd olub, halal süd əmən,*
*qeyrəti salsın yadına.*
*Bu iş, nəinki kişiyə*
*təsir elər hər qadına.*
*Mənə çox ağır gəlir*
*işin bu yanı, qonşular.*

*Yerin, göyün məlakəsi,*
*hürüsü var, pərisi var.*
*Şahid olun, o yəhərin*
*üstdə təkə dərisi var.*
*İki ədəd təkaltısı*
*nə o yanı, bərisi var.*
*Özbaşına, yüyənsizdi,*
*niyyətimin gerisi var.*
*Qataram bir-birinə*
*dağı, aranı, qonşular.*

*Şübhəliydim Ağdabandan,*

*Çərəkdardan gəldi soraq.*
*Atı üryan görən olub,*
*məsələni gəlin yoraq.*
*Şəmşir, özü yaxşı bilir*
*aparmayıb başqa qonaq.*
*At sizin, yəhər mənim,*
*de əl verin, sövda vuraq.*
*Sənətkarı saya alın*
*bizim Kolanı qonşular.*

Dədə Şəmşirin bu sözündən sonra onun adını-sanını saya alıb, xəbər gedib yuxarı dairələrə, inzibati orqanlara çatmasın deyə atı aparanlar onu buraxırlar. Neçə gündən sonra Turşsu talasında at Dədə Şəmşirin böyük oğlu Qənbər müəllimə rast gəlir. Lakin, yəhərsiz. Atı gətirir məhəllələrinə.

Dədə Şəmşir atını yəhərsiz görüb belə bir söz yazır:

*Soyub yəhərini itmiş bir atın,*
*Aparıb bir yekəbaş, köpəkoğlu.*
*Sən oğlusan hansı qancıq arvadın,*
*Mərifətdən uzaq taş, köpəkoğlu.*

*Bilmirəm erkəksən, yoxsa ki, dişi,*
*Belə alçaqlığı tutarmı kişi?*
*Bəlkə bəyənirsən tutduğun işi,*
*Yoxsa gəlir sənə xoş, köpəkoğlu?*

*Necə sığır qeyrətinə, arına,*
*Satdın namusunu, dünya malına.*
*... vicdanına, yarına*
*Ay ağlı səy, beyni boş, köpəkoğlu.*

*Qayıtmaram, qisas alınca səndən,*
*Dolaram tüfəngə, qılınca səndən,*
*Bil ki, əl çəkmərəm ölüncə səndən,*
*Olsan bir qanadlı quş, köpəkoğlu.*

*Şəmşirəm, sənə bir söz lənətim var,*
*Əyri danışıram, düz lənətim var,*
*Əlli lənətim var, yüz lənətim var,*
*Altı donuz oğlu, beş, köpəkoğlu.*

**Aşıq ŞƏMŞİR**

**DASTANLAR VƏ ƏHVALATLAR**

**Operatorlar:** **Gülnişan Füzuli, Mətanət Həmidqızı**

**Korrektorlar:** **Anar Füzuli, Kənan Bədirli**